RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 269 (8292) ÇƏRŞƏNBƏ, 4 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin sistem islahatlarının yeni hədəfləri və ilkin uğurları

## Sarsılmaz təməl üzərində qurulan Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz.

Çox şadam ki, "Bakutel" sərgisində iştirak edirsiniz. Biz çox məmnunuq ki, Türkiyə bu sərgidə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Bu, çox önəmli bir tədbirdir, uzun illər ərzində ənənəvi olaraq keçirilir. Əlbəttə ki, həm Azərbaycanın bu sahədəki nailiyyətlərini nümayiş etdirir və dost ölkələrin də texnoloji inkişafını əks etdirir.

Bildiyiniz kimi, hörmətli Prezident, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla biz bu günlərdə TANAP-ın açılışını qeyd etdik. Bu, bir daha Türkiyə-Azərbaycan dostluğunu ifadə edir. Bu, dostluq layihəsidir. Çünki Türkiyə və Azərbaycan birgə iradə göstərmişdir. Bildiyiniz kimi, Azərbaycan qazını Avropaya çıxarmaq üçün uzun illər müzakirələr gedirdi, Nabukko layihəsi üzərində dayanmışdılar. Ancaq onun texniki və maliyyə tərəfi həll edilməmişdi. Əslində, biz bir neçə il itirdik. Nəhayət, 2012-ci ildə birgə qərarla tarixi İstanbul anlaşması imzalandı və TANAP-a yol açdı. Onu da bildirməliyəm ki, TANAP-ın inşasında iştirak edən şirkətlərin böyük əksəriyyəti Türkiyə şirkətləridir. İşlərin təqribən 80 faizini Türkiyə şirkətləri görüb. Biz artıq bu nəhəng, böyük layihəni istismara verdik. Bu, doğrudan tarixi nailiyyətdir.

Sizin rəhbərlik etdiyiniz sahədə də çox uğurlu əməkdaşlıq aparılır. Əlbəttə, ilk növbədə, biz Bakı-Tbilisi-Qars dəmir yolunun inşasını qeyd etməliyik. Bu da tarixi layihədir. Azərbaycan Türkiyə üzərindən Asiya ilə Avropanı dəmir yolu ilə birləşdirdi. Bunu da tarixdə ilk dəfə olaraq biz icra etmişik. İndi yüklərin daşınması da artır. Hazırda Orta Asiya ölkələrindən, Çindən, hətta Əfqanıstandan yüklər bu yolla dünya bazarlarına çıxarılır. Əlbəttə ki, bu, Türkiyə-Azərbaycan birliyi, dostluğu sayəsində mümkün olmuşdur. Bu, bizim mövqelərimizi möhkəmləndirir, gücümüzü artırır. Əminəm ki, bu yol əbədi çalışacaq və daşınan yüklərin həcmi artacaqdır.

Bir də ki, Türkiyədə texnoloji inkişaf çox sürətlə gedir. Biz bunu izləyirik, buna sevinirik. Sənaye sahəsində, informasiya texnologiyaları sahəsində çox böyük uğurlar əldə edilib.

Ardı 2-ci səh.

## Prezident Administrasiyası müasir islahatların modern lokomotivinə, gənclik İlham Əliyev kursunun fədailərinə, Azərbaycan isə yenə də nümunəyə çevrilir

**Milli Məclisin son iclasında qəbul edilən qərar növbədənkənar seçkilərlə bağlı prosesə rəsmən start verdi. Konstitusiya Məhkəməsi bugünkü iclasında Prezidentin sorğusuna münasibətini bildirməklə, hüquqi prosedur başlamış olacaq. Artıq ölkədə islahatlar sosial-iqtisadi yönümdən tədricən, amma sürətlə inzibati istiqamətə keçir. Qanunverici hakimiyyətin yeni tərkibinin formalaşması ilə bütünlüklə dövlət quruculuğu prosesinin təkmilləşməsinin ilkin mərhələsi başa çatacaq.**

### Prezidentin müstəsna istisnalığı

İlham Əliyev cəmiyyətin sosial-psixoloji impulslarını dəqiqliklə müşahidə edir, ölkədəki ictimai-siyasi durumu düzgün araşdırır, əhalinin mənəvi ovqatını, daim yenilənən baxış və gözləntilərini aydın müəyyənləşdirir. Bunlara əsasən də strateji hədəflərini, taktiki gedişlərini, idarəçilik aparatını davamlı təkmilləşdirir və Azərbaycanda misli görünməmiş dəyişikliklərə müəlliflik edir.

Prezidentin vizyonu 10-30 il sonrakı Azərbaycanının soisal-iqtisadi, ictimai-siyasi mənzərəsini formalaşdırır. Liderin bu vizyonu - gələcəyə baxış konsepti çoxşaxəli olduğu qədər də konkret və məqsədyönlüdür. Özü də yalnız iqtisadi, siyasi aspektdə deyil, məğzində milli dəyərlər sistemi olan geniş mənəvi spektri əhatə edir.

Məsələn, İlham Əliyev Yeni Əsrin enerji müqaviləsini 2050-ci ilədək uzatmaqla, Azərbaycandan keçən qlobal tranzit marşrutlarını bir neçə onillik sonrakı geoiqtisadi və geosiyasi reallıqlara indidən uyğunlaşdırmaqla və belə saysız-hesabsız strateji layihələri hazırlamaqla yanaşı, həm də o dövrün idarəçiləri olacaq bugünkü uşaq və yeniyetmələrin müasir dünyagörüşlə bahəm milli-mənəvi kontekstə köklənməsini prioritetlərindən biri elan edib. Yəni İlham Əliyevin bu gün qəbul etdiyi qərarlar daha çox sabah üçündür.

Bu baxımdan Prezidentin gənclər siyasəti düzgün və dolğundur. İlham Əliyev gənclərə potensiallarını realizə etmək üçün nəinki şərait yaradır, onlara böyük meydan verir, dövlət aparatında hətta ali məqamlaradək yüksəldir. Onların müasir biliklərini, modern təfəkkürlərini, daha mobil və səmərəli iş metodlarını mövcud komandanın ümumi fəaliyyət meyarı kimi təsbit edir.

Bu etimadı göstərməklə Prezident yalnız sabahın peşəkar idarəçilərini formalaşdırmır, həm də zamanın müasirliklə bağlı çağırışlarının fəsadlarından dövləti qoruyur. Bəli, məhz gənclik təcrübəsi müəyyən qədər az olsa da, yeni dünyanın çoxyönümlü trendlərini və qlobal proseslərin mahiyyətini doğru anlayır, onlara asanlıqla adaptasiya olaraq, tətbiqini daha effektiv həyata keçirir.

Yeni əsrin beşdəbirini geridə qoyarkən zamanın özü ilə bərabər sürətlə gətirdiyi müasir tələblərə və dəyərlərə savaş açmaq, əhali qrupunda ən fəal və ağırlıqlı zümrəyə çevrilən, - obrazlı desək, - "Z nəsli"nin, yeniyetmə və gənclərin yanaşmalarına, düşüncə və fəaliyyət tərzlərinə qənim kəsilmək, dövlət aparatını qlobal çağırışların zəruri meyillərindən kənar saxlamaq acı nəticələr verir, dövlət böhranlarına səbəb olur. Ən azından, son onillikdə "domino effekti" kimi ard-arda faktiki süqut edən dövlətlərin, həmçinin mərkəzi meydanlardakı etirazların ən ucqarlara qədər uzanan üsyanlara çevrilməsi misalında bunu aydın görmək olar.

Ardı 4-cü səh.

## Milli Məclis icbari tibbi sığorta haqlarını müəyyən etdi

### Parlament yanvarın 1-dən mərhələli şəkildə tətbiqinə başlanılacaq "Tibbi sığorta haqqında" qanun layihəsini sonuncu oxunuşda təsdiqlədi

Milli Məclisin dünən keçirilən plenar iclasında ölkə ictimaiyyətinin diqqətində olan bir neçə mühüm qanun layihələri üçüncü, yəni sonuncu oxunuşda təsdiqləndi. Bunların sırasında xüsusilə tibbi sığorta və uşaqların övladlığa götürülməsi ilə bağlı sənədlərə olunan dəyişikliklər maraq kəsb edirdi. Milli Məclisin Sədri Oqtay Əsədov gündəlikdəki 15 məsələni təqdim etdikdən sonra iclasda müzakirələrə başlanıldı.

### Mərhələli icbari tibbi sığorta - kimlər əməkhaqqından nə qədər ödəyəcək?

Elə müzakirəyə çıxarılan ilk sənəd də "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi idi.

Sənədi üçüncü oxunuşda təqdim edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirdi ki, qanun layihəsinə 2 dəyişiklik təklif olunur. Bunlar icbari tibbi sığorta şəhadətnaməsinin verilməsi və kredit müddəası ilə bağlı olan dəyişikliklərdir. Komitə sədrinin sözlərinə görə, dəyişikliyə əsasən icbari tibbi sığorta ölkənin inzibati vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının yaratdığı orqan (qurum) tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, 2020-ci il ərzində mərhələli şəkildə həlli tətbiq olunacaq. Bu dəyişikliklər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək.

Mərhələli proses 4 rübə bölünür. I rübdə tibbi sığorta respublikanın şimal bölgəsində 20 rayonu, II rübdə qərb bölgəsində 17 rayonu, III rübdə cənub bölgəsində 14 rayonu, IV rübdə isə Bakı, Sumqayıt şəhərlərini və Abşeron rayonunu əhatə edəcək.

Ardı 3-cü səh.

## Yeni kadr dəyişiklikləri islahatların dönməzliyinin təsdiqidir

Azərbaycan artıq illərdir ki, davamlı islahatları həyata keçirən dövlət imicini qazanmışdır. Bu islahatların miqyası, istiqamətləri və əhatə dairəsi mütəxəssislər, politoloqlar tərəfindən araşdırılır, tam spektr boyu dəyərləndirilir və iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, dövlət quruculuğunun təkmilləşdirilməsi, qanunvericiliyin islahatların ruhuna uyğunlaşdırılması istiqamətlərində atılan bütün addımlar yüksək qiymətləndirilir.

Xəbər verildiyi kimi, dövlət başçısının sərəncamları ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının yeni strukturu təsdiq olunmuş və bu strukturda əksini tapan vəzifələrə yeni kadrlar təyin edilmişdir. Məqsəd Prezident Administrasiyasının işinin təkmilləşdirilməsi və qarşıya qoyulan yeni vəzifələrin daha keyfiyyətli icrasını təmin etmək üçün komandanın struktur tərkibinin yenidən formalaşdırılmasıdır.

Sonuncu kadr islahatları bir daha onu göstərir ki, Azərbaycanda müasir və dünya standartlarına cavab verən yeni məzmunlu kadr islahatları sivil qaydalarla aparılır.

Ardı 4-cü səh.




## TANAP Avropaya birləşdi

### Azərbaycanın qlobal enerji təşəbbüsü hədəflərinə uğurla çatmaqdadır

Azərbaycanın təşəbbüsü ilə reallaşan "Cənub qaz dəhlizi"nin ən uzun seqmenti olan Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) nəhayət Trans-Adriatik kəmərinə - TAP-a birləşdi.

Bununla da Xəzər dənizindən çıxarılan təbii qazın Avropa bazarlarına çıxarılması istiqamətində qarşıda duran əsas məsələlərdən biri də tarixə çevrildi. Artıq Azərbaycanın təbii qazı Avropanın bir addımlığındadır və gələn il TAP-ın başa çatdırılması isə 2012-ci ildən başlanan bu təşəbbüs öz məqsədinə tam çatacaq.

Ardı 5-ci səh.

## Tarix güclüləri sevir

Bakı Dövlət Universiteti Azərbaycan Respublikasının ilk müstəqil səsi, sözü ilə təqribən həmyaşıd olduğuna görə hər kəs belə bir əlamətdar gündə ölkə rəhbərinin çıxışını xüsusi maraqla gözləyirdi: 100 il sonra müstəqil Azərbaycan hansı həqiqətlərlə yaşamalı, hansı inkişaf yolunu tutmalıdır. Gözləntilər özünü yüksək səviyyədə doğrultdu.

Azərbaycan Prezidenti İlham Əliyev bir tarixi zərurəti xüsusi vurğuladı: tarixi güclülər yazır, çünki həm qılınc onların əlində olur, həm qələm. Məhz bu səbəbdən, tarix də güclüləri - qələm və qılınc tandemini yaşadanları sevir!

Hər dövlət illərlə, əsrlərlə inşa edilən bir abidədir. Bu abidə özündə həm tarixi, həm bu günü, həm də sabahı ehtiva etməlidir. Əslində, Azərbaycan Prezidentinin ölkənin ilk universitetinin yubileyində etdiyi məruzə bu abidənin təqdimi idi.

### Miflərdə qorunan ruh

Miflər, eposlar xalq abidəsinin təməli, postamentidir. Təbii ki, onun üzərindəki heykəl də ona uyğun olmalıdır. Güclü postamentin üzərində zəif fiqur qoyulanda daha güclü əl tərəfindən uçurulmağa məhkumdur. Eləcə də zəif təməl üzərində böyük heykəl ucaltmaq olmaz. Azərbaycanın tarixin ənginliyinə qədər işləyən kökləri və möhkəm təməli var.

Ardı 7-ci səh.



## 4-cü regional inkişaf proqramının ilk ili uğurla başa çatır

Ölkənin hərtərəfli və dayanıqlı inkişafında qəbul edilən regionların sosial-iqtisadi dövlət proqramları mühüm rol oynayır. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2004-cü ildə ilk Dövlət Proqramı qəbul edildi.

Artıq IV Dövlət Proqramının bir ili tamam olur. Ötən dövr ərzində bölgələrdə həyata keçirilən işlərə nəzər saldıqda görürük ki, regionların sosial-iqtisadi inkişafı üzrə qəbul edilən dövlət proqramlarının icrası sayəsində mühüm addımlar atılıb.

Ardı 5-ci səh.

## XXV Beynəlxalq "Bakutel 2019" Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisinin iştirakçılarına

Hörmətli sərgi iştirakçıları!

Sizi Bakı şəhərində XXV Beynəlxalq "Bakutel 2019" Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisinin işə başlaması münasibətilə salamlayır, hər birinizə fəaliyyətinizdə uğurlar arzulayıram.

İyirmi beş ildir ki, təşkil edilən ənənəvi "Bakutel" sərgisi regionun informasiya və kommunikasiya texnologiyaları üzrə mötəbər tədbirlərindəndir. Sərgi təkcə Azərbaycanın deyil, eləcə də dünyanın bir çox ölkələri və aparıcı şirkətlərinin qabaqcıl texnologiyalar sahəsində ən yeni nailiyyətlərinin təqdim olunduğu mühüm platformaya çevrilmişdir.

Təqdirəlayiq haldır ki, Dünya İqtisadi Forumunun qlobal informasiya texnologiyalarına dair son hesabatında Azərbaycan informasiya-kommunikasiya texnologiyalarına verdiyi əhəmiyyətə görə 139 ölkə arasında 8-ci yerdə qərarlaşmışdır.

Ölkəmizdə innovasiya ekosisteminin, yüksək texnologiyaların inkişafı və cəmiyyətin bu texnologiyaların imkanlarından faydalanması üçün əlverişli mühit mövcuddur. Telekommunikasiya sahəsində yeni texnologiyaların istifadəsi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərlə bağlı müvafiq işlər aparılır. Regionlarda müasir telekommunikasiya xidmətləri istiqamətində irimiqyaslı layihələr icra olunur. İnnovativ layihələrə dövlət dəstəyi bu sahənin potensialının artırılmasını, startapların genişlənməsini və təşəbbüskarlığın yüksəlməsini təmin edir, bu isə bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına müsbət təsir göstərir.

Sərgidə bir çox yeni iştirakçıların da milli pavilyonlarla təmsil olunması beynəlxalq aləmdə özünəməxsus mövqe və nüfuza malik Azərbaycanla informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa artan marağın təzahürüdür.

Bu tədbir sizə qabaqcıl texnoloji nailiyyətlərin və yeniliklərin təqdimatı, biznes əlaqələrinin qurulması və təcrübə mübadiləsi ilə yanaşı, həmçinin ölkəmizi yaxından tanımağınıza şərait yaradır.

İnanıram ki, sərgi çərçivəsində görüşlər və fikir mübadiləsi yeni təşəbbüslərin meydana çıxması və müvəffəqiyyətlə gerçəkləşməsi baxımından əhəmiyyətli olub, qarşılıqlı əlaqələrin daha da dərinləşməsinə öz töhfəsini verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2019-cu il*

## Yardımlı rayonunda İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yardımlı rayonunda İdman Kompleksinin tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.20.4-cü yarımbəndində göstərilmiş məbləğin 7 511 400 (yeddi milyon beş yüz on bir min dörd yüz) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## E.S.İsayevin Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## E.S.İsayevin Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## S.H.Məhərrəmovun Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Saleh Heydər oğlu Məhərrəmov Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# Sarsılmaz təməl üzərində qurulan Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır

*Əvvəli 1-ci səh.*

Türkiyədə elmi potensial da çox güclüdür. Əlbəttə ki, biz bu sahədə də daha sıx əməkdaşlıq etmək istəyirik. Çünki dünyanın gələcək inkişafı böyük dərəcədə bu innovasiyalardan, texnoloji inkişafdan asılıdır. Burada birgə elmi araşdırmalar, tətbiqi tədbirlər əlbəttə ki, bizim əməkdaşlığımızı daha da gücləndirəcək. Bir sözlə, qarşıda işlər çoxdur. Əminəm ki, biz bütün işləri TANAP, Bakı-Tbilisi-Qars kimi vaxtında icra edəcəyik.

❖ ❖ ❖

Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri **Mehmet Cahit TURHAN** dedi:

- Hörmətli cənab Prezidentim.

Azərbaycanın qlobal səviyyədə təşkil etdiyi "Bakutel" sərgisi ilə əlaqədar bir daha qardaş ölkədə olmaqdan məmnunluq duyduğumu ifadə etmək istəyirəm.

İşlərinizin çoxluğuna baxmayaraq, bizi qəbul etdiyiniz üçün də təşəkkürlərimi bildirmək istəyirəm.

Sizə hörmətli Prezidentimizin salamlarını gətirmişəm.

Fürsətdən istifadə edərək, indiyədək çox uğurlu şəkildə həyata keçirilən və beynəlxalq səviyyədə etibarı yüksək olan Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel"in 25-ci ildönümünü hökumətimiz və türk milləti adından ən səmimi hisslərimlə təbrik edir və bundan sonrakı fəaliyyətinizdə də uğurlar diləyirəm.

Azərbaycan Sizin rəhbərliyinizlə bütün sahələrdə mühüm islahatlar həyata keçirir, ciddi irəliləyişlər əldə edir. Əldə olunan hər irəliləyişdən, hər uğurdan məmnunluq duyuruq. Azərbaycanın bu uğurları artırmaqda və bölgəmizin parlayan ulduzu olmaqda davam edəcəyinə ürəkdən inanırıq.

Bu gün kənardan baxdıqda görürük ki, Azərbaycan siyasi və ictimai sabitliyi iqtisadi və bəşəri zənginliyə çevirmişdir. Qardaş xalqlarımız Ümummilli Lider mərhum Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı ilə güclərini ölkələrimizin və bölgəmizin faydasına uyğun olaraq birləşdirmişlər.

Sarsılmaz təməl üzərində qurulmuş əlaqələrimiz böyük bir mərhələ keçərək strateji tərəfdaşlıq səviyyəsinə çatdırılmışdır. Həqiqətən də bir çox sahədə birlikdə mühüm layihələr gerçəkləşdiririk. Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri kimi iki böyük, mühüm layihəni həyata keçirərək qlobal və regional baxımdan enerji strategiyamızı da inkişaf etdirdik. Bundan başqa, XXI əsrin layihəsi olan 45 milyard dollarlıq Cənub Qaz Dəhlizi layihəsi xüsusilə Azərbaycanın və Türkiyənin səyləri və maliyyə mənbələri hesabına gerçəkləşdirilməyə başlanmışdır.

Möhtərəm cənab Prezident, hörmətli Prezidentimiz ilə Sizin əhəmiyyətli töhfəniz və güclü iradənizlə başladılan bu layihələr Türkiyə və Azərbaycan üçün yeni imkanlar olaraq ortaq gücə çevrilmək hədəfinə mühüm dəstək təmin etməkdədir.

Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın acısı acımız, sevinci sevincimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarından hərəkət edərək, Türkiyə və Azərbaycan bugünə qədər olduğu kimi, bundan sonra da hər sahədə bir-birinin yanında yer almaqda davam edəcəklər. Bundan sonra bizim öhdəmizə düşən vəzifə kədəri də, sevinci də ortaq olan qardaş ölkələrimiz arasındakı strateji tərəfdaşlığı cənab Prezidentimiz və zati-alinizin liderliyi ilə yeni layihələrlə daha da irəlilətməkdir.

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# Azərbaycanla İran arasında əldə edilmiş razılaşmalar həyatda öz əksini tapır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi yenidən görməyə şadam. Şadam ki, İran sərgidə yüksək səviyyədə - nazir səviyyəsində iştirak edir. Keçən dəfə də sərgi günlərində sizinlə görüşmüşəm. Əminəm ki, bütün sahələrdə olduğu kimi, rəhbərlik etdiyiniz sahədə də əməkdaşlığımızın gələcəyi çox yaxşı olacaq.

Bildiyiniz kimi, oktyabrın sonunda Prezident Ruhani ilə mənim görüşüm olub. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Son bir neçə il ərzində 10-dan çox görüş oldu. Onların hamısı da çox məhsuldar idi. Bir çox məsələlər öz həllini tapdı. Şadam ki, əldə edilmiş razılaşmalar həyatda öz əksini tapır.

Bu gün bizim Baş Nazirin müavini Şahin Mustafayev İranda səfərdədir və gələcək əməkdaşlıq haqqında danışıqlar aparacaq. Əlbəttə, baxmayaraq ki, bir çox məsələlər artıq reallaşıb, yenə də həllini gözləyən məsələlər var. Əminəm ki, onlar da öz həllini tapacaq. Son illərdə, xüsusilə nəqliyyat, energetika, ticarət sahələrində çox yaxşı nəticələr əldə etdik. Eyni zamanda, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalandı. Bu da tarixi nailiyyətdir. Bir sözlə, ikitərəfli gündəlik kifayət qədər genişdir. Bu il ikitərəfli əlaqələr üçün çox məhsuldar il olmuşdur. Əminəm ki, 2020-ci il də əməkdaşlıq üçün uğurlu olacaq. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

İranın Rabitə və İnformasiya Texnologiyaları naziri **Məhəmməd Cavad Azəri CƏHROMİ** dedi:

- Allahın adı ilə. Mən çox şadam ki, bu il yenidən bu sərgi çərçivəsində, Azərbaycana səfərim çərçivəsində Sizinlə görüşürəm. Bizə vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. Bu günlərdə bizim ölkədə büdcə müzakirələri gedir. Mən səhər-axşam büdcə müzakirələrində, iclaslarda iştirak edirəm. Dünən axşam cənab Prezident doktor Ruhani ilə danışırdım. Ona dedim ki, mən Azərbaycana səfər edirəm və Sizə xüsusi salamlarını çatdırdı. Cənab Şahin Mustafayev ilə də biz dünən axşam aeroportda görüşdük və on dəqiqəlik söhbətləşdik, müzakirələr apardıq.

❖ ❖ ❖

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

# İKT sektoru ölkəmizin əsas prioritetlərindən biridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haulin Jaonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdən məmnunluğunu ifadə edən Baş katib **Haulin JAO** dedi:

- Siz mənim indiyədək dünyada ən çox görüşdüyüm Prezidentsiniz. "Bakutel" sərgisi hər il keçirilən tədbirdir. Bu il 25-ci ildönümünü qeyd edir.

**Prezident İlham ƏLİYEV:** Bəli, doğrudur.

**Haulin JAO:** Həmçinin bu, indiyədək ən çox ziyarət etdiyim tədbirdir.

**Prezident İlham ƏLİYEV:** Bu, bizim əməkdaşlığımızın yaxşı göstəricisidir və Azərbaycanın İKT sektorunun inkişafına verdiyi önəmi əks etdirir. Əlbəttə, sizin şəxsən sərgidə iştirakınız çox vacibdir. Çünki bu, Beynəlxalq Telekommunikasiya İttifaqı üçün tədbirin əhəmiyyətli olduğunu göstərir. Biz, həmçinin bunu sözügedən sektorda gördüyümüz işlərə verilən qiymətin göstəricisi hesab edirik. Qeyd etdiyiniz kimi, bu, 25-ci sərgidir. İldən-ilə marağın artdığını görürük. Əslində, bu sərgi zamanı cari ildə əldə etdiyimiz nailiyyətlər barədə də danışa bilərik. Düşünürəm ki, biz İKT sektorunda çox yaxşı inkişafa nail olmuşuq və bu sektor bizim ölkənin əsas prioritetlərindən biri olaraq qalır. Çünki o, çoxlu yeni ideyalar yaradır, yeni texnologiyalar gətirir, ölkəmizi müasirləşdirməyə yardım edir.

Azərbaycan hazırda çox aktiv islahatlar mərhələsindədir. Struktur islahatları, siyasi inkişafla, şəffaflıqla bağlı islahatlar. Biz çox yaxşı nəticələr görürük. Azərbaycan çox sabit ölkədir və əhalinin böyük əksəriyyəti siyasətimizi dəstəkləyir. Bu, güclü siyasi iradənin nümayişinə, həmçinin iqtisadi və sosial həyatdakı böyük nailiyyətlərə əsaslanır. Cari il də bu baxımdan çox nəzərəçarpan olub. İnsanların gündəlik həyat şəraitinin yaxşılaşdırılması, sosial proqramların həyata keçirilməsi, maaş və təqaüdlərin artırılması - bütün bunların hamısı, təbii ki, bizim inkişafımızın göstəricisidir. Əlbəttə, iqtisadiyyatın əsas aparıcı qüvvəsi kimi, İKT sektoru da qarşıdan gələn illərdə çox vacib rol oynayacaq. Bu sektorun inkişafı bizə islahatlarda daha çox səmərə əldə etməyə kömək edəcək. Təbii ki, bizim ölkəmizə göstərdiyiniz diqqətə görə sizə şəxsən təşəkkür etmək istəyirəm. Şadam ki, hər il bu sərgidə bizi ziyarət edirsiniz. Bunun sayəsində biz çox səmərəli əməkdaşlıq qura bilmişik. Beləliklə, mən sizə minnətdaram və Bakıda xoş vaxt keçirməyinizi arzu edirəm.

**Haulin JAO:** Çox sağ olun, cənab Prezident. Bəli, doğrudan da mən Azərbaycanda İKT-nin sürətlə inkişaf etdiyini görürəm. Bütün digər ekosistemləri əhatə etmək üçün çoxlu yeni İKT tətbiqləri artıq var və onlar bütün ekosistemlər üzrə geniş yayılıb. Təkcə bu il "Bakutel"də nəinki daha çoxsaylı ölkələrin iştirak etdiyini, həmçinin çoxlu yeni məhsulları və yeni tətbiqləri görürəm. Məsələn, mən sərgidə gördüm ki, "məlumatların böyük həcmi" haqqında geniş söhbət gedirdi, süni intellekt məhsulları haqqında çoxlu danışdılar. Bunlar bir-birindən fərqlənir. Həmçinin bu gün buraya gəlməzdən əvvəl mən gənclərin hazırladıqları stendlərlə tanış oldum. Onlarla müəyyən ünsiyyətim oldu və bu uşaqların çox istedadlı olduqlarını aşkar etdim.

Sonda xatirə şəkli çəkdirildi.

# Bakıda Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi açılıb

Dekabrın 3-də Bakı Ekspo Mərkəzində "Bakutel 2019" 25-ci Yubiley Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisinin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin sərgi iştirakçılarına videomüraciəti təqdim olunub. (Müraciət qəzetin bugünkü nömrəsində dərc olunur)

Daha sonra Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə bu il mötəbər tədbirin uğurlu fəaliyyətinin növbəti yubileyini - 25 illiyini qeyd etdiyini diqqətə çatdırıb.

"İKT sahəsində regionun ən önəmli hadisələrindən birinə çevrilən ənənəvi sərgi qabaqcıl texnoloji nailiyyətlərin və innovasiyaların təqdimatına, biznes əlaqələrinin qurulmasına, təcrübə mübadiləsinə imkan yaradan platforma rolunu oynayır" deyə nazir vurğulayıb.

R.Quluzadə bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə genişmiqyaslı iqtisadi və struktur islahatları aparılır. Dünya Bankı tərəfindən açıqlanan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 20 ən islahatçı dövləti siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub. Hazırda ölkəmizdə idarəetmədə informasiya texnologiyalarının və innovasiyaların tətbiqi genişləndirilir.

Struktur islahatlarının iqtisadiyyatın yeni inkişaf məqsədlərinə uyğunlaşdırıldığını deyən nazir ölkəmizdə yeni innovasiya ekosisteminin yaradıldığını diqqətə çatdırıb.

O vurğulayıb ki, "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq dövlət başçısı tərəfindən "Hökumət buludu" Konsepsiyası təsdiq edilib. Bu konsepsiya ölkəmizdə dövlət idarəçiliyində və digər fəaliyyət sahələrində bulud texnologiyalarının tətbiqi üçün geniş imkanlar yaradır.



R.Quluzadə "Bakutel 2019" yubiley sərgisinin hər il olduğu kimi, iştirakçılar arasında işgüzar əlaqələrin qurulmasına, təcrübə mübadiləsi və əməkdaşlığın genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Hər il olduğu kimi, bu il də tədbirdə bir-birindən maraqlı layihələr təqdim edən stendlər qurulub. Sərgi Xəzər bölgəsində innovasiya və yüksək texnologiyalar sahəsində ən böyük hadisə olmaqla yanaşı, işgüzar əlaqələrin qurulması üçün unikal məkandır.

Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) baş katibi Haulin Jao yubiley sərgisinin fəaliyyətini yüksək qiymətləndirib, Azərbaycanda son illər İKT sahəsində həyata keçirilən islahatları təqdir edib.

O, sərgidə nümayiş olunan Azərbaycan startaplarının məhsullarını maraqla qarşılayıb.

H.Jao sentyabrda Beynəlxalq Telekommunikasiya İttifaqının təşkilatçılığı ilə "Birlikdə innovasiyalar gətirərək: əhəmiyyət kəsb edən bağlılıq" devizi ilə Bakıda "ITU Telecom World 2019" beynəlxalq sərgi-konfransının keçirildiyini xatırladıb. O bildirib ki, gələn il "ITU Telecom World 2020" beynəlxalq sərgi-konfransı Vyetnamın paytaxtı Hanoyda keçiriləcək. Azərbaycan sərgidə iştirak üçün dəvət edilib.

"Caspian Event Organisers" şirkətinin rəhbəri Edvard Stron isə sərginin işinə uğurlar arzulayıb.

Sərginin açılışını bildirən rəmzi lent kəsildikdən sonra iştirakçılar və ziyarətçilər sərginin pavilyonları ilə tanış olublar.

Qeyd edək ki, yubiley sərgisində 23 ölkədən 238 şirkət iştirak edir. ABŞ, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İran, İsrail, İtaliya, Rusiya, Sloveniya, Türkiyə, Xorvatiya və digər ölkələrin ticarət palataları və səfirliklərinin dəstəyi ilə aparıcı IT şirkətlərindən ibarət milli qruplar sərgidə təmsil olunur. On bir ölkə tədbirə milli pavilyonla qatılıb.

Sərginin debütantlarının sayı ümumi iştirakçıların 30 faizini təşkil edir. Stendlərdə həm iş, həm də gündəlik həyat üçün "ağıllı" həllər təklif olunur.

"Bakutel" sərgisinin işgüzar proqramına kommunikasiya, dialoq və effektiv həll variantlarının axtarışı üçün müasir platformalar: "İnnovasiyalar zonası" və "Təqdimatlar zonası" daxildir. Bu dinamik zonalarda müxtəlif maraqlı tədbirlər keçiriləcək. Sərgi dekabrın 6-dək davam edəcək.

# Milli Məclis icbari tibbi sığorta haqlarını müəyyən etdi

## Parlament yanvarın 1-dən mərhələli şəkildə tətbiqinə başlanılacaq “Tibbi sığorta haqqında” qanun layihəsini sonuncu oxunuşda təsdiqlədi





*Əvvəli 1-ci səh.*

Yəni ilin sonunadək bütün ölkə üzrə icbari tibbi sığortanın tətbiqi reallaşacaq.

Qanun layihəsinə təklif edilən dəyişikliyə əsasən, icbari tibbi sığorta haqları aşağıdakı kimidir:

Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortalı tərəfindən - işçinin əməkhaqqının 8000 manatdan yuxarı olan hissəsinə 0,5 faiz tətbiq edilməklə, 2020-ci ildə hesablanmış əməyin ödənişi fondunun 1 faizi, 2021-ci ildən etibarən hesablanmış əməyin ödənişi fondunun 2 faizi;

Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaolunan tərəfindən - işçinin əməkhaqqının 8000 manatdan yuxarı olan hissəsinə 0,5 faiz tətbiq edilməklə, 8000 manatadək (8000 manat da daxil olmaqla) olan hissəsinin 2020-ci ildə 1 faizi, 2021-ci ildən etibarən isə 2 faizi;

Neft-qaz sahəsində fəaliyyəti olan və dövlət sektoruna aid edilən sığortalı tərəfindən - işçinin əməkhaqqının 8000 manatdan yuxarı olan hissəsinə 0,5 faiz tətbiq edilməklə, hesablanmış əməyin ödənişi fondunun 2 faizi;

Neft-qaz sahəsində fəaliyyəti olan və dövlət sektoruna aid edilən sığortaolunan tərəfindən - işçinin əməkhaqqının 8000 manatdan yuxarı olan hissəsinə 0,5 faiz tətbiq edilməklə, 8000 manatadək (8000 manat da daxil olmaqla) olan hissəsinin 2 faizi;

Bu Qanunun 15-2.5-ci maddəsində nəzərdə tutulmuş sığortalı tərəfindən - bu Qanunun 15-2.3-cü maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə təqvim ili üçün adambaşına 90 manat;

Bu Qanunun 15-2.3.4-cü maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə - minimum aylıq əməkhaqqının 4 faizi;

Bu Qanunun 15-2.3.5-ci maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə - gəlirlərinin 8000 manatadək (8000 manat da daxil olmaqla) olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 1 faizi;

Bu Qanunun 15-2.3.6-cı maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə - 2023-cü ildən etibarən minimum aylıq əməkhaqqının 48 faizi.

Qanun 2020-ci il yanvar ayının 1-dən qüvvəyə minir. Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi.

### İki qanun ləğv edildi

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli və “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli qanunlarının ləğv edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) haqqında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi.

Bildirildi ki, “Tibbi sığorta haqqında” qanunda “İcbari sığortalar haqqında” və “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” qanunlarda nəzərdə tutulmuş sığorta haqqından ayırmaların icbari tibbi sığortanın maliyyə mənbələri sırasından çıxarılması təklif edilir. Yəni “Tibbi sığorta haqqında” qanunda yuxarıda qeyd olunan dəyişikliklər təklif edildiyindən adıçəkilən qanunların ləğvi nəzərdə tutulur.

Deputatlar dəyişikliyə müsbət münasibət bildirdilər.

### Övladlığa götürmə prosesi 3 mərhələdə aparılacaq

“Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi barədə (üçüncü oxunuş) Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı məlumat verdi.

Dəyişiklik Ailə Məcəlləsində övladlığa götürmə sahəsində idarəetmə mexanizminin, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, habelə onları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun təkmilləşdirilməsini, eləcə də övladlığa götürmə prosesində şəffaflığın təmin edilməsini, övladlığa götürülmüş uşaqların yeni ailələrdə yaşaması və inkişafı prosesinə nəzarətin gücləndirilməsini nəzərdə tutub.

Layihədə övladlığa götürmə prosesinin 3 mərhələdə aparılması nəzərdə tutulub. Bunlar övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması, övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi (bu mərhələnin özündə də övladlığa götürmək istəyən şəxslərlə müsahibələr və mənzil şəraitinin yaxşılaşdırılması, təlim, uyğunlaşma, müəssisədə uşaqlarla görüş və sınaq müddətində ailədə yerləşdirmə kimi alt mərhələlər olacaq) və övladlığa götürmə barədə məhkəmə qərarının qəbul edilməsi mərhələlərindən ibarətdir. Bu mərhələlər övladlığa götürmə prosesində övladlığa götürmək istəyən şəxslərin həm həyat şəraitinin, həm övladlığa götürməyə olan motivlərinin, həmçinin uşaqla onların uyğunlaşdırılmasının müəyyən edilməsinə imkan verəcək. Nikahda olan şəxslər üçün minimum yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaş kimi müəyyən edilib.

İclasda Ailə və Mülki Prosessual məcəllələrində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), həmçinin “Uşaq hüquqları haqqında” və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də (üçüncü oxunuş) müzakirə edilərək təsdiqləndi. Dəyişiklik “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanuna uyğunalaşdırmaq məqsədi daşıyır.

### Yeni medal təsis edilir

Azərbaycan Respublikasının “Diaspor fəaliyyətində xidmətə görə” medalının təsis edilməsi ilə əlaqədar” orden və medalların təsis edilməsi haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (üçüncü oxunuş) Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi.

Beləliklə, Azərbaycanda mövcud olan medallar sırasına daha biri daxil olur. Layihəyə əsasən, “Diaspor fəaliyyətində xidmətə görə” yeni medal təsis edilir: “Prezident İlham Əliyev daimi olaraq xaricdə yaşayan soydaşlarımıza xüsusi diqqət göstərir. Hazırda diaspor sahəsində keyfiyyətcə yeni siyasət həyata keçirilir. Azərbaycanın dünyada artan nüfuzu bu sahəyə xüsusi diqqət göstərilməsini tələb edir. Bu illər ərzində diaspor fəaliyyətində aktiv olan soydaşlarımız bir sıra orden və medallarla təltif olunublar. Bu baxımdan xüsusi bir medalın - “Diaspor fəaliyyətində xidmətə görə” medalının təsis olunması çox əhəmiyyətli addımdır”.

Layihəyə əsasən Azərbaycan vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan diasporunun fəaliyyətinə verilən mühüm töhfəyə, diasporun ölkəmizlə əlaqələrin möhkəmləndirilməsində, beynəlxalq aləmdə Azərbaycanla bağlı obyektiv informasiyanın yayılmasında göstərilən xidmətlərə, Azərbaycan dilinin və mədəniyyətinin xarici ölkələrdə təbliğinə verilən töhfəyə, ölkəmizin beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafında səmərəli fəaliyyətinə görə təltif olunacaqlar.

Müzakirələr zamanı çıxış edən parlamentin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov bildirdi ki, Azərbaycan diasporu çox sağlam təməllər üzərində qurulub. Milli Məclisdə belə bir qanun layihəsinin qəbul edilməsi məmnunluq hissi yaradır. Komitə sədri “Xaricdə yaşayan soydaşlar və diaspor təşkilatı haqqında” qanun layihəsinin hazırlandığını da söylədi. Yaxın vaxtlarda formalaşacaq yeni parlamentin ilk qəbul etdiyi qanunlardan biri də məhz bu sənəd olacaq: “Dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimiz, diaspor təmsilçiləri belə qanunu çoxdan gözləyir. Yeni qanun layihəsi bir sıra məsələlərlə yanaşı, soydaş anlayışının statusunu da müəyyənləşdirəcək. Onlara vəsiqə verilməsi də nəzərdə tutulur. Bu da onların bir çox probleminin həllinə müsbət təsir göstərəcək”.

Sənəd səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi.

### Azərbaycan bir neçə beynəlxalq sənədə qoşuldu

İclasda “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə, “Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq haqqında” “Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Doqquzuncu Əlavə Protokola qoşulmaq haqqında”, “Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentlərinə Birinci Əlavə Protokola qoşulmaq haqqında”, “Poçt ödəniş xidmətləri haqqında Sazişə və onun Yekun Protokoluna qoşulmaq barədə” və “2 oktyabr 2009-cu il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə dəyişikliklər edilməsi barədə” Protokolun təsdiq edilməsi haqqında” qanun layihələri də təsdiqləndi.

Milli Məclis Sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov “Azərbaycan Respublikası Hərbi-Dəniz bayraqları haqqında” və “Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında” qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihəsini üçüncü oxunuşda təqdim etdi. Komitə sədri dedi ki, dövlət başçısının bu ilin aprel ayında imzaladığı fərmanla “Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə” və “Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri” təsdiq edilib. Həmin fərmanla Ali Baş Komandanın bayrağının vahid forması müəyyənləşdirilib. Deputatlar dəyişikliyə müsbət münasibət bildirdilər.

Həmçinin iclasda “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında”, eləcə də Əmək Məcəlləsində və “Məşğulluq haqqında” qanunlarda dəyişiklik edilməsi barədə layihələr üçüncü oxunuşda təsdiqləndi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

# Sergey Lavrov Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycanda səfərdə olan Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov dekabrın 3-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən nazir ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

# Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirlərinin görüşü olub

Dekabrın 3-də Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ilə Bakıda rəsmi səfərdə olan Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov arasında ikitərəfli görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, təkbətək formatda başlanan fikir mübadiləsi daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Nazirlər strateji tərəfdaşlıq səviyyəsində inkişaf edən çoxşaxəli Azərbaycan-Rusiya münasibətlərinin hər iki ölkənin maraqları və ümumiyyətlə, regionun sabitliyi, habelə tərəqqi üçün yeni imkanların açılması baxımından önəmli olduğunu bildiriblər. Mütəmadi xarakter daşıyan dövlət başçılarının qarşılıqlı səfərləri və müxtəlif çoxtərəfli zirvə toplantıları çərçivəsində təmasları iki ölkə arasında təşəkkül tapmış intensiv dialoqun və əməkdaşlığın bariz nümunələri kimi qeyd edilib.

Həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın cari il noyabrın 20-25-də Rusiyaya rəsmi səfərinin əhəmiyyəti vurğulanıb. Səfərin nəticələrinə dair ikitərəfli əməkdaşlıq çərçivəsində yeni prioritet istiqamətin, - innovasiya və yüksək texnologiyalar, - müəyyən edilməsi, həmçinin iki ölkə arasında gənclərarası forumların ənənəyə çevrilməsi kimi vacib qərarların qəbul edilməsinin Azərbaycan-Rusiya əməkdaşlığının daha da dərinləşdirilməsi baxımından önəmli olduğu bildirilib.

Bu xüsusda S.Lavrov ölkəmizə etdiyi hazırkı səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini minnətdarlıq hissi ilə qeyd edərək, həmin qəbul zamanı olduqca məzmunlu və məhsuldar fikir mübadiləsinin aparıldığını məmnuniyyətlə söyləyib.

Rusiyalı nazir BMT, ATƏT, MDB və ölkələrimizin tərəfdaşlıq etdiyi digər ənənəvi formatlar çərçivəsində qarşılıqlı dəstəyin göstərilməsinə sadiq olduğunu təqdirəlayiq hal kimi qeyd edib. Eyni zamanda, S.Lavrov ölkəmizi Qoşulmama Hərəkatında sədrliyə başlaması münasibətilə təbrik edib, Azərbaycanın sədrliyi dövründə Rusiya Federasiyası ilə Qoşulmama Hərəkatı arasında əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Nazir E.Məmmədyarov Rusiya ilə ayrı-ayrı sahələr, o cümlədən sənaye, turizm, nəqliyyat və kommunikasiya, təhsil və s. istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini bildirib. İqtisadi əlaqələr üzərində dayanaraq, o, qarşılıqlı ticarət dövriyyəsinin müsbət dinamika ilə seçildiyini xüsusilə vurğulayıb. Bu baxımdan Samur çayı üzərində tikilmiş yeni sərhəd körpüsünün tezliklə istifadəyə verilməsinin qarşılıqlı ticarətə və insanlararası təmaslara yeni təkan verəcəyi qeyd olunub.

Nazirlər Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasının bölgədə sülh, əmin-amanlıq və əməkdaşlıq iqliminin təmin edilməsi və təsərrüfat fəaliyyətinin genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini söyləyib. Bu baxımdan Xəzəryanı ölkələrin əməkdaşlığının daha da inkişaf etdirilməsi üzrə mövcud perspektivlər müzakirə edilib.

Tərəflər Azərbaycan ilə Rusiya arasında müxtəlif formatlarda, o cümlədən parlamentlərarası təmaslar, habelə müvafiq nazirliklər və qurumlar arasında əməkdaşlıq şəklində aparılan dialoqun intensiv və səmimi xarakter daşıdığını söyləyiblər.

E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində substantiv danışıqların aparılmasının vacibliyini vurğulayaraq, Rusiya Federasiyası da daxil olmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərinin göstərdiyi vasitəçilik səylərinin real nəticə gətirəcəyinə dair ümid ifadə edib.

S.Lavrov ölkəsinin münaqişənin dinc yolla nizama salınması üzrə vasitəçilik səylərinin davam etdirilməsini vacib hesab etdiyini və bu istiqamətdə fəal olmaq niyyətində olduğunu bildirib.

Söhbət zamanı həmçinin qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq məsələlər müzakirə edilib.

Görüşün yekunlarına dair nazirlər Azərbaycan və Rusiya XİN-ləri arasında 2020-ci il üçün məsləhətləşmələr planını imzalayıblar. Eyni zamanda, Rusiya XİN başçısı Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyinə həsr olunan xatirə kitabına ürək sözlərini yazıb.

# Sergey LAVROV: “Rusiya ilə Azərbaycan arasında münasibətlər qarşılıqlı inama və etibara əsaslanır”




Dekabrın 3-də Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrov görüşdən sonra birgə mətbuat konfransı keçiriblər.

AZƏRTAC xəbər verir ki, nazirlər görüşdə müzakirə olunan məsələlər barədə məlumat veriblər.

Elmar Məmmədyarov iki ölkə arasında bir çox sahələrdə, xüsusilə də iqtisadi sahədə uğurlu əlaqələrin olduğunu deyib. O bildirib ki, ticarət dövriyyəsinin həcmi 2,5 milyard dolları ötüb. Bu ilin sonunadək bu rəqəmi 3 milyard dollara çatdırmağı hədəfləyirik. Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Azərbaycanın Rusiyaya qoyduğu investisiya 1,2 milyard dolları keçib, Rusiya isə Azərbaycana 4,9 milyard dollar investisiya yatırıb.

Sergey Lavrov Rusiya ilə Azərbaycan arasında münasibətlərin strateji olmaqla yanaşı, qarşılıqlı inama və etibara əsaslandığını bildirib. O, dövlət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin əhəmiyyətini qeyd edib.

Humanitar sahədə əlaqələrə toxunan Sergey Lavrov qeyd edib ki, iki ölkə arasında mədəniyyət sahəsində yaxın əməkdaşlıq var. Nazir Azərbaycanda rus dilinin tədrisinə göstərilən qayğıya görə təşəkkür edib. Bildirib ki, ali təhsil müəssisələri arasında da sıx əməkdaşlıq mövcuddur, Azərbaycanda Rusiya universitetlərinin filialları fəaliyyət göstərir.

Sergey Lavrov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya səfərini xatırladaraq vurğulayıb ki, bu səfər çox səmərəli olub.

Nazir beynəlxalq təşkilatlar səviyyəsində Rusiya-Azərbaycan əməkdaşlığının inkişaf etdiyini də diqqətə çatdırıb. “Biz Azərbaycanın qarşıdakı üç il ərzində Qoşulmama Hərəkatına sədrliyindən istifadə edərək Rusiyanın bu təşkilatla əlaqələrinin daha da yaxınlaşmasına çalışacağıq” deyə o əlavə edib.

Turizm sahəsində əlaqələrə toxunan rusiyalı nazir bildirib ki, bu istiqamətdə uğurlu əməkdaşlıq var. Bu il Rusiyadan Azərbaycana gələn turistlərin sayının bir milyona yaxınlaşdığını qeyd edən Sergey Lavrov bunun yaxşı göstərici olduğunu qeyd edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir bildirib ki, Rusiya həmsədr qismində münaqişənin həllinə kömək göstərəcək. O, Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərlərinin də önəmli olduğunu deyib.

Rusiya XİN rəhbəri həmçinin qeyd edib ki, hərbi-texniki sahədə əməkdaşlıq Moskva ilə Bakı arasında strateji tərəfdaşlığın ən vacib sahələrindəndir. Bu əməkdaşlıq beynəlxalq qanunvericiliyə uyğun inkişaf edir.

**İlham Əliyevin islahatlar konsepsiyası yeni keyfiyyət mərhələsinə qədəm qoyur**




# İlham Əliyevin sistem islahatlarının yeni hədəfləri və ilkin uğurları

## Prezident Administrasiyası müasir islahatların modern lokomotivinə, gənclik İlham Əliyev kursunun fədailərinə, Azərbaycan isə yenə də nümunəyə çevrilir

*Əvvəli 1-ci səh.*

Belə durumların bir səbəbi xarici müdaxilədirsə, bəlkə də ondan daha vacib səbəbi o ölkələrin rəhbərlərinin yuxarıda qeyd edilən proseslərdə göstərdikləri mühafizəkarlıq, səhlənkarlıq və səbatsızlıqdır.

Məhz bu müqayisənin timsalında İlham Əliyevin və Azərbaycanın istisnalığı müstəsnalıq kəsb edir!

### İlham Əliyev gənclər siyasətini öz nəzarətinə götürdü və müsbət dəyişiklik dərhal baş verdi

İlham Əliyev yalnız dövlət aparatını gəncləşdirmir, ümumilikdə Azərbaycana gənclik ruhu, dinamizm, yüksək enerji gətirir. Gəncliyə dövlət, şəxsən Prezident sahib çıxır. Onlarla artıq yeni metodlarla işləyirlər və onlardan da innovativ yanaşmalar tələb edirlər.

Bir xeyli müddətdir ki, gənclər siyasəti ilə bağlı bütün prosesləri İlham Əliyev şəxsi nəzarətinə götürüb, bu sahədəki deklorativliyi, formallığı aradan qaldıraraq yeni təşəbbüsləri ilə faydalılıq və nəticə əmsalını dəfələrlə yüksəldib.

Ənənəvi iclaslar, basmaqəlib konfranslar, uzun mühazirələr, mübaliğəli çıxışlar dövrü bitib. Yeni gənclər siyasəti pafosa, görüntüyə yox, səmərəyə, səmimiyyətə və reallığa söykənir.

İlham Əliyev gənclərdən (əslində elə bütün xalqdan) uğurlardan yox, problemlərdən danışmağı istəyir, tələb edir.

Gənclik bu günlə, sabahla bağlı problem kimi gördüyü məqamları, hansısa narahatlığını meydanlarda dilə gətirmir, Prezidentə, həmçinin Mehriban xanım Əliyevaya şəxsən çatdırmaq imkanındadır.

İlham Əliyev gənclər siyasətində "ağsaqqallar danışır - gənclər dinləyir və alqışlayır" ənənəsinə son qoyub.

İndi danışan gənclikdir. Gənclik sabahla bağlı düşüncələrini, müasir dövrün tələbləri ilə çuğlaşan təkliflərini, arzularını dilə gətirir.

Və gəncliyi artıq Prezident də, ağsaqqallar da diqqətlə dinləyir, qeydlər götürülür, onlara istinad edilir.

İndi alqışlanan gənclikdir, onun daha da möhkəmlənən dövlət sevgisidir, Azərbaycan mənafeyi ətrafında səfərbər olmaq amalıdır, əsl vətəndaşa çevrilmək əzmidir...

Və gənclik İlham Əliyevi siyasətçidən, siyasi rəhbərdən daha çox, məhz Lider sayır, dövlətin güvənci olaraq qəbul edir, ona ən yaxın himayədarı kimi yanaşır.

Gənclik üçün İlham Əliyev siyasətin və seçkilərin fövqündə dayanan şəxsdir, əsl dostdur!

Gənclik Prezident tərəfindən dövlət və xalq üçün fayda verməyə cəlb edilir, buna görə özünü gərəkli sayır, nəticə etibarilə də Azərbaycan qarşısında məsuliyyət daşıdığını dərk edir.

İlham Əliyevin bir inqilabı da bu deyilmi?..

Elə buna görədir ki, Azərbaycan gəncliyi xaricdən ixrac oluna bilən hansısa utopik rəngli "inqilabın" fədaisi olmağı düşünmür, əksinə, İlham Əliyevin islahat inqilablarının dəstəkçisinə və icraçısına çevrilir...

### Yeni Administrasiyada yeni meyarlar

İlham Əliyev o liderlər qrupundadır ki, hər zaman formadadır - təfəkkürünə və fəaliyyət tərzinə görə ən modern üsluba hakimdir, daim öz üzərində çalışır, ölkəsini bəlli sərhədlər çərçivəsindən çıxardaraq qlobal dünyanın ayrılmaz parçasına çevrir.

İlham Əliyev zamanın nəbzini tutur və Azərbaycanı bu impulslara zərər çəkilmədən kökləyir. Həm dövləti və xalqını müasir meyillərə böyük sürətlə yönləndirir, həm də elə bu dinamizmlə milli identifikliyin sütunlarını möhkəmləndirir.

İlham Əliyevin bu incə və həssas yanaşması sayəsində Azərbaycan, azərbaycanlılar, o cümlədən gənclər həm dünyəvidirlər, həm də milli.

İlham Əliyev əsl lider olaraq cəmiyyətdə, dövlətdə mütəmadi dəyişikliklərə imza atmaqla, əsla sərt keçidlər etmir, əvvəlki islahatlar inkar olunmur. Prezident 16 ildir apardığı islahat konsepsiyasının hədəf ardıcıllığını qoruyur, sadəcə zamanla yeni keyfiyyət mərhələlərinə müəlliflik edir.

Öz komandasını da buna uyğun təkmilləşdirir, idarəçilik aparatında mütəmadi müsbət dəyişikliklər aparır. Bir ay öncə başlayan və ötən həftə yeni strukturunun təsdiqi ilə yekunlaşan Prezident Administrasiyası ilə bağlı islahatlar İlham Əliyevin həm də bu prosesdə inzibati amillərə yanaşma tərzini aydın göstərdi.

Prezidentin yeni islahatlar kursunu kimlərlə bərabər icra edəcəyini, fəaliyyətdə hansı meyarların bundan sonra əsas götürüləcəyini hər kəs özü üçün konkretləşdirdi. Dövlət başçısının illərdir, davamlı olaraq söylədiyi "vətəndaş məmnunluğu məmurun fəaliyyətində əsas şərtdir", "kadr təyinatında bacarıq və peşəkarlıqla yanaşı, mənəvi təmizlik vacibdir" mülahizələri göründüyü kimi, Administrasiyanın yeni tərkibinin formalaşmasında əsas leytmotiv olub.

Həm də sübut olundu ki, İlham Əliyev həmişəki kimi, cəmiyyətin mövqeyini, ictimai rəyi əsas götürür. Administrasiya rəhbərindən şöbə müdirlərinədək hər biri indiyədək effektiv fəaliyyətləri ilə fərqlənib, sahələrinin peşəkarlarıdırlar, təmiz reputasiyaya sahibdirlər. Eləcə də Prezidentin təbirincə desək, siyasi intriqalar və məmurlararası qovğalar onların iş üslubu olmayıb. Bu məqam isə son vaxtlar İlham Əliyevin xüsusilə toxunduğu məsələ idi. Müxtəlif çıxışlarında bu mövzu ilə bağlı dəfələrlə xəbərdarlıq edən ölkə rəhbəri Administrasiyanın yeni strukturunu bu kimi meyillərdən birmənalı təmizlədi.

Artıq Administrasiya müasir islahatların modern lokomotivinə çevrilmək gücündədir. Kadrlarla yanaşı, strukturların da yenilənməsi, təkmilləşməsi Administrasiyanın həm də cəmiyyətin bütün zümrələri ilə Prezident arasında etibarlı, səmimi, effektiv körpü kimi fəaliyyət göstərəcəyinə əminlik yaradır.

*2020-ci ilə Prezidentin yeni inkişaf hədəfləri, yeni inzibati komanda və yeni ümidlərlə qədəm qoyuruq. Bütün proseslər Prezidentin nəzərdə tutduğu, xalqın arzuladığı kimi gedəcək - hər şey daha da gözəl olacaq!..*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyası islahatlara layiqli töhfə verir

**Cəmiyyətlərin, dövlətlərin həyatında baş verən köklü dəyişikliklər hər zaman bunları gerçəkləşdirən liderlərin adı ilə bağlıdır. Azərbaycanda da belədir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev tərəfindən davam etdirilən sabitlik və inkişaf strategiyasının nəticəsi olaraq respublikamız tarixinin məsuliyyətli, lakin çox şərəfli, böyük irəliləyişlər, inkişaf və yüksəliş dövrünü yaşamaqdadır. Hər il yeni nailiyyətlərin qazanılması ölkəmizin mühüm reallıqlarından biridir. Fərəhli haldır ki, əldə olunan uğurlar kampaniya şəklində deyil, davamlı və ardıcıldır.**

### Hədəf daha güclü və qüdrətli dövlət qurmaqdır

Bu siyasətin mahiyyətinə uyğun olaraq Azərbaycan həm də müasirləşmə, yeniləşmə və çoxsahəli islahatlar yolu ilə inamla irəliləyir. Bunun nəticəsidir ki, respublikamız çağdaş dövrün çağırışlarına cavab verən, zamanın reallıqlarına uyğun inkişaf yolundadır. Xüsusən ötən ilin aprelində keçirilən prezident seçkilərində növbəti dəfə xalqın etimadını qazanan İlham Əliyev islahatların davam etdiriləcəyini bəyan etdi. Seçkilərdən ötən dövrün reallıqları göstərir ki, cənab İlham Əliyev islahatların yalnız iqtisadi sfera ilə məhdudlaşmayaraq digər sahələrdə həyata keçirilməsini məqsədəuyğun sayır. Bir müddət əvvəl Prezident İlham Əliyev islahatların alternativinin olmadığını və digər sahələrdə də bu işləri həyata keçirmək üçün sənədlər paketinin hazırlandığını bildirərək demişdi: "İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq bu o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir".

Qeyd edək ki, cənab Prezidentin təşəbbüsləri və imzaladığı sərəncamlarla bu ilin yanvar ayından başlanan struktur islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Yeni islahatlar həm də dövlət idarəetməsini iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdıracaq. Fevral və iyun aylarında müvafiq fərman və sərəncamlarla iki sosial paketin həyata keçirilməsi isə göstərdi ki, ölkə rəhbərliyinin fəaliyyətinin əsas qayəsini insan amilinin uca tutulması təşkil edir. Ən əsası, bütün bunlar onun təsdiqidir ki, Prezident İlham Əliyev vətəndaş maraqlarının əsl müdafiəçisidir. Təbii ki, respublikamızın davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edirdi. Cənab Prezidentin aprel ayında imzaladığı müvafiq sərəncamla məhkəmə-hüquq islahatlarında yeni keyfiyyət mərhələsi başlayıb. Bu sahədə həyata keçirilən innovativ tədbirlər nəticə etibarilə ölkənin demokratik inkişafına, modernləşməsinə və vətəndaş məmnunluğuna xidmət edən mühüm addımlardır.

Bütün bunlarla yanaşı, ölkədə müasir və şəffaf idarəetmə ilə bağlı uğurlu addımlar atılıb, o cümlədən təşəbbüskar və bilikli gənc kadrlar önə çəkilib. Beləliklə, 2018-ci ilin prezident seçkilərindən sonra başlanan islahatlar Azərbaycanda keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. Göründüyü kimi, yeni islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirmək, mövcud olan nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaq, daha güclü, qüdrətli dövlət qurmaqdır.

### YAP-ın təşəbbüsü partiyamıza göstərilən etimadın növbəti təsdiqi olacaq

Prezident İlham Əliyevin həyata keçirdiyi islahat konsepsiyası və onun uğurları cəmiyyətimizdə ciddi müzakirə olunur və insanlar bu islahatları dəstəkləyirlər. Təbii ki, Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası bu islahatların həyata keçirilməsinə öz töhfəsini verir və bundan sonra da verəcək. Bu günlərdə YAP-ı təmsil edən deputatların təşəbbüsü ilə Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün Prezidentə müraciətin qəbul edilməsi də partiyamızın bu islahatlara verdiyi dəstəyin və töhfənin növbəti nümunəsidir. YAP üzvləri bu qənaətdədir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qanunverici hakimiyyət sferasından kənarda qalmamalıdır.

Onu da qeyd edim ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası hakim mövqedə olduğu 1993-cü ildən indiyədək Azərbaycanın inkişafında mühüm rol oynayan güclü siyasi qüvvədir. Partiyamız həmişə vacib məsələləri gündəmə gətirib və onların həllinə nail olub. Təsadüfi deyil ki, partiyamızın Siyasi Şurasının növbədənkənar parlament seçkilərinin keçirilməsi barədə təşəbbüsü də bir neçə gündür ki, ictimaiyyətin ən müxtəlif təbəqələri tərəfindən geniş müzakirə olunmaqda idi. Bu isə ondan xəbər verir ki, YAP-ın bu təşəbbüsü həm də geniş ictimai fikrə söykənir.

YAP üzvü olan deputatların təşəbbüsü ilə dekabrın 2-də parlament tərəfindən qəbul edilən "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" qərarda çox düzgün olaraq yazılır: *"Azərbaycan Respublikasının Milli Məclisi ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik orqanını da əhatə etməsi məqsədilə dövlətçilik nümunəsi göstərməlidir. Bu baxımdan, Azərbaycan Respublikasının Milli Məclisində çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri Milli Məclisin Sədrinə müraciət edərək belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəldiklərini və növbədənkənar seçkilər keçirilməsinin zəruri olduğunu bildirmişlər".*

Ümumiyyətlə, parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi müxtəlif demokratik ölkələrin timsalında beynəlxalq təcrübədə tez-tez rast gəlinən haldır. Bu kontekstdə bir sıra Avropa ölkələrinin son zamanlar müşahidə olunan təcrübəsinə nəzər yetirmək məqsədə müvafiqdir. Məsələn, bu il Böyük Britaniya, Ukrayna, Xorvatiya kimi ölkələrdə növbədənkənar seçkilər elan olunub. Hətta elə ölkələr var ki, il ərzində iki dəfə qanunverici orqana seçkilər keçirir. Azərbaycanın siyasi həyatında ilk dəfə olmasına baxmayaraq, bunu qeyri-adi formada qiymətləndirməyə ehtiyac yoxdur. Çünki bir sıra ölkələrdə növbədənkənar seçkilər hakimiyyət böhranından, siyasi kataklizmlərdən irəli gələrək keçirilir. Azərbaycanda isə söhbət hakimiyyətin bütün sferalarını əhatə edən yeniləşmədən, müasirləşmədən, islahatlar konsepsiyasının coğrafiyasının genişlənməsindən və bunun zəminində Azərbaycanın daha dinamik inkişafı üçün daha əlverişli, etibarlı imkanların əldə olunmasından gedir.

Lakin onu qeyd etmək yerinə düşər ki, Azərbaycan dövləti sosial-iqtisadi inkişafı hər zaman hüquqi-siyasi təkmilləşmə və demokratikləşmə ilə paralel aparıb. Bu iki istiqamət bir-birini tamamlayıb və quruculuğun inkişaf vəhdətini təşkil edib. İqtisadi yüksəlişi olmayan cəmiyyətdə demokratik meyarların intişar tapması mümkün olmadığı kimi, mükəmməl hüquqi-siyasi prinsiplərin prioritet olmadığı dövlətlərdə də əsaslı sosial-iqtisadi nailiyyətlər əldə edilə bilməz. Bu mənada son sosial-iqtisadi islahatların davamı artıq dövlət idarəetməsinin qanunvericilik hakimiyyəti istiqamətində də aparılacaq.

Azərbaycanda cənab Prezidentin həyata keçirdiyi bu islahatlar öz mahiyyətinə görə postsovet və Şərqi Avropa ölkələrini qabaqlayıb. Təsadüfi deyil ki, aparılan kompleks islahatlar ölkəmizə "dünyada ən islahatçı" ölkə imici qazandırıb. Qanunverici orqanın fəaliyyəti Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində ölkəmizdə gedən sürətli inkişaf prosesinə adekvat olmalıdır. Bu mənada Azərbaycan parlamentinin də müasirləşməsi, yeniləşməsi, islahatlar sferasına cəlb olunması Prezident İlham Əliyevin islahatlar konsepsiyasının uğurla həyata keçirilməsinə mühüm töhfədir.

YAP-ın bu təşəbbüsü həm də xalqımızın partiyamıza göstərdiyi etimadın növbəti təsdiqi olacaq. Belə ki, Prezident İlham Əliyevin müsbət dəyərləndirəcəyi təqdirdə növbədənkənar parlament seçkiləri keçiriləcək. Bu mənada YAP növbəti seçkilərə getmək iddiasını ortaya qoymaqla özünə əminliyini nümayiş etdirir. Yeni parlament seçkilərində Yeni Azərbaycan Partiyası qazanacağı növbəti uğurunun əsas şərti kimi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl siyasi kursa, ölkəmizin yüksəlişinə güvənir.

***Aytac ƏLİYEVA,***
***YAP Gənclər Birliyinin sədr müavini***

# Yeni kadr dəyişiklikləri islahatların dönməzliyinin təsdiqidir

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı vəzifəsindən istefa verən yüksək çinli dövlət məmurlarını qəbul edir, onların fəaliyyətini, ölkə inkişafına verdiyi töhfələri qiymətləndirir və mükafatlandırır. Bu isə o deməkdir ki, onların vəzifələrinin icrası zamanı gördüyü müsbət işlər diqqətdən kənarda qalmır.

Diqqətçəkən məqamlardan biri də odur ki, belə məmurlar vəzifələrini tərk etdikləri son anda belə aparılan islahatların dövlət quruculuğunun xeyrinə olduğunu dərk edir, bu işdə dövlət başçısını dəstəkləyirlər. Bu özlüyündə iqtidar komandasının islahatlara meyilli olmasını, yaşı ötmüş məmurların yerlərini ləyaqətlə və şərəflə gənc nəslə ötürmələrini sübut edən ciddi amildir.

Prezident belə hesab edir ki, nəsillərin təbii dəyişməsi yeni ideyaların və yeni münasibət modellərinin yaranmasına təkan verir. Məhz buna görə ölkədə gəncləşmə siyasətinin aparılması labüddür və bunu dərk etməmək, ondan kənarda qalmaq mümkün deyil. Eyni zamanda dövlət başçısı nəsillər arasındakı intellektual mübadiləni harmonik məcraya yönəldir. Yəni faktiki olaraq böyük təcrübəsi, dövlət quruculuğunda zəhməti olan yaşlı nəslin nümayəndələri vəzifələrini yeni ideyalarla daha zəngin, daha böyük enerjiyə və yaradıcılıq imkanlarına malik olan gənc nəslin nümayəndələrinə ötürürlər.

Prezident İlham Əliyev kadr islahatlarında dərin məntiqə söykənir, müasir dünya təcrübəsinə arxalanır və eyni zamanda yüksək eşelondakı kadr islahatlarının dalğasında sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı kampaniya təşkil etməyə yönələn cəhdlərin qarşısını qətiyyətlə alır. Prezident sonuncu kadr islahatlarında neqativ təzahürlərə yol verilməyəcəyini belə bəyan edir: "Mən buna yol verməyəcəyəm. Mən bilirəm kim nəyə qadirdir, kimin hansı xidmətləri olub əvvəlki dövrdə və bu gün. Ona görə Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik. Bir də ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir".

Yaşlı kadrlarla bağlı ekspertlər onu da qeyd edirlər ki, Administrasiyanın tərkibinə yüksək vəzifələrə sınanmış kadrların irəli çəkilməsi də müşahidə olunur və bununla yeni kadr siyasətində vacib balans qorunur. Eyni zamanda dövlət başçısı kadr siyasətində şəffaflığı gözləyir. Yüksək vəzifəyə təyin olunan məmurlarla bağlı qəbulların KİV-də geniş işıqlandırılması da bunu sübut edir. Bu görüşlərdə həvalə olunan sahələrdəki irəliləyişlər və görülməli işlər dərindən araşdırılır, məmurun vəzifəsinin incəlikləri müzakirə edilir, gözlənilən nəticə əldə olunmadığı halda, sərt tədbirlərin görüləcəyi bildirilir.

Bundan əlavə, Prezident iqamətgahından həm ölkəyə, həm dünyaya mesaj verilir ki, Azərbaycanın gələcəyi, perspektivləri islahatlara və yüksək tələblərə köklənib. Hamı islahatların sürətlə həyata keçirilməsinə kömək etməlidir.

Ekspertlər bildirirlər ki, sonuncu kadr islahatları Azərbaycan dövlətçiliyi tarixində yeni və təqdirəlayiq mərhələdir. Ölkədə hamıya aydındır ki, dövlət başçısının nümayiş etdirdiyi soyuqqanlı praqmatizm, sistemli və mərhələli islahatlar ayrı-ayrılıqda hər bir kəsin, bütünlükdə isə milli maraqların tam təmin olunmasına yönəlmişdir. Dövlət quruculuğunda, iqtisadi proseslərin idarə olunmasında, əhalinin sosial maraqlarının təmin edilməsində İlham Əliyevin nümayiş etdirdiyi uzaqgörənlik və prinsipiallıq Azərbaycanda islahatların dönməzliyini təsdiq edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Doktorantların və gənc tədqiqatçıların XXIII respublika elmi konfransının açılış mərasimi keçirilib





Dekabrın 3-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) doktorantların və gənc tədqiqatçıların XXIII respublika elmi konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru Gülçöhrə Məmmədova mərasimi giriş sözü ilə açaraq elmi konfransın əhəmiyyətinə toxunub. Rektor konfransın doktorantların və gənc tədqiqatçıların elmi yaradıcılığını stimullaşdırmaq, habelə onların yaradıcılıq potensialını inkişaf etdirmək məqsədilə həyata keçirilən növbəti tədbirlərdən biri olduğunu söyləyib.

Gənc tədqiqatçıların konfransı həmişə böyük maraq doğurur. Çünki biz bu konfranslarda elmimizə gələn yeni nəsli görürük, onların nümayiş etdirdiyi potensiala, səsləndirdikləri yeni fikirlərə və ideyalara sevinirik. Bu konfransda ilk elmi nəticələri ilə çıxış edəcək gənc tədqiqatçıların sırasında, əminəm ki, gələcəkdə Azərbaycan elminin aparıcı qüvvəsini təşkil edəcək alimlər formalaşacaq.

Prezident İlham Əliyev tərəfindən gəncliyə böyük diqqət və qayğının olduğunu vurğulayan rektor əsası Ulu Öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin uğurla davam etdirildiyini bildirib. O qeyd edib ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, özlərini cəmiyyətdə təsdiqləmələri üçün onlara geniş imkanlar açıb.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının əhəmiyyətini vurğulayan rektor deyib ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilib.

Gülçöhrə Məmmədova diqqətə çatdırıb ki, təbii resursların insan kapitalına çevrilməsi istiqamətində həyata keçirilən siyasət təhsil sisteminin bütün pillələrinin yeniləşməsinə və inkişafına təkan verir. Gənclərin potensialının güclənməsinə, yeni təfəkkürlü intellektual təbəqənin formalaşmasına əsas yaradıb.

Rektor rəhbərlik etdiyi ali təhsil müəssisəsində son illər ərzində strategiyanın qarşıya qoyduğu hədəflərə çatmaq üçün görülən işlərdən də bəhs edib.

Bildirib ki, universitet ölkəmizin memarlıq və inşaat elminin mərkəzidir. Bu sahədə fəaliyyət göstərən alimlərin 80 faizi məhz AzMİU-da çalışır. Onlar memarlıq və şəhərsalma, inşaat konstruksiyaları, materialşünaslıq, ekologiya, informasiya texnologiyaları, bərk cisimlər mexanikası və bir çox başqa elm sahələrində doktorantura təhsilinə rəhbərlik edir, gənc alimlər yetişdirirlər. Universitetin nəzdində fəaliyyət göstərən 6 elmi-tədqiqat laboratoriyası gənc alimlərin tədqiqatları üçün yaxşı baza yaradır.

"İnanıram ki, bu konfransda iştirak edən tədqiqatçılarımızın məruzələri maraq doğuracaq" deyə Gülçöhrə Məmmədova qeyd edib.

Tədbirdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov konfransın Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunduğunu, Nəsimi poeziyasının Azərbaycan ədəbiyyatının daha da zənginləşməsində misilsiz rol oynadığını xatırladıb. Təhsil naziri "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsi və yeni akademik mühitin yaradılması, eləcə də digər istiqamətlərdə tədbirlər həyata keçiriləcəyini qeyd edib.

Nazir elmi-pedaqoji kadr hazırlığı ilə bağlı bir sıra statistik göstəriciləri konfrans iştirakçılarının diqqətinə çatdırıb. Ceyhun Bayramov bildirib ki, cari ildə "Web of Science" indeksli elmi-tədqiqat işlərinin ümumi çəkisinə və nəşr aktivliyinin son 3 ildə artım dinamikasına görə Azərbaycan Cənubi Qafqaz ölkələri arasında birinciliyini qoruyub saxlayır. Nazir əlavə edib ki, Azərbaycan təhsilinin və elminin qarşısında duran ən mühüm vəzifələrdən biri cəmiyyətin bugünkü və gələcək inkişaf səviyyəsinə adekvat olan yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasıdır.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, bu gün dünyada bir sıra risklər mövcuddur. Təbii resursların azalması, iqlim dəyişiklikləri və ekoloji tarazlığın pozulması, peşə və ixtisasların sürətlə dəyişməsi kimi risklər bütün ölkələri, əlbəttə ki, Azərbaycanı narahat edən problemlərdəndir. Həmin risklərin yaratdığı təhdidlərdən qorunmaq üçün isə ölkələr qlobal çağırışlara adekvat innovativ elmi strategiyaların həyata keçirilməsi istiqamətində təşəbbüsləri artırıb, yeni elmi istiqamətlər üzrə tədqiqatlara başlayıblar. Yeni çağırışlar, ilk növbədə, postindustrial cəmiyyətin yaranması, müasir informasiya və rəqəmsal texnologiyaların, süni intellektin geniş tətbiqi ilə bağlıdır. Belə bir şəraitdə Azərbaycanda da elmin prioritet istiqamətlərinə yenidən baxılmalı, istiqamətlər müəyyənləşdirilərkən qlobal çağırışlar, dünyada elmin inkişaf tendensiyaları və ölkənin sosial-iqtisadi inkişaf perspektivləri əsas götürülməli, tətbiqi tədqiqatların, xüsusən də elmi-innovativ fəaliyyətin gücləndirilməsi ön plana çəkilməlidir.

Nazir vurğulayıb ki, tədqiqat sahəsində beynəlmiləlləşmə ən vacib tendensiyalardandır. Bir çox şirkətlər özlərinin tədqiqat və layihələndirmə bölmələrini inkişaf etməkdə olan ölkələrə köçürür. 1975-ci il ilə müqayisədə 2013-cü ildə beynəlxalq (əcnəbi) tələbələrin sayı 800 mindən 4,1 milyona qədər artıb. Doktorantura sahəsində də ciddi beynəlxalq rəqabət mövcuddur, mühəndislik və təbiət elmləri sahəsində təhsil alan əcnəbi tələbələrin təxminən 89 faizi 10 ölkənin payına düşür. Azərbaycanda aparılan elmi-tədqiqatlar da bu tendensiyalara uyğunlaşdırılmalıdır.

Ceyhun Bayramov çıxışının sonunda elmi nəticələrin təqdim olunması və elmi diskussiyaların aparılması üçün davamlı platforma statusu qazanmış konfransın yeni nəsil alimlərin yetişməsinə öz mühüm töhfəsini verməkdə olduğunu diqqətə çatdırıb, konfransın işinə uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik-katibi, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov çıxışında son illərdə Təhsil Nazirliyi ilə AMEA arasındakı uğurlu əməkdaşlıqdan bəhs edib. Qeyd edib ki, belə konfranslar ölkənin gənc alim və tədqiqatçılarının bir araya gəlməsi, fikir mübadiləsi aparması üçün platformadır.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev vurğulayıb ki, 15 bölmədən ibarət olan konfransın 11 bölməsində rəhbərlik etdiyi ali təhsil müəssisəsinin doktorant və gənc tədqiqatçıları çıxış edəcəklər. Konfransın proqramına daxil edilən məruzələrin 103-nün müəllifi Bakı Dövlət Universitetinin doktorant və gənc tədqiqatçılarıdır.

Xatırladaq ki, konfransda 500 doktorant və gənc tədqiqatçının məruzələri 15 bölmə üzrə dinləniləcək.

Konfrans 2 gün davam edəcək.

# 4-cü regional inkişaf proqramının ilk ili uğurla başa çatır

Əvvəli 1-ci səh.

Həmin proqramların icrası sayəsində 2004-cü ildən 2019-cu ilin ötən dövrü ərzində 2,3 milyon yeni iş yeri yaradılıb. Təkcə sonuncu IV Dövlət Proqramının icrası sayəsində cari ilin 6 ayında 92 min yeni iş yeri açılıb. Yeni iş yerlərinin bir hissəsi regionlarda açılan çoxsaylı istehsal, emal, sənaye, xidmət və sosial obyektlərin payına düşür.

Məlumdur ki, sahibkarlığın inkişafı istehsalın artımı ilə bərabər, həm də yeni iş yerləri deməkdir. Buna görə də dövlət regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən proqramlarda bölgələrdə sahibkarlığın inkişafına xüsusi diqqət yetirir. Belə hal həm iqtisadi inkişafı, həm də əhalinin sosial müdafiəsini stimullaşdırır. Son dövrlər regionlarda yeni istehsal, emal və xidmət müəssisələrinin açılması əhalinin paytaxta axınının qarşısını demək olar ki, alıb. Bəzi hallarda isə paytaxtdan bölgələrə qayıtma halları üstünlük təşkil edir.

Cari ildə IV Dövlət Proqramının icrasına uyğun olaraq bölgələrdə sahibkarlığı inkişaf etdirmək məqsədilə bir sıra işlər görülür. İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinə önəmli dəstək verməsi sayəsində Qəbələdə, Abşeronda, Füzulidə, Sumqayıtda, Şəkidə, Şamaxıda KOB mərkəzləri fəaliyyətə başlayıb. Yerli mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkədə keçirilən satınalmalarda iştirakını təmin etməklə onların inkişafına zəmin yaratmaq, eyni zamanda dövlət satınalmalarının effektiv planlaşdırılması və icrası, həmçinin rəqabətli satınalma metodlarından istifadə imkanlarının yaradılması məqsədilə elektron satınalma portalı fəaliyyət göstərir. Hədəf bu yolla mikro, kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılmasıdır. Belə ki, dövlət tenderlərində iştirak onlara maliyyə qaynağı əldə etməyə imkan verir. Nəticədə həmin sahibkarlar öz bizneslərinin inkişafını təmin etmək imkanı qazanır.

Bu ilin birinci yarısında 510 sahibkarlıq subyektinin ümumi dəyəri 177,8 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə 48,2 milyon manat güzəştli kredit verilmişdir. Həmin kreditlərin 43,6 faizi regionların payına düşür. Eyni zamanda iqtisadiyyata yerli və xarici maliyyə resurslarının cəlb edilməsi üçün dövlətin təşviq mexanizmlərindən biri olan investisiya təşviqi mexanizmi özəl investisiyaların artımına ciddi töhfə verməkdədir. Təkcə cari ilin 6 ayı ərzində 44 sahibkarlıq subyektinə 50 investisiya təşviqi sənədi təqdim olunmuşdur.

Ölkədə həyata keçirilən iqtisadi siyasətin bir istiqaməti də sənayeləşmədir. Hədəf həmin siyasətə uyğun olaraq, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və istehsal sahəsində əhalinin məşğulluğunun artırılmasıdır. Buna nail olmaq üçün hesabat dövründə sənaye parkları və məhəllələrinin tikintisi, onların fəaliyyətə başlaması istiqamətində işlər davam etdirilir. Pirallahı Sənaye Parkında illik istehsal gücü 150 milyon birdəfəlik şpris olan "Diamed Co" zavodu istismara verilmişdir. Həmin dövrdə Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə tədbirlər davam etdirilərək rezidentlərin sayı 17-yə çatmış, Sumqayıt Kimya Sənaye Parkında tikilən SOCAR-ın Karbamid zavodu fəaliyyətə başlamışdır. Müəssisə ildə 650-660 min ton karbamid məhsulu istehsal etməyə qadirdir. Bununla yanaşı, "SOCAR Polymer" MMC-nin yüksək sıxlıqlı polietilen istehsalı zavodu da istifadəyə verilmişdir. Beləliklə, Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 13-ə çatmışdır. Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SumPlast" MMC-nin kisə və torba, "AzerFloat" QSC-nin şüşə istehsalı, "Azərxalça" ASC-nin iplik və yun istehsalı müəssisələrinin tikintisi isə davam etdirilir.

Məlumdur ki, kənd təsərrüfatı qeyri-neft sektorunda əhatə dairəsinə və əhalinin məşğulluğuna görə mühüm yer tutur. Buna görə də regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında aqrar sektora xüsusi diqqət verilir. Dövlət kiçik və orta fermer təsərrüfatlarını dəstəkləməklə yanaşı, iri fermer təsərrüfatlarının və aqroparkların yaradılmasını da stimullaşdırır. Belə ki, aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında və ərzaq təhlükəsizliyinin təmin edilməsində qabaqcıl texnologiyalardan istifadə edən aqrar müəssisələrin yaradılmasına ehtiyac var. Bu məqsədlə hesabat dövründə ölkə üzrə 33 rayonu əhatə edən 262 min hektar ərazidə 51 aqropark və iri fermer təsərrüfatının yaradılması istiqamətində işlər görülür. Hazırda 22 aqropark fəaliyyət göstərir. İlin sonunadək 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Qeyd edək ki, bu layihələrin icrası ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulması ilə nəticələnəcək. Həmçinin bu layihələrin icrası sayəsində bölgələrdə 4 mindən çox yeni iş yeri yaradılacaq.

Qəbul edilən bütün dövlət proqramlarında bölgələrdə sosial infrastrukturun yaradılmasına diqqət yetirilir. Bunun nəticəsidir ki, IV Dövlət Proqramının icrasının birinci ilinin yarısında bölgələrdə 160 kilometr içməli su, 84,8 kilometr kanalizasiya xətləri çəkilmişdir. Gəncə, Şəki, Qax, Şirvan, Şəmkir, Mingəçevir, Salyan və Horadiz şəhərlərində, eləcə də kənd yaşayış məntəqələrində su təchizatı və kanalizasiya layihələrinin icrası isə davam etdirilir. Proqrama əsasən, regionlarda qaz təsərrüfatının inkişafı və yenidən qurulması, mavi yanacaqla təchiz olunmayan yaşayış məntəqələrinin qazlaşdırılması, istehlakçıların təhlükəsiz və fasiləsiz qazla təmin edilməsi ilə bağlı tədbirlər davam etdirilir. Cari ilin birinci yarısında regionlarda 719,9 kilometr qaz xətti çəkilmiş, 246,06 kilometr qaz xətti əsaslı təmir olunmuş, 88876 qaz sayğacı quraşdırılmış və ya yenisi ilə əvəz edilmiş, 8 yaşayış məntəqəsi təbii qazla təmin olunmuşdur.

Əhalinin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması və iqtisadiyyatın davamlı enerji təchizatı ilə təmin olunması üçün regionlarda 2627 kilometr yeni elektrik verilişi xətləri çəkilmiş, 855 kilometr elektrik verilişi xətləri əsaslı təmir olunmuş, 36 transformator quraşdırılmış və əsaslı təmir edilmiş, 4 yarımstansiya tikilmişdir.

Son illər yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, o cümlədən kənd yollarının tikintisi istiqamətində də əhəmiyyətli işlər görülmüş, yüz minlərlə sakinin və sahibkarlıq subyektlərinin yol infrastrukturuna çıxış imkanları yaxşılaşmışdır. Yolların bərpası və tikintisi istiqamətində işlər yenə davam etdirilir. Belə ki, ölkə üzrə bu il 226 kilometrdən çox respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilmiş və əsaslı təmir olunmuş, 33,62 kilometrdən çox dəmir yolu xətti çəkilmiş və yenidən qurulmuş, 9 yeni körpü, keçid və yol qovşaqları inşa edilmişdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# TANAP Avropaya birləşdi

## Azərbaycanın qlobal enerji təşəbbüsü öz hədəflərinə uğurla çatmaqdadır

Əvvəli 1-ci səh.

### Tarixi gün

Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi ilk növbədə onu təsdiq etdi ki, vaxtilə Ulu Öndər Heydər Əliyevin başlatdığı və bu gün İlham Əliyevin layiqincə davam etdirdiyi Azərbaycanın enerji siyasəti perspektiv hədəflərinə doğru layiqincə irəliləyir. Eyni zamanda bütün dünya bir daha gördü ki, bir vaxtlar Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini işə salmağa müvəffəq olan respublikamız artıq daha qlobal təşəbbüsləri də uğurla başa çatdırmağa qadirdir.

Beləliklə, noyabrın 30-da respublikamızın enerji siyasəti tarixinin növbəti parlaq səhifəsi yazıldı. Prezident İlham Əliyev TANAP-ın Avropaya birləşdirildiyi günü tarixi gün adlandıraraq deyib: *"Bu gün tarixi gündür. Bu gün dörd il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı. Bu münasibətlə hamımızı ürəkdən təbrik edirəm. Əminəm ki, TANAP-ın ömrü uzun olacaq, TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir"*.

### Əfsanədən reallığa

Bu gün dünya siyasətinin ən aktual məsələlərindən biri enerji təhlükəsizliyidir. Təsadüfi deyil ki, son vaxtlar keçirilən bütün siyasi və iqtisadi məzmunlu konfransların gündəliyində də yer tutan başlıca məsələlərdən biri dövlətlərin enerji təhlükəsizliyidir. Xüsusən Avropa ölkələri özlərinin enerji təhlükəsizliyini təkmilləşdirməyə və gücləndirməyə ehtiyac duyurlar. Buna görə də hazırda genişmiqyaslı infrastruktur və enerji layihəsi olan "Cənub qaz dəhlizi"nin Avropanın enerji təminatında əsas mənbələrdən biri olacağına əmindirlər.

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin mürəkkəb infrastruktur olacağı ilk gündən məlum idi. Bəlkə də, bəzilərinə hələ 2012-ci ildə "Cənub qaz dəhlizi"nin ərsəyə gəlməsi xəyal kimi görünə bilərdi. Necə ki, "Əsrin müqaviləsi" imzalananda çoxları onun gələcəyinə, sənəddə qarşıya qoyulan niyyətlərin gerçəkləşməsinə inana bilmirdilər. Amma Azərbaycan dövləti bu layihəni də əfsanədən reallığa çevirdi.

Kəmərin təməli 2014-cü il sentyabrın 20-də qoyuldu. Tarix təsadüfi seçilməmişdi. Həmin gün "Əsrin müqaviləsi"nin imzalanmasıın 20-ci ili tamam olurdu. Bu mənada layihənin təməlinin həmin gün qoyulması həm də Azərbaycanın öz enerji siyasətini uğurla həyata keçirməsi, bu sahədə xarici tərəfdaşlarla əməkdaşlıqda üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirməsi barədə dünyaya verdiyi mesaj idi. Çünki "Cənub qaz dəhlizi"ndə maraqlı olan hər bir ölkə, şirkət, maliyyə institutu istər-istəməz "Əsrin müqaviləsi"nin taleyi ilə maraqlanacaqdı. Beləliklə, neftdən sonra təbii qazını da dünya bazarlarına çıxarmaqda maraqlı olan Azərbaycan öz məqsədinə sürətlə yaxınlaşırdı.

Və cəmi 4 ildən də az müddətdə bütün işlər yerinə yetirildi. 2018-ci il mayın 29-da rəsmi açılışı olan "Cənub qaz dəhlizi" Azərbaycanın enerji siyasətinin növbəti möhtəşəm uğuru kimi tarixə düşdü. Bununla da Azərbaycanın neft-qaz sənayesinin inkişafında yeni dövr başladı.

### Azərbaycan-Türkiyə birgə siyasi iradəsinin məhsulu

2015-ci il martın 17-də "Cənub qaz dəhlizi"nin qeyd etdiyimiz kimi, ən uzun hissəsi olan TANAP-ın təməlinin qoyulması Azərbaycandan Avropaya qədər uzanan nəhəng enerji infrastrukturunun reallaşması istiqamətində atılan növbəti mühüm addım idi. TANAP-la bağlı Azərbaycanla Türkiyə arasında saziş 2012-ci ildə imzalanmış və hər iki dövlətin qanunverici orqanları həmin sazişi ratifikasiya etmişdi. 2015-ci ildən başlanan işlər isə cəmi 3 ilə başa çatdırıldı.

TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimindəki nitqində Prezident İlham Əliyev bəzi mətləblərə aydınlıq gətirdi. Dövlət başçısının qeyd etdiyi kimi, TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq bu heç bir nəticə verməmişdir. Qeyd edək ki, "Cənub qaz dəhlizi" haqqında Birgə Bəyannamə"də Xəzər regionundan Avropa bazarına kimi olan bu marşrutun yaradılmasının Azərbaycan və Avropa İttifaqının qaz daşınması marşrutlarının şaxələndirilməsi və birbaşa enerji və nəqliyyat əlaqələrinin yaradılması üzrə birgə strateji məqsədinə uyğun gəldiyi qeyd olunur. Müxtəlif ideyalar olsa da, o zaman Xəzər regionundan Avropaya uzanacaq marşrutun konkret necə olacağı, hardan keçəcəyi dəqiqləşdirilmədi. Müzakirələrdən sonra bu məsələdə son nöqtəni Azərbaycanla Türkiyə arasında olan işbirliyi qoydu. Azərbaycan qazını Avropaya çatdıracaq qaz kəmərinin Türkiyə ərazisində salınması üçün hər iki tərəfin kifayət qədər arqumentləri var idi. Çünki buna qədər Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri çəkilib başa çatdırılmışdı. Digər tərəfdən, Azərbaycan qazının Avropaya çatdırılması üçün coğrafi baxımdan da ən uyğun marşrut Türkiyə ərazisidir. Ən əsası bu məsələdə əsas söz sahibi Azərbaycandır. Azərbaycan üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərlərinin çəkilişində olduğu kimi bu dəfə də tranzit ölkə kimi Türkiyəni seçdi. Beləliklə, bu layihə məhz Azərbaycanla Türkiyə arasındakı enerji sahəsində əməkdaşlıq nəticəsində ərsəyə gəldi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur.

Zaman göstərdi ki, TANAP üzrə qarşıya qoyulan məqsədlər daha stratejidir. Çünki bu kəmər Azərbaycanın "Şahdəniz" yatağından və digər mənbələrdən hasil olunan təbii qazın birbaşa Avropa sərhədinə qədər nəqlini hədəfləyən yeganə infrastrukturdur. Ona görə TANAP bu gün həm də Avropa İttifaqının xüsusi diqqət yetirdiyi boru xəttidir.

Ədirnənin İpsala qəsəbəsindən Avropaya çatan 1850 kilometrlik bu kəmər Türkiyənin Ərdahan vilayətinin Posof qəsəbəsindən başlayır və qardaş ölkənin ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçir. Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə birləşən TANAP artıq Türkiyə-Yunanıstan sərhədində TAP-a qoşulub. Bununla da "Cənub qaz dəhlizi"nin bütün seqmentləri bir-birinə tam birləşib. TAP-a birləşməklə həm də TANAP-ın tam inşası başa çatdırılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Xarici İşlər Nazirliyinin əcnəbi diplomatlar üçün keçirdiyi ixtisasartırma kursu başa çatıb



Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) və ADA Universitetinin birgə əməkdaşlığı çərçivəsində Asiya, Afrika, Latın Amerikası və Avropanın bir sıra ölkələrinin diplomatları üçün noyabrın 10-dan 30-dək həyata keçirdiyi "Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı" ("Advanced Foreign Service Program for Foreign Diplomats") adlı ixtisasartırma kursu başa çatıb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 15 ölkədən (Argentina, Banqladeş, Bosniya və Herseqovina, Efiopiya, Ekvador, Əfqanıstan, Fələstin, Laos, Pakistan, Seneqal, Serbiya, Ruanda, Uruqvay, Vyetnam və Yəmən) diplomatların iştirak etdiyi proqram çərçivəsində dünya siyasəti, beynəlxalq hüquq və təşkilatlar, iqtisadi və enerji məsələləri, ictimai diplomatiya, liderliyin inkişafı və azərbaycanşünaslıq (Azərbaycanın tarixi, geosiyasəti, enerji diplomatiyası, nəqliyyat-tranzit infrastrukturu, mədəniyyəti, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və s.) kimi mövzuları əhatə edən mühazirələr dinlənilib, işçi seminarlar təşkil edilib. Həmçinin proqram çərçivəsində əcnəbi diplomatlar Milli Məclisdə, Xarici İşlər Nazirliyində, İqtisadiyyat Nazirliyində, Dövlət Neft Fondunda, "ASAN xidmət" mərkəzində, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanında olublar.

Proqramın bağlanış mərasimində ADA Universitetinin rektoru Hafiz Paşayev iştirakçılarla görüşüb və onlara proqramı müvəffəqiyyətlə bitirmələrinə dair sertifikatlar təqdim edib.

Əcnəbi diplomatlar proqram barədə müsbət təəssüratlarını bölüşərək, Azərbaycanı yaxından tanımaqdan xüsusilə məmnun olduqlarını, burada əldə etdikləri bilik və bacarığın, təcrübənin onların gələcək fəaliyyəti üçün faydalı olacağını bildiriblər.

Qeyd edək ki, Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (Azerbaijan International Development Agency - AIDA) 2011-ci ildə təsis edilib. Agentliyin yaradılmasında məqsəd Azərbaycan Respublikası tərəfindən göstərilən beynəlxalq yardımların əlaqələndirilməsi, xarici ölkələr üçün humanitar və inkişafa yardım layihələrinin həyata keçirilməsidir.






# Gənclik






Reytinq

# Uğurlu gələcək naminə müdrik və ədalətli qərarlar

**Tədqiqatlar təsdiqləyir ki, dövlətin nüfuzu, ölkə rəhbərinin reytinqi idarəetmə sisteminin düzgün müəyyənləşdirilməsindən bilavasitə asılıdır. İctimai həyatın bütün sahələrində qazanılan uğurların əsasında da məhz dövlət başçısının bu reallığa əsaslanan inkişaf strategiyası dayanır.**



Ümummilli Lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkəmiz tərəqqi etməyə və taleyüklü problemlərin həlli istiqamətində ardıcıl və uzun müddətə hesablanmış inkişaf strategiyası həyata keçirilməyə başlanmışdır. Bu gün Azərbaycanda zəngin idarəçilik təcrübəsinə əsaslanan sistem yaradılıb. Ulu Öndərin dövlət idarəetməsindəki zəngin təcrübəsi və siyasi uzaqgörənliyi müstəqillik yolunda ölkəmizin mövqelərini möhkəmləndirib. Ulu Öndərin "İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır" fikirləri Azərbaycanın əldə etdiyi uğurları təsdiqləyir. Hər hansı bir ölkənin əldə etdiyi nailiyyətlər onun iqtisadi vəziyyəti ilə yanaşı, eyni zamanda insan potensialının formalaşmasına yönəlmiş siyasəti ilə də bağlıdır.

Hazırda ölkə rəhbərinin nüfuzu, reytinqi kifayət qədər yüksəkdir. Əsas səbəb qəbul edilən qərarların cəmiyyətin maraqlarının ödənilməsinə yönəlik və nəticəyə hesablanmış fəaliyyətinin təmin olunmasıdır. Hər bir insanın şəxsi keyfiyyətlərinin, bilik və bacarığının inkişaf etdirilməsinə xüsusi önəm verilməsi, eyni zamanda ölkədə yaradılan yeni idarəetmə modelinin mərkəzində Azərbaycan vətəndaşı və onun maraqları dayanır. "Siyasətimizin mərkəzində ölkə vətəndaşı dayanır" prinsipi işləyir və bu, qəbul edilən qərarlarda öz əməli təsdiqini tapır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, "Azərbaycanın enerji resursları hələ uzun illər bizə imkan verəcək ki, iqtisadiyyatımızı gücləndirək. Ancaq bizim əsas vəzifəmiz bu kapitalı insan potensialına çevirməkdir. Bu məqsədlə Azərbaycanda sosial və humanitar sahələrdə çox böyük tədbirlər görülür". Bu isə öz növbəsində Azərbaycanın gələcək inkişaf istiqamətlərinin reallaşdırılmasına zəmin olacaqdır. İndi əsas məqsəd müstəqil dövlətçiliyimizin üzərində bərqərar olduğu dayaqlarından birinə çevrilən dövlət qulluğu institutu və peşəkar dövlət qulluqçuları ordusunu təkmilləşdirməklə gələcəyə aparmaqdır.

Azərbaycan iqtisadi potensialı baxımından regionun ən qüdrətli dövlətidir. Elmi, sosioloji araşdırmalar, beynəlxalq reytinq agentlikləri, beyin mərkəzləri dünya dövlətləri arasında Azərbaycanın qabaqcıl yerlərdən birini tutduğunu qeyd edir. Bu reallıqlar yerli mütəxəssislərlə yanaşı, dünyanın nüfuzlu beynəlxalq təsisatları tərəfindən də təsdiqlənir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatların uğurlu nəticələri Dünya İqtisadi Forumunun hesabatında da əksini tapıb. Prezident İlham Əliyevin ardıcıl və qətiyyətli tədbirləri dünyanın aparıcı institutlarının diqqətindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin növbəti uğuru "Doing Business" hesabatında da xüsusi vurğulanmışdır. Azərbaycanın ötən illə müqayisədə daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilməsi, Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında 8 indikator üzrə yüksəlişi onu göstərir ki, inkişaf strategiyası düzgün müəyyən edilib.

Azərbaycanın inkişafının hazırkı mərhələsinin özəlliyi ondadır ki, son illər xüsusilə intensivləşən və bütün ölkə boyu uğurla həyata keçirilən infrastruktur layihələri, yaradılan sənaye, kənd təsərrüfatı və xidmət müəssisələri ən müasir texnologiyalara əsaslanır. Çox önəmlidir ki, bu innovativ texnologiyaların işlənilməsi və tətbiqi istehsal və xidmət sahələri ilə bərabər olduqca böyük əhəmiyyət daşıyan idarəetmə proseslərini də əhatə edir. Bütün bunların əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası, bu istiqamətdə qəbul edilən və reallaşdırılan qərarlar durur. Uzunmüddətli davamlı inkişaf strategiyasının tələblərinə cavab verən insan potensialının formalaşması, ölkənin zəngin təbii ehtiyatlarından olan "qara qızılın" insan kapitalına



çevrilməsi, bu sərvətin formalaşdırılması və səfərbər edilməsi yüksək hədəflərə nail olunmasının əsas amili kimi çıxış edir.

Akademik Urxan Ələkbərov qeyd edir ki, "ölkədə sağlam, yüksək bilik və bacarığa malik olan yeni nəslin formalaşması tərəqqinin hərəkətverici qüvvəsidir. Prezident İlham Əliyevin səmərəli dövlət idarəçiliyinin təməlində də məhz elm və texnologiyalar, bilik iqtisadiyyatı, elmtutumlu istehsalın həvəsləndirilməsi, eyni zamanda, rəqabətədavamlı elmi-intellektual insan potensialının inkişaf etdirilməsi, bir sözlə, innovativ modernləşməyə transformasiya amili dayanır".

Prezident İlham Əliyevin özünün də dəfələrlə vurğuladığı kimi, Azərbaycanda sistemli və ardıcıl islahatlar nəticəsində ötən illərdə iqtisadiyyatın və ictimai həyatın bütün sahələrində mühüm məqsədlərə nail olunub, ölkə keyfiyyətcə yeni modernləşmə mərhələsinə qədəm qoyub. Bu mərhələnin başlıca prioritetləri çoxşaxəli, səmərəli və innovativ iqtisadiyyatın formalaşmasına əsaslanaraq sosial sahədə önləyici inkişaf trendinin təmin olunması, əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara çatdırılmasıdır.

Bu fəaliyyətin əsasında dövləti yeni təfəkkürlə gələcəyə yönləndirən, ölkə rəhbəri imicini ləyaqətlə daşıyan Prezident İlham Əliyev dayanır. Azərbaycan Prezidenti tərəfindən qəbul edilən müdrik və ədalətli qərarlar xalqın ona olan etimad və inamını artırır. Bu isə öz növbəsində daxildə və xaricdə ölkənin və onun rəhbərinin reytinqini yüksəldir. "Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır" deməklə vətəndaşların etimad və inamını qazanması bilavasitə reytinqə təsir edən amildir.

Heç şübhəsiz ki, Birinci vitse-prezident institutunun təsis edilməsi və bu yüksək vəzifəyə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təyin olunması da xüsusi əhəmiyyət kəsb edir. Məhz onun fəaliyyətinin nəticəsi olaraq ölkəmizdə dövlət idarəetməsi hüquqi və təşkilati əsaslarla yanaşı, eyni zamanda ictimai və sosial institut imici qazana bilib. Bu gün dövlət qarşısında daha səmərəli, çevik və vətəndaşlara yönəlik, daim təkmilləşən instituta çevrilmək kimi bir çağırış var.

Hazırda ölkəmizdə gedən proseslər göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi uğurlu gələcək siyasəti artıq öz bəhrələrini verir. Məhz bu müstəqil siyasət ölkə rəhbərinin reytinqini yüksəldir və gələcəkdə əldə ediləcək uğurların əsasını təmin edir.

*Yusif AĞAYEV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İctimai əlaqələr, elektron tədris və informasiya təminatı şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent*

İnsan kapitalı

# Biz qayğıdan güc alırıq

**Ümummilli Lider Heydər Əliyev bütün sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də dövlətin əsas hədəflərini müəyyən etmişdir. O, XX əsrin 90-cı illərində yaşadığımız ağır və mürəkkəb vəziyyətə baxmayaraq gənclərimizin əqli, mənəvi və fiziki cəhətdən formalaşaraq müasir cəmiyyətə inteqrasiya ola bilməsi üçün bütün zəruri tədbirləri görmüşdür. Məhz onun həyata keçirdiyi zəngin, şaxələndirilmiş və uzaqgörən islahatlar XXI əsr Azərbaycan gəncləri üçün geniş imkanlar açmışdır. Bu imkanlar sayəsində gənclərimiz ölkə daxilində və xaricində vətənimizi ləyaqətlə təmsil etmək, milli adət-ənənələrimizi yaşatmaq və dövlət quruculuğu prosesində yaxından iştirak etmək hüququ qazanmışdır.**

Sevindirici hal odur ki, Ulu Öndərin başladığı iş onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən yeni dövrün çağırışlarına uyğun olaraq uğurla davam etdirilir. Cənab Prezident dəfələrlə gənclərlə keçirdiyi görüşlərdə, müxtəlif tədbirlərdə ölkə gəncliyinə olan yüksək inamını, etimadını və güvənini ifadə etmişdir. Əslində bu yüksək münasibət təcrübədə özünü daha aydın şəkildə göstərir. Son 16 ildə ölkəmizdə gedən dinamik və hərtərəfli inkişafa nəzər saldıqda əminliklə demək olar ki, bu inkişafdan gənclərimiz kifayət qədər faydalanmışdır. Bu illər ərzində gənclər siyasəti istiqamətində qəbul edilən dövlət proqramları, inkişaf strategiyası və digər normativ sənədlər bu işin hüquqi bazasını möhkəmləndirmişdir. Bununla paytaxt və regionlarda tikilən gənclər mərkəzləri (evləri), olimpiya idman kompleksləri, yeni təhsil müəssisələri, Gənclər Fondunun təsis edilməsi, açılan iş yerləri, tələbə təqaüdlərinin artırılması, 2007-ci ilin "Gənclər ili" elan olunması və s. məhz Prezident İlham Əliyevin ölkə gəncliyinə olan diqqət və qayğısının təzahürü olmuşdur.

Bu gün dövlət başçısının tapşırığına uyğun olaraq əsas vəzifə gənclərimizin vətənə məhəbbət və milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunmasıdır. Bu isə təbiidir. Torpaqlarımızın 20 faizinin düşmən işğalında olduğu halda bizim ən başlıca vəzifəmiz hər an vətənimizə olan yüksək sevgimizi, məhəbbətimizi, onun uğrunda canımızı qurban verməyə hazır olmaq istəyimizi və düşmənə olan nifrətimizi bəyan etməkdir. Buna görə vətənpərvər gənc nəslin formalaşması bizim qarşımızda duran ən başlıca vəzifələrdəndir.

Gənclərimizin vətənpərvər ruhda tərbiyə olunması üçün Prezident İlham Əliyevin təşəbbüsü əsasında həyata keçirilən "Ölkəmizi tanıyaq" layihəsi bu işə əvəzsiz töhfə verməkdədir. Eyni zamanda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər sözün əsl mənasında gənclərimizə milli-mənəvi dəyərlərimizə və tarixi köklərimizə bağlı ruhda böyüməsi üçün geniş fürsətlər yaradır. Bu gün düşmənlə təmas xəttində yerləşən Ağdam rayonunda Heydər Əliyev Fondu tərəfindən inşa edilən Ağdam Muğam Mərkəzi, Ağdam Xalçaçılıq müəssisəsi, Qarabağ Atçılıq Kompleksi, habelə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin təşkil etdiyi tədbirlər ağdamlı gənclərə göstərilən xüsusi qayğının ayrılmaz tərkib hissəsidir.

Bu işlərin məntiqi davamı olaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Ağdam Rayon İcra Hakimiyyəti tərəfindən həyata keçirilən tədbirlər gənclərimizin bilik və bacarıqlarının inkişaf etdirilməsində, habelə onların motivasiya olunmasında və stimullaşdırılmasında böyük rol oynayır. Bu tədbirlər həm intellektual oyunlar, müsabiqələr, sərgilər, festivallar, bədii-əyləncəli proqramlar, idman yarışları, həm də "dəyirmi masa" və görüşlər formatında keçirildiyi üçün gənclər arasında daha çox sevilir. Hərbi xidmətə gedən gənclərin təntənəli yola salınma mərasimlərinin təşkili, şəhid ailələri, Qarabağ əlilləri və müharibə veteranları ilə keçirilən görüşlər, xüsusi qayğıya ehtiyacı olan yaşlı və kimsəsiz insanlarla əlaqə yaradılması, hərbi hissələrə gənclərin ziyarətinin təmin edilməsi, rayon ağsaqqalları ilə gənclər arasında stolüstü oyunlar vasitəsilə maraqlı ünsiyyətin qurulması və digər bu səpgili işlər gənclərimizin hərtərəfli formalaşmasına öz töhfəsini verməkdədir. Bütün bunlar dövlət gənclər siyasətinin ayrılmaz tərkib hissəsi olaraq fiziki, əqli və mənəvi cəhətdən sağlam gənc nəslin yetişməsini şərtləndirən amillərdəndir.

Hazırda ağdamlı gənclərin əsas vəzifəsi dövlətin, Prezident İlham Əliyevin gənclərə olan yüksək inamını doğrultmaq, ölkə rəhbərinin ölkəmizin inkişafı və daha da qüdrətlənməsi, xalqımızın sülh və firavan şəraitdə yaşaması naminə həyata keçirdiyi fəaliyyətdə yaxından iştirak edərək öz potensialını əsirgəmədən qarşıda duran vəzifələri layiqincə icra etməkdən ibarətdir. Heç şübhəsiz, bu yolda olmaq hər bir Azərbaycan gənci, o cümlədən ağdamlı gənclər üçün böyük şərəf və qürur mənbəyidir.

*Elnur ƏHMƏDOV,*
*Ağdam Rayon Gənclər və İdman İdarəsinin rəisi*

İstedadlar

# Əlillərin cəmiyyətə inteqrasiyası hər birimizdən asılıdır

**Fiziki məhdudiyyəti olanların arasında istedadlıların üzə çıxarılması istiqamətində müxtəlif layihələr reallaşdırılmaqdadır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu istiqamətdə həyata keçirdiyi bir sıra irihəcmli layihələr ictimaiyyət tərəfindən də təqdir olunur. Belə layihələrdən biri avqust ayının 1-dən start götürərək dekabrın 31-dək davam edəcək "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə Günərzi mərkəzlərin xidmətinin göstərilməsi" adlı müsabiqədir.**



Əsas məqsədi fiziki məhdudiyyətlilərin cəmiyyətə inteqrasiyasına dəstək verməkdən ibarət olan "İstedadlı Əlillər" İctimai Birliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə bu sahədə müəyyən tədbirlərin təşkilinə nail olub. Təşkilatın sədri I qrup əlil Cavad Qasımov deyir ki, rəhbəri olduğu birlik əhalinin sosial müdafiəsi və sağlamlığının qorunması sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərin təbliği ilə də məşğuldur: "...Birlik əlilliyin qarşısının alınması, bu qəbildən olan insanlara qayğının göstərilməsi ilə bağlı maarifləndirmə işinin təşkili, onların yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün müxtəlif kurslar və seminarlar, "dəyirmi masa" və görüşlər, sərgilər, konfranslar, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər keçirir. Gəncə, Sumqayıt və Abşeron rayonunun Xırdalan şəhərində filialları fəaliyyət göstərir. Müəllifi olduğumuz bir sıra mühüm layihələrin reallaşdırılmasında Azərbaycan Respublikasının Prezidenti Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasını yanımızda hiss etmişik. Onlar maliyyə dəstəyi göstərib".

Sumqayıtda aztəminatlı ailələrin uşaqları üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkil etdiyi Günərzi Mərkəzi fəaliyyət göstərir. Belə mərkəzlərin qurulması layihəsini yerli qeyri-hökumət təşkilatları icra edir. Layihə barədə fikirlərini bölüşən C. Qasımovun sözlərinə görə, mərkəz açılanda ora xeyli müraciət olub. Lakin layihəyə uyğun olaraq, 4-12 yaş arası daha çox qayğıya ehtiyacı olan aztəminatlı ailələrin övladlarından və fiziki məhdudiyyətli uşaqlardan 30 nəfər götürülüb: "Belə mərkəzlərin artırılması və davamlı fəaliyyəti üçün mütləq düşünülməlidir. Mərkəzdə uşaqların tədrisi, təlimi və məşğuliyyəti ilə bağlı münbit şərait yaradılıb. Çox istərdik ki, uşaqlarımızın hər biri belə diqqət, sevgi və gözəl şəraitlə təmin olunsun".

"IVERIA - DİAMOND-2019" fiziki məhdudiyyətlilər üçün beynəlxalq mahnı, rəqs və incəsənət festivalında iştrak etməsi üçün "İstedadlı Əlillər" İctimai Birliyinə göstərdikləri dəstəyə görə "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyinə, Abşeron Rayon İcra Hakimiyətinə, Milli Paralimpiya Komitəsinə, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasına, "Əlil Velosipedçilərə Dəstək" İctimai Birliyinə təşəkkürünü bildirən C.Qasımov onu da vurğuladı ki, bir qrup əlilliyi olan istedadlı gənclərimiz həmin beynəlxalq festivalda qalib gəlib "Qran-pri"ni Azərbaycana gətirdilər: "İstedadlıların qabiliyyətinin üzə çıxarılmasında mütləq dəstək lazımdır. Məhz həmin dəstək hesabına oktyabr ayında birliyimizin üzvləri Gürcüstanın Rustavi şəhərində keçirilən "IVERIA-DIAMOND-2019" Beynəlxalq Festivalın qalibi oldular. Azərbaycan, Almaniya, İsrail, Gürcüstan, Ukrayna və digər respublikalardan müxtəlif fiziki imkanları məhdud istedadlılar həmin festivala qatılmışdılar. Respublikamızı təmsil edən "İstedadlı Əlillər" və "Əlil Velosipedçilərə Dəstək" İctimai birlikləri üzvlərindən Bəhlul Əliyev, Aysel Əlizadə, İlqar Əhmədov, Mehrac Dünyamalıyev, Amid Həsənquluyev, Milli Paralimpiya Komitəsinin əlil arabasında rəqs idmanı üzrə idmançıları Rəsul Zəkiyevlə Diana Şahbazova gözəl ifaları ilə diqqət çəkdilər və yüksək qiymətləndirildilər və onlar "Qran-pri"yə sahib oldular.

Həmin tədbirdə Azərbaycan xalq mahnısı "Sarı gəlin"i Mehrac Dünyamalıyev çox gözəl ifa etdi. Festivalın aparıcısı tərəfindən "Sarı gəlin"in Azərbaycan xalq mahnısı olduğu və UNESKO tərəfindən qəbul edildiyi xüsusi vurğulandı. Onu da deyək ki, ölkəmiz növbəti 2020-ci ildə "Odlar Yurdu, Bakı-2020" adlı mahnı, rəqs və incəsənət beynəlxalq festivalına evsahibliyi edəcək..."

Qubad Qasımov isə yeni bir layihə barədə məlumat verərək bildirdi ki,"Park-Bulvar Ticarət Mərkəzinin təşkilati dəstəyi ilə noyabr ayında birlik fiziki məhdudiyyəti olan istedadlıların əl işlərinin satış-sərgisini təşkil etdi. Sərginin keçirilməsində məqsəd onların əsərlərinin cəmiyyətə təqdim edilməsi, eyni zamanda müəlliflərin maddi təminatına dəstək idi.

Onu da deyək ki, birliyin fəaliyyəti beynəlxalq və yerli təşkilatlar tərəfindən dəfələrlə mükafatlandırılıb. Türkiyə Cümhuriyyəti "Birləşən Yürəklər" vəqfi tərəfindən medala, Azərbaycan Respublikasının Prezidenti Yanında QHT-lərə Dövlət Dəstəyi Şurası və Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən təltif olunan birlik üzvləri öz istedadlarına və qabiliyyətlərinə güvənərək festival, olimpiya və sərgilərdə iştirak ediblər. Bu da ilk növbədə onların cəmiyyətə inteqrasiya olunmalarında mühüm məsələdir. Birliyin 40-dək üzvü keçirilən satış-sərgilərdə Azərbaycan Xalça Muzeyi tərəfindən fəxri fərman və diplomla təltif olunub.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

Xəbər

# "Gənclər arasında könüllülüyün təbliği" adlı layihə həyata keçirilib

**Lənkəran şəhərində "İntellekt" Sərhədsiz Maarifçi Gənclər İctimai Birliyinin Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirdiyi "Gənclər arasında könüllülüyün təbliği" layihəsi çərçivəsində 2 qrupda 4 günlük təlim keçirilib.**



50 nəfər gənc bu təlimlərdə iştirak etmək hüququ qazanıb. Təlimlərə qatılan gənclərin əksəriyyəti Lənkəran, Astara, Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan gənclərdir.

Təlim zaman iştirakçılara könüllülük, onun gəncin həyatında və karyerasında rolu, eləcə də cəmiyyətin inkişafında əhəmiyyəti nəzəri və təcrübi şəkildə nümayiş etdirilib.

Təlimlərdə iştirak edən gənclərin böyük əksəriyyəti onun təşkil olunmasından və eləcə də könüllülük mövzusunda əldə etdikləri məlumatlardan razı qaldıqlarını, həmçinin gələcək sosial fəaliyyətlərdə birbaşa maraqlı olduqlarını bildiriblər. Təlimlərin sonunda iştirakçı gənclərə sertifikatlar verilib.

◆ Azərbaycandan dünyaya

**"Həyatda bir prinsipim var: öhdəçiliyini üzərimə götürdüyüm işləri layiqincə yerinə yetirim. Hər zaman başımı aşağı salıb işimi görürəm, daim öz üzərimdə çalışıram. Heç zaman hansısa ad, mükafat, şöhrət ardınca qaçmamışam. Mövlanə deyir ki, "Nə qədər bilirsən bil, söylədiklərin qarşındakının anlaya bildiyi qədərdir". Buna görə həmişə gənclərə də deyirəm ki, işə can yandırmaq lazımdır, bu istək insanın daxilindən gəlməlidir. Belə olduqda uğur onsuz da gəlib səni tapacaq..."**



# Belarusun «Şərəf»li azərbaycanlısı

*Bir uğur hekayəsi danışacağıq...*

*Hər sətri əzmlə, istəklə, tükənməz mətanətlə yazılıb...*

*Zirvəyə ucalan dolanbac yolların hər anında əməyin, zəhmətin, güclü iradənin izləri həkk olub...*

*Bu uğur öz gücünü, qüvvətini qədim bir elin dəyanətindən alıb. Qoca bir diyarın başıqarlı dağlarından çağlayan şəlalələrdən, coşub-daşan çaylarından, meh vuranda ətri aləmə yayılan dəniz ləpəli çəmənliklərindən süzülüb gəlir...*

*Bu uğur başlanğıcını həsrətimizin, nisgilimizin, qubarımızın ünvanı olan ulu Göyçədən götürüb...*

*Elə buna görədir ki, didərginlərimizin o yurdlara qovuşması, dağıdılıb viranəyə çevrilən yurdlarımızı əlləriylə tikib qurmaq hekayəmizin qəhrəmanının arzularının şah taxtında özünə yer edib: "İlk yaratdığım şirkətin adı "Göyçə 88" idi. Bu rəqəm Göyçədən deportasiya olunduğumuz ildir. Bu tarixi yalnız Göyçəyə yenidən dönəcəyimiz gün yadımdan çıxara bilərəm. Baxmayaraq ki, ömrümün çox hissəsini Bakıda yaşamışam, çevrəmin əksəriyyəti buradadır, amma heç zaman doğulduğum o yeri, o kəndi unuda bilmirəm. Bu gün heç yuxularımda da görə bilməyəcəyim uğurlara imza atmışam, dünyanın harasına desən getmək imkanım var, amma dəhşətlisi odur ki, öz doğma kəndimə getmək mənim üçün əlçatmazdır, bunun qarşısında acizəm..."*

*Söhbətimiz elə belə, qeyri-ixtiyari ilk andan vətən həsrətinə köklənmişdi. Nədən söz açsaq da, hansı sualı ünvanlasaq da elə hey dönüb dolaşıb Göyçənin, Qarabağın üzərinə gəlirdi...*

*Divarda sıralanmış diplomların, fərmanların, rəsmlərin, təqvimin, qeyd dəftərçələrinin, qələmlərin üzərindən, bir sözlə, hər yerdən "Ulu Göyçə", "Şəfəq 88" adı boylanırdı...*

*Hər an, hər saniyə, hər dəqiqə ruhumuzda, qəlbimizdə, könlümüzdə olduqlarını bildirmək üçün...*

Bu yaxınlarda Belarus və Azərbaycan arasında ticarət-iqtisadi əlaqələrin və investisiya əməkdaşlığının inkişafındakı mühüm şəxsi töhfələrinə görə Belarus Prezidenti Aleksandr Lukaşenko tərəfindən "Şərəf" ordeninə layiq görülən azərbaycanlı iş adamı, "Ulu Göyçə" tikinti və investisiya şirkətinin direktoru, Azərbaycan Sambo Federasiyasının birinci vitse-prezidenti Vasif İsmayılov uğur formulunu bizimlə bölüşür...

## Uşaqlıq arzusu polis olmaq idi, amma...

Vasif Sultan oğlu İsmayılov 1972-ci ildə indiki Ermənistanın Göyçə mahalının Şəfəq kəndində dünyaya göz açıb. 1980-88-ci illərdə Bakıda Şəfiqə Əfəndizadə adına 13 nömrəli orta məktəbdə, son sinfi isə 1989-cu ildə İsmayıllı rayon Qoşakənd kənd orta məktəbində oxuyub. Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Hazırda İdarəçilik Akademiyasında elmi iş üzərində çalışır...

*- 8 yaşım olanda valideynlərim Bakıya köçdülər və Yasamal rayonunda məskunlaşdılar. 16 yaşıma, 1988-ci ilə qədər hər il yay tətilində Şəfəq kəndinə, nənəmin yanına gedirdim. 3-cü sinifdən Bakıda Şəfiqə Əfəndizadə adına 13 nömrəli orta məktəbdə, 10-cu sinfi isə İsmayıllı rayonunda oxudum. Orta məktəbdə bütün fənləri yaxşı oxusam da, əsas meyilim riyaziyyata, fizikaya, digər texniki fənlərə idi. Məktəbi bitirdikdən sonra hərbi xidmətə yollandım, onu da deyim ki, sovet dövrünün ən sonuncu əsgərləri biz idik. Uşaqlıqdan polis olmağı arzuladığım üçün elə tələbə olduğum müddətdə polis nəfəri kimi işə düzəldim. Amma bəzən görürsən ki, arzuların səni doğru ünvana gətirməyib. Bir müddət polisdə işləyəndən sonra gördüm ki, bu sahədə özümü tapa bilmirəm. Buna görə də işdən ayrıldım...*

## Biznes sahəsində atılan ilk addımlar

Biznes sahəsinə keçidi planlaşdıran Vasif İsmayılov bu istiqamətdə ilk addımlarını atmağa başlayır. İllər keçdikcə tikinti sektorunda özünəməxsus yer tutur və şirkətlərinin sayını artırır...

*- 1994-1995-ci illər idi, adı "Göyçə 88" olan kiçik bir şirkət açdım. Həmin dövrdə böyüklər, yaxınlar bu işi bacarmayacağımı düşünürdülər və deyirdilər ki, bunun üçün çox gəncsən, cəmi 22-23 yaşım vardı. O zamanlar Azərbaycandan xam dərini yığıb Türkiyəyə ixracı ilə məşğul olmağa başladım. 1996-cı ildən tikinti sektoruna keçdim, Türkmənistandan və İrandan Azərbaycana sement gətirməyə başladım. Elə o dövrlərdə də təsisçisi və direktoru olduğum "Ulu Göyçə" şirkətini yaratdım. İndiyə qədər hardasa ümumilikdə ölkəmizdə və xaricdə 20-dən artıq inzibati yaşayış və biznes binaları tikmişik və dövlətə təhvil vermişik. Çox qürurvericidir ki, bu zaman dövlət və vətəndaş qarşısında olan bütün öhdəçiliklərimizi yerinə yetirmişik.*

## Dönüş nöqtəsi

Azərbaycanlı iş adamının Belarusla yolunun kəsişməsi isə tam təsadüf nəticəsində olur. Qazandığı etibar, güvən onun bu ölkədə qalıb işləməyinə rəvac verir. Ölkəsini layiqli təmsil etmək kimi şərəfli bir işi öhdəsinə götürür...

*- 2005-ci ildə tikdiyimiz binalara lift almaq üçün Belarusun Maqilov vilayətindəki "Lift Maş" zavoduna getdim. Zavodun məsul şəxslərindən biri ilə görüşsəm də sövdələşə bilmədik. Sonra zavodun baş direktoru ilə görüşdüm və həmin şəxslə söhbətim həyatımın dönüş nöqtəsi oldu. O, məni çox səmimi qarşıladı, dinlədi və beləliklə, ilk müqaviləmizi bağladıq. Üzərindən üç il keçəndən sonra, 2007-ci ildə Belarus Prezidentinin Azərbaycana gəlişi dövründə bizə dedilər ki, həmin ölkədən aldığımız liftlərdən də sərgiyə qoymaq lazımdır. Sərgi zamanı hər iki ölkənin Prezidenti gəlib bu liftlərə də baxdı. Bu hadisələrdən bir müddət sonra "Lift Maş" zavodunun baş direktoru Maqilov vilayətinin qubernatoru təyin edildi. Əvvəldən də əlaqələrimiz olduğu üçün zəng vurub onu təbrik etdim. O isə dedi ki, "belə təbrik olmur, gərək gəlib burada məni təbrik edəsən..."*

*Və elə bu söhbət də mənim Belarusa gedib işləməyimə səbəb oldu. Görüşümüz zamanı o, təklif etdi ki, Belarusda qalıb işləyim. Bir müddət bu ölkənin daxili bazarında araşdırma etdikdən sonra tikinti sahəsinin iş üçün məqbul olduğunu gördüm. Beləliklə, orada ilk işimizi başladıq. Artıq onun üzərindən 12 il keçir. Belarusdakı şirkətimin adı "Şəfəq 88"dir. Düşünürəm ki, bu illər ərzində özümüzü orada sübut edib xeyli uğurlara imza atdıq. Hazırda da Belarus bazarında tikinti üzrə əsas podratçı və sifarişçiyik.*

*Belarus bu gün Prezident A.Lukaşenkonun rəhbərliyi altında davamlı inkişaf edir, əhalinin rifahı yüksəlir. Bu ölkədə genişmiqyaslı quruculuq işləri aparılır. Bir məqama da toxunum ki, Belarus Azərbaycanın strateji tərəfdaşıdır. İki dövlət arasında mövcud olan yüksəksəviyyəli əməkdaşlıq məhz prezidentlər İlham Əliyevlə Aleksandr Lukaşenko arasındakı uzun illərdir davam edən səmimi dostluğa əsaslanır. Hər iki liderin qarşılıqlı etimada köklənən bu münasibətləri ölkələri partnyor etməklə yanaşı, xalqları da bir-birinə yaxınlaşdırır.*

*Belarusda Prezident İlham Əliyevə, Azərbaycana, azərbaycanlılara böyük hörmət var. Təsadüfi deyil ki, diasporamızın təmsilçisi, bu ölkədə fəaliyyət göstərən azərbaycanlı iş adamı kimi bu illər ərzində çoxsaylı fəxri fərmanlara, diplomlara layiq görüldüm. 2018-ci ildə Maqilov vilayətində "İlin adamı" oldum ki, Belarusun müstəqilliyi tarixində bu adı alan ilk əcnəbiyəm. 2019-cu ildə "İş adamı" müsabiqəsinin "Belarus bazarında xarici markanın yüksək standartının dəstəklənməsinə görə" nominasiyasında laureat oldum. Bu yaxınlarda isə Aleksandr Lukaşenko tərəfindən bu ölkənin ali mükafatına - "Şərəf" ordeninə layiq görüldüm.*

*Fəaliyyətim hər zaman Azərbaycanda da yüksək dəyərləndirilib. 2016-cı ildə Prezident İlham Əliyev tərəfindən fərxri fərman aldım. 2017-ci ildə Azərbaycanda inşaat işçiləri günündə "Tərəqqi" medalı ilə təltif olundum. Bütün bunlar əməyimə verilən dəyərdir və çox qürurvericidir.*

## İş adamlarımızın qazandığı uğurlar İlham Əliyevin sahibkarlara göstərdiyi diqqət və dəstəyin nəticəsidir

Belarusda Azərbaycan Ticarət Evinin təsisçisi olan Vasif İsmayılov söyləyir ki, qazandığı bütün uğurlarının başlıca səbəbi cənab Prezident İlham Əliyevin xarici iqtisadi əlaqələrdə qurduğu geniş, çoxşaxəli siyasətin nəticəsidir. Xarici ölkələrdə Azərbaycan ticarət nümayəndəliklərinin, evlərinin açılması ölkə istehsalçılarının həmin bazarda gedib öz məhsullarını təqdim etmələrinə geniş imkanlar yaradır. Müsahibimiz deyir:

*- Daxili bazarın araşdırılması iş adamı üçün aylarla zaman aparır. Amma ticarət evləri bunu rahatlıqla təmin edir, istehsalçının məhsulu haqqında bazar araşdırması edir və nəticələrə əsasən məsləhət verir. Bu gün Belarus dükanlarında "Made in Azerbaijan" brendi altında müxtəlif məhsullar satılır. Bunu görmək çox sevindiricidir.*

*Cənab Prezident hər zaman iş adamlarına dəstək verir. Ötən il Prezident İlham Əliyev Belarusa səfərə gəldikdə 2017-ci ildə açılışı olan Azərbaycan Ticarət Evinə də baş çəkdi. Bu da qayğının bariz nümunələrindən biridir ki, dövlət başçısı işlərinin çoxluğuna baxmayaraq vaxt ayıraraq öz iş adamlarının fəaliyyət göstərdiyi məkana gəlir, problemləri ilə maraqlanır, hər zaman onların yanında, dəstəkçisi olduğunun mesajını verir.*

*Biz iş adamlarının üzərinə düşən isə gördüyümüz işlərlə, əməllərimizlə, ölkəmizi layiqli təmsil etməklə cənab Prezidentin etimadını doğrultmaqdır. Vətənimizin imici, adı üçün çalışmalıyıq.*

## Minskdə Azərbaycan məhəlləsi və ən böyük arzu...

Vasif İsmayılov Minskdə Mayakovski və Aranskaya küçələrinin kəsişməsində inşa edilən biznes mərkəzinin investorlarından biri kimi tanınır. O eyni zamanda, Azərbaycan Ticarət Evinin yerləşdiyi "Abşeron" çoxfunksiyalı kompleksin inşasında da iştirak edib. 2013-cü ildə onun şirkəti Belarusun Azərbaycandakı səfirliyinin yeni binasını inşa edib və binanın açılışında hər iki ölkənin dövlət başçıları iştirak edib.

İş adamının qarşıdakı planları arasında isə Minsk şəhərində "Azərbaycan məhəlləsi" adlı kompleks tikmək var və hazırda bu layihə üzərində işləyir.

*- Bu şəhərdə rus, çin və bir neçə başqa xalqın adını daşıyan məhəllələr var. İstəyirəm həm Azərbaycan, həm də Belarus arxitekturasını özündə ehtiva edən "Azərbaycan məhəlləsi" də tikək.*

*Ən böyük arzum isə işğal olunan torpaqlarımızın azad olunması və orada quruculuq, tikinti işləri aparmaqdır...*

## Nə qədər ki, "Ulu Göyçə" yaşayır...

*O, ömrünü qurub-yaratmağa həsr edib. Tikdiyi binaların hər birini isə öz övladı sayır. Onların qarşısından keçəndə fəxr hissi duyur ki, bu dünyada nə isə bir iş görüb, iz qoyub. İllərdən sonra lap özü olmasa belə gələcək nəsillər bu binaları onun adı ilə xatırlayacaqlar: "Tikdiyin binalara övladındır demək ancaq onun keyfiyyəti, işin layiqincə yerinə yetirilməsi ilə, üzərinə götürdüyün öhdəçiliyi necə həyata keçirməyinlə ölçülür. Tutaq ki, milyonun var, amma səndən 1 otaqlı ev alanın cəmi 20 min manatı var. Sən ondan pulu alanda artıq üzərinə öhdəlik götürürsən və o öhdəçiliyi layiqincə yerinə yetirməlisən. Düşünürəm ki, iş adamı hər zaman kiminsə qarşısında öhdəçilik hissi ilə yaşamalıdır".*

Tikdiyi binaların dayanıqlığı barədə suallara isə hər zaman bir cavab verir: "Nə qədər ki, "Ulu Göyçə" şirkəti fəaliyyətdədir, yaşayır, o binalar da dağ kimi ayaqda duracaq".

*Aldığı bütün mükafatları, dəyəri isə tək Vasif İsmayılova, onun şirkətlərinə yox, bütün azərbaycanlılara, ölkəmizin iş adamlarına verilən qiymət kimi dəyərləndirir və məsuliyyətinin də böyük olduğunu dərk edir...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Tarix güclüləri sevir

Əvvəli 1-ci səh.

Burada sabit bir xəttə diqqət çəkək: mif, əfsanə qəhrəmanları həm qələmə, həm də qılınca mükəmməl sahib olan şəxslərdir. Başqa xalqların epik qəhrəmanlarında bu keyfiyyət nadir halda rast gəlinir. Məsələn, "Kitabi-Dədə Qorqud"da qopuz müqəddəs missiyaya sahibdir və hər addım mütləq onun xeyirduası ilə həyata keçməlidir. Qopuzun uğurlamadığı hadisənin nüvəsində mütləq bir zülmün, ədalətsizliyin olması qənaəti var. Başqa sözlə desək, *bu xalq tarixini yaratmaqla yanaşı, onu yazmağı da bacarıb.* Deməli, müsəlman Şərqində 1918-ci ildə qurulan ilk demokratik cümhuriyyətin ilk təşəbbüslərindən biri kimi Bakı Dövlət Universitetinin yaradılması tarixi köklərdən gələn tələb idi. Öz məruzəsində bunu vurğulayan Prezident İlham Əliyev deyir: "Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki, savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil". Düzdür, cümhuriyyət qısa bir ömür yaşadı, lakin Bakı Dövlət Universiteti yaşamaqda davam etdi və 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verən neçə böyük şəxsiyyət yetişdirdi. Təsadüfi deyil ki, Azərbaycanın ikinci dəfə müstəqillik qazanmasında, onun qorunub saxlanmasında BDU məzunlarının əməyi çox böyük olub. Ölkə rəhbəri dünyanın iqtisadi və siyasi meydanında gücü artan Azərbaycanı belə təqdim edir: "Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır". Bu, qədim köklər, möhkəm təməl üzərində qurulmuş abidədir. Bununla yanaşı, Prezident bu abidənin möhtəşəmliyinin mənbəyini də göstərir: "Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb, yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq". Deməli, Azərbaycan kökünə sadiq qalaraq yenə də qılınc və qələmin vəhdətini yaşatmaqda davam edir - tarixi simasını qorumaq naminə!

## Tarixin sınaqları

Azərbaycan hər zaman çox ciddi sınaqlara məruz qalıb. Buna rəvac verən həm əlverişli coğrafi mövqeyi, həm zəngin təbii sərvətləri, həm də istedadlı, bacarıqlı insanları olub. Ən vacibi isə, müxtəlif vaxtlarda işğala məruz qalsa da, ayrı-ayrı imperiyaların tərkibinə qatılsa da, milli ruh öz identikliyini heç vaxt itirməyib. Bu keyfiyyət ona daim fərqlənməyə, ümumi axında əriməyib, özünə məxsus səhifələr açmaq imkanı verib. Məsələn, Azərbaycan islam mədəni bölgəsinin üzvi hissəsi olanda onun düşüncə tarixinə çox əhəmiyyətli töhfələr vermişdi. Eyni zamanda bu bölgədə ilk milli dövlət də burada quruldu. Bu isə o deməkdir ki, xalq dərin imanı yanında milli kimliyini də qorumaq bacarığına malikdir. Bu keyfiyyət daha sonra sovet imperiyası dövründə də millətin identikliyini qorudu. Həmin dövrdə o, sadəcə 15 respublikadan biri olmaqla kifayətlənmədi. İlham Əliyevin də qeyd etdiyi kimi, "Məhz Heydər Əliyevin rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi... cəmi iki respublika var idi ki, onlar donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi". Düşüncələrin dəmir çərçivəli ideologiya hüdudunda qapandığı bir vaxtda Azərbaycan yenə də milli ruhunu qorumağı bacardı: folkloru, əfsanələri, yaradıcı insanlarının əsərlərində və xalqın liderləri sayəsində. Bu proseslərin əhəmiyyətli məqamı onda idi ki, Azərbaycan hər zaman öz gücünü və bacarığını göstərmək qüdrətindədir. Bu ruhun təzahürü idi ki, qanlı 1937-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində ilk dəfə Üzeyir Hacıbəylinin "Koroğlu" operası oynanıldı. Səməd Vurğun 1938-ci ildə Molla Pənah Vaqifin timsalında "əyilməz vicdanın böyük heykəli" dedi. Hələ 1960-cı ildə UNESKO-nun təşəbbüsü ilə hazırlanan "Şərqin Musiqi antologiyası" seriyasına, 1975-ci ildə yenə də UNESKO-nun təşəbbüsü ilə hazırlanan "Dünyanın ənənəvi musiqi kolleksiyası"na Azərbaycan muğamı da daxil edildi. Maraqlı və diqqətə layiq hadisələrdən biri də 1970-ci ildə Ulu Öndər Heydər Əliyevin dahi Azərbaycan şairi Nəsiminin 600 illik yubileyinin keçirilməsi haqqında SSRİ Nazirlər Sovetinə müraciətlər etməsi oldu. Nəticədə Nəsiminin yaradıcılığının araşdırılmasına, haqqında bədii filmin çəkilməsinə, ən nəhayət, şəhərin mərkəzində abidəsinin ucaldılmasına nail oldu. İstər-istəməz belə bir rəy formalaşır: sovet ideologiyasının zirvə məqamını yaşadığı bir çağda, rus dilinin hakim mövqedə olduğu bir vaxtda Ulu Öndər sinəsini qabağa verərək milli təfəkkürə heykəl ucaltdı.

Müstəqilliyin bərpasından sonrakı ilk illərdə Azərbaycan çox ağır günlər yaşadı: torpaqları işğal olundu, kəskin şəkildə maddi yoxsulluq artdı və ondan daha faciəli olan mənəvi yoxsulluq təhlükəsi yarandı. Az qala millətin, dövlətin varlığı müzakirəyə çıxarıldı. Ancaq millətin ruhu yaşadığına görə, ayağa qalxmaq üçün özündə həmin gücü təkrar bərpa edə bildi. Xarici dövlətlərlə, nəhəng neft şirkətləri ilə bağladığı "Əsrin müqaviləsi"ndən başlayan inkişaf yolu bu gün Azərbaycanı meqalayihələrin iştirakçısı və təşəbbüsçüsü səviyyəsinə qədər yüksəldib. Bir vaxtlar BMT-yə böyük çətinliklərlə qəbul edilən Azərbaycanın Prezidenti bu gün qürurla deyir ki, "Biz dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik və indi bizim sözümüz keçəcəkdir. Gündəliyi biz formalaşdırırıq, məsələləri biz müzakirəyə çıxaracağıq. Əlbəttə ki, öz məsələmizi və əzilmiş, ədalətsizliyə düçar olmuş ölkələrin məsələlərini qaldıracağıq, onları müdafiə edəcəyik". Burada əhəmiyyətli bir məqama diqqət çəkək: Azərbaycan özü güclənməklə kifayətlənmir, məhz zəiflərin müdafiəçisi missiyasını da öz üzərinə götürür. Rabindranat Taqorun bildirdiyi kimi: "Güclü və qüdrətli olmaq qüvvəyə görə üstün olmaq deyil, zəifi öz zirvənə qaldıra bilməkdir". Azərbaycan məhz belə bir qüdrətə sahib olmaqdadır.

Hər nə qədər tarixdə qılıncın zəfəri xatırlansa da, onun izini daha kəsərli bir qılınc itirə bilir. Bu səbəbdən onun dəstəkçisi mütləq qələm olmalıdır. İrəli gedən yalnız güc deyil, həm də təfəkkür olmalıdır ki, bir-birini tənzimləyə bilsin. Sınaqdan çıxmaq üçün qılınc bəs eləmir, qələm də vacib olur. Ölkə Prezidenti gənclər qarşısında - Azərbaycanın gələcəyinin qurucuları qarşısında çıxışında bu iki faktın paralelliyini daim qorumağa çalışır. Bir tərəfdən tarixin ağır günləri, bir tərəfdən ölkənin nailiyyətləri və bunların sabitliyini və davamlı olmasını təmin edən savad və bilik.

## Abidənin qurucusu - xalq Lideri

Hər ölkə tarixdə öz izini qoya bilmir. Bunun üçün yerə - tarixin səhifəsinə həmin izi möhkəm basmaq lazımdır. Təbii ki, burada bütün ağırlıq ilk növbədə Liderin üzərinə düşür. Liderin kimliyini düşünəndə ilk növbədə Danko yada düşür - lazım gələndə, çətin məqamda millətinin yolunu işıqlandırmaq üçün ürəyini belə başının üstünə qaldıra bilən bir şəxs. BDU-nun yubileyində dövlət başçısı da eyni mənzərəni vurğuladı: "Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi". Ümumiyyətlə, Azərbaycanın tarixinə baxanda istənilən səhifə məhz Liderlə şərəf qazanıb.

Biz təsadüfən Lideri xalq abidəsinin qurucusu adlandırmırıq. Lider hər şeydən əvvəl məhz milli ruhu, milli təfəkkürü bir nüvə kimi özündə ehtiva edən şəxsdir. Maraqlı və çox əhəmiyyətli bir faktdır ki, dövlət başçısı və millətin Lideri fərqli simalarda təcəssüm olunanda ölkənin sabitliyi pozulur. Bunu istər dastanlarda, əfsanələrdə, istərsə də real tarixdə müşahidə etmək mümkündür. Dediyimizə bariz nümunəni ən yeni tariximizdən gətirmək mümkündür. 1990-cı ilin 20 Yanvarında sovet hakimiyyəti ayağa qalxmış Azərbaycan xalqını qorxutmaq, vahiməyə salıb çökdürmək istədi. Bir gecədə silahsız vətəndaşları, qadınları, uşaqları qətl etməyin məqsədi məhz bu idi. Məhz belə bir ağır məqamda Heydər Əliyev ayağa qalxdı və bununla sanki "Azərbaycan tək deyil! Mən varam!" deyə səsini ucaltdı. Bu, Ümummilli Liderin aydın bir portreti idi: "Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. ...Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm". Cəmi 2-3 cümlədə Heydər Əliyev millətindən ayrı düşmüş bir Lideri təsvir edir və öz xəstəliyinə baxmayaraq, millətinin təhlükəli vəziyyətinə laqeyd qala bilmədiyini vurğulayır. Uzun illər öz millətindən aralı olmağa məcbur olan bir şəxsin belə bir girişlə öz bəyanatını başlaması həm də əhəmiyyətli bir məqamı ön plana çəkirdi: bir millətin gücü məhz Lideri ilə həmrəy olmasındadır. Yenə də tarixə, miflərə baxanda belə nəticəyə gəlirsən ki, Lider güclü olanda xalq daha inamla gedir. İlham Əliyevin də qeyd etdiyi kimi: "Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək".

Öz nitqində ölkə rəhbəri təsadüfən Ulu Öndərə istinad etmir, çünki ən yeni tariximizdə məhz onun simasında xalq Lider fenomenini tanıdı. Eyni zamanda, məhz millətini tanıyan Lider onun problemini, narahatlığını düzgün dərk edib dəyərləndirə bilir və onun həllində öz millətinin heysiyyətini, təhlükəsizliyini, gələcəyini nəzərə alır. Heydər Əliyev uzun illər Azərbaycana rəhbərlik etmişdi, xalqın arasında olmuşdu, onun ruhunu tanıyırdı və onu dinləməyi bacarırdı. 20 Yanvar hadisələri zamanı Ümummilli Lider hadisələrin baş verməsi səbəblərini Lider və xalq arasında vəhdətin qopmasını, Liderin öz "xalqının psixologiyasını anlamamasını, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətməsini" göstərir. Deməli, Lider öz xalqının potensialını yaxşı bilən və onun reallaşması üçün ən cəsarətli addımları atan şəxsdir. Nə üçün cəsarətli? Çünki bəzən xalqın istəyi başqa güclü dövlətlərin maraqlarına zidd olur. Məhz belə məqamda Liderin iradəsi önə çıxır. O, ya başqalarının marağını önə çəkərək öz xalqını onların xidmətçisi halına gətirir, ya da istənilən çətinliyə qatlaşaraq xalqın iradəsini, marağını önə çəkir. Xalqın ruhuna, potensialına güvənən bir ölkə özü sabitləşməklə yanaşı, ətrafında da hörmət və etibar qazanır. Azərbaycanın ən yaxın tarixini gənclərə çatdıran və bu gün nəyə nail olduğunu dövlət başçısı qısaca belə təsvir edir: "Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üzə qalsaq belə".

## Nəticə

Bakı Dövlət Universitetinin yubileyində ölkə rəhbəri İlham Əliyevin məhz gənclər qarşısında çıxışı əslində bir-birini tamamlayan bir neçə vacib məsələnin altından qalın bir xətt çəkdi: güclü olmaq üçün Azərbaycanın həm kifayət qədər tarixi dərslərə, həm zəngin potensiala, maddi və mənəvi sərvətə, həm lazımi məqamda irəli addım atmaq üçün cəsarətə, həm də xalqını tanıyan və onunla vəhdətdə olan Liderə malikdir. Gənclər bu dövlətin, xalqın gələcəyidir, deməli, Azərbaycan abidəsinin daha da uca olması onların belə bir ruha köklənməsindən bilavasitə asılıdır.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***

# Silahlı Qüvvələrə Yardım Fonduna 106 milyon manata yaxın vəsait yığılıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il dekabrın 3-dək 105 milyon 197 min 683,52 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

İlə yekun vurulur

# Şəhid ailələri və müharibə əlillərinə dövlət qayğısı davam edir

Prezident İlham Əliyev "2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq" demişdir. Bu sözlər ilin əvvəlindən sosial sahədə ardıcıl xarakter alan inqilabi addımlarda öz təsdiqini tapıb.

Cari ildə təqdim edilən iki sosial paketlə minimum əməkhaqqı 2 dəfəyə yaxın artaraq 130 manatdan 250 manata, minimum pensiya 72,4 faiz artaraq 116 manatdan 200 manata çatdırılıb.

Dövlət sektorunda işləyənlərin əməkhaqlarının ciddi artımı xüsusi şərtlərlə təyin olunmuş pensiyaların da əhəmiyyətli artımına imkan verib. Həmçinin sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, şəhid ailələri üçün təqaüdlər 242 manatdan 300 manata çatdırılıb. Məcburi köçkünlərin, tələbələrin təqaüdləri əhəmiyyətli şəkildə artırılıb, 800 min insanın problemli kredit narahatlığına son qoyulub. Ümumən builki iki sosial paketin əhatə dairəsi 4,2 milyon nəfər, illik maliyyə yükü 3 milyard manatdan çoxdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin və bu döyüşlərdə sağlamlıqlarını itirmiş əlillərin sosial problemləri də daim diqqət mərkəzindədir. Onların mənzillə təminatı, həmçinin müharibə əlillərinə minik avtomobillərinin verilməsi işlərinə 1990-cı illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı əsasında başlanıb. Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı, müvafiq tapşırıqları əsasında mühüm sosial proqramların həyata keçirilməsi ildən-ilə gücləndirilir.

2019-cu il yanvarın 28-də ölkə rəhbəri İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Prezident Sarayında şəhid ailələri ilə görüşü deyilənlərin növbəti təzahürü kimi ictimaiyyət tərəfindən böyük rəğbət hissi ilə qarşılandı. Bu görüş Prezidentin şəhid ailələrinə sonsuz hörmət və ehtiramının daha bir nümunəsi idi.

2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan vətəndaşlara nəzərdə tutulduğundan 3 dəfə çox - 626 mənzil təqdim edilib. 2019-cu ildə 934 mənzil verilməsi nəzərdə tutulub, onlardan artıq 486 mənzil və fərdi ev verilib. Qalan mənzil və fərdi evlərin də ilin sonuna qədər verilməsi təmin ediləcək. İndiyədək nazirlik tərəfindən şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan vətəndaşlara 7140 mənzil və fərdi ev təqdim edilib.

Keçən il 265 müharibə əlilinə avtomobil verilib. Cari ildə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobil verilməsi planlaşdırılıb. Onlardan 427-si artıq təqdim edilib. Bununla ötən dövrdə 6400-dək minik avtomobili verilib.

Prezident İlham Əliyevin müvafiq fərmanının icrası olaraq, şəhidlərin vərəsələrinə birdəfəlik ödəmə (11 min manat) verilməsi dövlət başçısı tərəfindən şəhid ailələrinin rifah halının yaxşılaşdırılması istiqamətində növbəti humanist addımdır. Bu xeyirxah tədbir yalnız şəhid ailələri tərəfindən deyil, ümumən ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir. Ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib, bunun üçün 135 milyon manat ayrılıb. Artıq 11740 şəhidin 17500-ə yaxın vərəsəsinin birdəfəlik ödəmə ilə təminatı həyata keçirilib. Bununla da şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı 96 faiz icra olunub. Birdəfəlik ödəmələr vərəsələrin bank hesablarına köçürülür və onlara bu barədə məlumat verilir.

Dövlət başçısının tapşırıqları əsasında əlilliyi olan şəxslər üçün müasir tələblərə uyğun reabilitasiya infrastrukturu qurulur. Bu istiqamətdə növbəti addımlar kimi, nazirliyin Yevlax və Naftalan şəhərlərində əlilliyi olan şəxslər üçün Regional Bərpa mərkəzləri, Mərdəkan Müalicə Pansionatı əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Yevlax, Naftalan Regional Bərpa Mərkəzlərində müasir tələblərə uyğun reabilitasiya şəraiti yaradılıb, ətraf abadlaşdırılıb. Hər iki mərkəzdə əlilliyi olan şəxslər bərpa potensiallarının reallaşdırılması üçün fərdi reabilitasiya proqramları əsasında səmərəli bərpa müalicə prosedurlarına cəlb olunacaq.

Qeyd edək ki, Mərdəkan Müalicə Pansionatı əlilliyi olan şəxslərə, müharibə veteranlarına, əmək pensiyaçılarına müalicə xidməti göstərən bir müəssisədir. Pansionat 2 korpus, köməkçi bina, qazanxana, su anbarı, elektrik yarımstansiyasından ibarətdir. Pansionatda əsaslı təmir və yenidənqurmadan sonra müasir tələblərə uyğun reabilitasiya şəraiti yaradılıb, bütün avadanlıqlar, tibbi və reabilitasiya cihazları yenilənib. 50 çarpayı və 51,5 ştat vahidi 188 çarpayı və 137 ştat vahidi ilə əvəz olunub. Müəssisədə ildə 4500-dən çox şəxsə müalicə xidməti göstəriləcək. Burada tibbi (laboratoriya, ultrasəs müayinəsi, elektrokardioqrafiya) müayinələr, vanna, parafin və s. üsullar da daxil olmaqla effektiv təsirə malik fizioterapevtik müalicə prosedurları tətbiq ediləcək, müalicəvi bədən tərbiyəsi işi aparılacaq.

Heydər Əliyev Fondu tərəfindən də əlilliyi olan şəxslərin reabilitasiyasına mühüm töhfələr verilir. Fondun dəstəyi ilə Bakının Yeni Günəşli yaşayış massivində istifadəyə verilmiş Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi bu kateqoriyadan olan uşaqların reabilitasiyasında əhəmiyyətli rola malikdir. Hazırda Sumqayıt, Şəki, Şirvan, Xaçmaz, Lənkəran Regional Bərpa mərkəzlərində, Şağan əlilliyi olan şəxslər üçün Müalicə Pansionatında əsaslı təmir və yenidənqurma işləri davam edir. Gəncə Pensiyaçılara Ərazi Sosial Xidmət Mərkəzində, Göygöl və Şamaxı psixonevroloji Sosial Xidmət müəssisələrində də əsaslı təmir və yenidənqurma işləri aparılır. Qobustan Sosial Adaptasiya Mərkəzi və Gəncə Peşə Tədris Mərkəzi də yaxın vaxtlarda istifadəyə veriləcək. Dövlət başçısının tapşırığına əsasən, bərpa mərkəzləri şəbəkəsinin ölkə boyu genişləndirilməsi işlərinə başlanılıb. Ayrı-ayrı bölgələrdə Uşaq Bərpa Mərkəzlərinin tikintisi nəzərdə tutulub.

Bu faktların özü də əhalinin sözügedən təbəqəsinə dövlətin qayğısının davamlı olduğunun aydın təzahürüdür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Vergi Məcəlləsinə olunan dəyişikliklərin əsas istiqamətləri açıqlanıb

Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin əsas istiqamətləri ilə bağlı Vergilər Nazirliyində brifinq keçirilib. Nazirliyin baş idarə rəisi Samirə Musayeva məcəlləyə əlavə və dəyişikliklərin əsas məzmunu, başlıca istiqamətləri, iqtisadi hədəfləri və alətləri haqqında kütləvi informasiya vasitələrinin nümayəndələrinə ətraflı məlumat verib.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasəti iqtisadiyyatın bugünkü tələblərinə uyğun olaraq təkmilləşdirilir. Ölkədə sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi qanunvericiliyinə dəyişikliklər layihəsi hazırlanıb və qanun layihəsi Milli Məclis tərəfindən qəbul edilib. Qanun Prezident tərəfindən imzalandıqdan sonra qüvvəyə minəcək.

Qeyd olunub ki, Vergi Məcəlləsinə dəyişiklikləri iqtisadi hədəflər və islahatın məqsədləri baxımından 7 əsas istiqamət üzrə təsnifləşdirmək olar. Bunlar - bərabər və şəffaf fiskal mühitin təmin edilməsi; ƏDV inzibatçılığının təkmilləşdirilməsi; sahibkarların inzibatçılıq yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi; sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması; sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergitutma bazasının genişləndirilməsi; beynəlxalq vergitutma və məlumat mübadiləsi üzrə öhdəliklərin yerinə yetirilməsi kimi məqsədləri əhatə edir.

S.Musayeva ədalətli rəqabətin şərti kimi bərabər və şəffaf fiskal mühitin təmin edilməsinin əsas məqsədlərdən biri olduğunu və bu hədəf qrupu üzrə müəyyən edilmiş dəyişikliklərin şərti olaraq 3 istiqaməti (əmtəəsiz əməliyyatlar aparan vergi ödəyicilərinə qarşı mübarizənin aparılması; riskli vergi ödəyicilərinə nəzarətin gücləndirilməsi; vergidən yayınma hallarına qarşı mübarizənin genişləndirilməsi) əhatə edəcəyini diqqətə çatdırıb.

Vurğulanıb ki, qanunvericiliyə edilmiş dəyişikliklər əmtəəsiz və riskli əməliyyatlar aparan vergi ödəyicilərinə qarşı mübarizənin gücləndirilməsi, habelə bu cür əməliyyatların vergiyə cəlb olunması ilə bağlı kompleks tədbirləri özündə əks etdirən bir sıra müddəaları nəzərdə tutur. Qanunvericilik əmtəəsiz əməliyyatlar üzrə yaranan vergi öhdəliklərinin benefisiar (faydalanan) şəxsin üzərinə qoyulması, əmtəəsiz və riskli əməliyyatlar çərçivəsində əldə olunmuş sənədlərin gəlirdən çıxılan xərcləri təsdiq edən sənəd hesab edilməməsi, əmtəəsiz və riskli əməliyyatlar çərçivəsində aparılan əməliyyatlar üzrə ödənilmiş ƏDV-nin əvəzləşdirilməməsi ilə bağlı dəyişiklikləri özündə əks etdirir.

Məcəlləyə dəyişikliklərdə riskli vergi ödəyicilərinin meyarlarının müəyyən edilməsi ilə bağlı hüquqi bazanın yaradılması da nəzərdə tutulub. Ümumiyyətlə, riskli vergi ödəyicilərinə münasibətdə bir sıra kompleks məhdudlaşdırmalar tətbiq ediləcək.

Vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı dəyişikliklərə gəldikdə qeyd olunub ki, belə hallara qarşı vergi qanunvericiliyinin müddəaları bir qədər də sərtləşdirilib. Dəyişikliklərdə POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə onların quraşdırılmasından və nağdsız ödənişlərin qəbul olunmasından imtina hallarına görə maliyyə sanksiyalarının tətbiqi də yer alıb.

ƏDV inzibatçılığının təkmilləşdirilməsi istiqamətinə toxunan S.Musayeva qarşıdakı ildən etibarən ƏDV-nin kassa metodu əsasında hesablanmasının mütərəqqi yenilik olduğunu diqqətə çatdıraraq qeyd edib ki, dəyişikliyə qədər mövcud olan qayda ƏDV ödəyicilərinə inzibatçılığın qurulmasında çətinliyin yaranmasına və maliyyə yükü ilə üzləşməsinə səbəb olurdu. Yeni dəyişikliklər isə ƏDV ödəyiciləri tərəfindən ƏDV tutulan əməliyyatın vaxtının müəyyən olunmasında inzibatçılığı əhəmiyyətli dərəcədə yüngülləşdirməklə yanaşı, vergi ödəyicisinin maliyyə vəsaitinə qənaət etməsinə gətirib çıxaracaq.

Sosial xarakterli güzəştlərə toxunan nazirlik rəsmisi bildirib ki, onların vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması istiqaməti vətəndaşların rifah halının yaxşılaşdırılması məqsədini daşıyır. Belə ki, quş əti satışının ƏDV-dən azadolma müddətinin daha 4 il müddətinə uzadılması, habelə heyvan ətinin satışının 4 il ərzində ƏDV-dən azad edilməsi, fiziki şəxslər tərəfindən vergidən azad olunmaqla təqdim edilən yaşayış sahəsində azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olma müddətinin 3 təqvim ilinə endirilməsi, fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahələrinin təqdim edilməsi zamanı yaşayış sahəsinin 30 kvadratmetrinin istisnasız olaraq vergidən azad edilməsi belə dəyişikliklərdəndir.

Qanunvericilik sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması ilə bağlı bir sıra dəyişiklikləri də nəzərdə tutur. Bu sıraya sabit qəbz almaqla vergi ödəyən fiziki şəxslərin sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğinin azaldılması, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələrin ƏDV-dən azad edilməsi və s. daxildir.

Vergitutma bazasının genişləndirilməsini hədəf götürən əsas dəyişikliklər isə aksizli mallar və bina tikintisi ilə bağlı yenilikləri nəzərdə tutur. Bir sıra aksizli malların aksiz dərəcələrinin artırılması, digər malların aksiz dərəcələrinin isə optimallaşdırılması, habelə tündləşdirilməmiş alkoqollu içkilərin aksizli malların siyahısına əlavə edilməsi və aksizli mallar üzərində vergi nəzarətinin təkmilləşdirilməsi və s. həmin sıradadır.

***"Azərbaycan"***

"Azərbaycan"ın arxivindən

**Redaksiyadan:** *Bu məqalə qəzetimizin 1999-cu il 17 iyul tarixli nömrəsində dərc olunmuşdur. İndiki AXCP-nin sələfi Azərbaycan Xalq Cəbhəsinin yaradılmasının 10 illiyinə həsr edilmiş məqalədə adıçəkilən təşkilatın keçdiyi yola və yaxın tariximizin bir çox vacib səhifələrinə qısa nəzər salınmışdır.*

*Amma yazıda diqqətçəkən və onu qısa ixtisarla dərc edilməsinə qərar verməyimizə səbəb olan məqam bunlar deyil. Göründüyü kimi, bu gün ölkəmizin siyasi həyatında radikallığı, ictimai sabitliyi pozmağa meyilliyi və bu kimi digər neqativ xüsusiyyətləri ilə tanınan AXCP yarandığı gündən 30 ildən çox vaxt keçməsinə baxmayaraq dəyişməmişdir. Bu qısa tarixdə rəvac verdiyi faciələrdən dərs götürüb islah olmamış bu təşkilat necə doğulmuşsa, elə də qalmışdır.*

*Lakin problem bu da deyil. Məsələ bundadır ki, belə bir qara imicə malik partiya yenidən hakimiyyətə can atır və zaman-zaman bu yolda hətta qanunsuz hərəkətlərdən çəkinmir, sanki ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləridir. Daha fikirləşmir ki, nə zaman həmin zamandır, nə xalq həmin xalq, nə də Azərbaycan o Azərbaycan!*

*Hər bir təşkilatın, o cümlədən siyasi partiyanın öz missiyası olur. O, həmin missiyanı yerinə yetirdikdən sonra ya geri çəkilib yerini yenisinə verir, ya da dağılıb tarixə qovuşur. Məqalədən də göründüyü kimi, AXC(P) artıq öz missiyasını yerinə yetirmişdir. Həmin missiyanın Azərbaycana nəyə başa gəldiyini nəzərə alsaq, artıq onun ölkənin siyasi həyatından getmək vaxtı olmasına şübhə yeri qalmır.*

# Xalqın cəbhəsindən Xalq Cəbhəsinəcən...





Azərbaycan Xalq Cəbhəsinin milli azadlıq hərəkatındakı rolu nə qədər danılmazdırsa, onun M.Qorbaçov yenidənqurmasının "övlad"ı olması da bir o qədər inkaredilməzdir. 80-ci illərin sonlarında ovaxtkı ölkə başçısının "demokratiya və aşkarlıq" şüarları ilə bəzədilmiş siyasətinin dəstəkçisi kimi ilk dəfə Baltikyanı respublikalarda yaranmış xalq cəbhələri az sonra digər bölgələrə, o cümlədən Azərbaycana da ayaq açdı. Əvvəl ictimai təşkilat kimi yaranmış çoxsaylı cəbhələrin siyasiləşməsi, yəni yuxarıda qeyd etdiyimiz şüarların müdafiəçilərindən milli azadlıq hərəkatlarının daşıyıcılarına çevrilməsi prosesi isə 90-cı illərin əvvəllərinə - SSRİ adlı dövlətin dağılması ərəfəsinə təsadüf edir.

Sözümüzdən elə çıxmasın ki, xalq cəbhələri ölkədə baş verən tarixi hadisələrin arxasınca gedirdi. Belə nəticə çıxarmaq insafsızlıq olardı. Amma bu təşkilatların həmin hadisələrdə həlledici rol oynamasını iddia etmək də həqiqətləri danmağa bərabər tutula bilər. Sadəcə, xalq cəbhələri və eyni məqsədli digər ictimai-siyasi təşkilatlar kommunizm ideyaları üzərində qurulmuş nəhəng imperiyanın dağılmasına xidmət edən tarixi proseslərin icrasında, sözün yaxşı mənasında, alət olmuşdur.

Azərbaycanda Xalq Cəbhəsinin yaranma tarixi isə indiyəcən ölkəmizin başının üstünü kəsdirmiş qondarma Dağlıq Qarabağ probleminin əmələ gətirilmə zamanı ilə üst-üstə düşdüyündən bu təşkilatın siyasiləşməsi üçün elə bir uzun müddət lazım olmadı. AXC meydana Qarabağ dalğaları üstündə gəldiyindən, əslində o, demək olar, siyasi təşkilat kimi "doğulmuşdur". Bu da səbəbsiz deyildi. Çünki xalqın cəbhəsi olmaq missiyasını üzərinə götürmək istəyən təşkilat ancaq xalqı ən çox rahatsız edən və düşündürən problemlərin həllinə girişmək iddiasında olduğunu bəyan etməli idi. Başqa sözlə desək, o zaman xalqı ancaq Qarabağ problemi ətrafında birləşdirmək mümkün idi.

Bu amili gücləndirən səbəblərdən biri, bəlkə də birincisi ovaxtkı ölkə və respublika rəhbərlərinin adıçəkilən problemi həll etmək arzusunda və iqtidarında olmamaları idi. Qarabağ probleminin müəllifi M.Qorbaçovun üzdə tarazlıq, əslində isə ermənipərəst siyasəti, onun bu münaqişənin əvvəllərində respublikaya rəhbər təyin etdiyi Ə.Vəzirovun Moskvanın anti-Azərbaycan mövqeyini müdafiə etməkdən uzağa gedə bilməməsi təmsil etdikləri hakimiyyətin xalqın dəstəyindən məhrum olması ilə nəticələndi. Bu boş qalmış xalq dəstəyinə isə qısa müddətdə AXC sahib durdu.

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində ölkədə baş verən hadisələr - bir tərəfdən, xüsusən Baltikyanı, qonşu Gürcüstan və Ermənistan respublikalarında getdikcə güclənən milli dirçəliş və sonralar milli azadlıq hərəkatı, nəhayət, SSRİ-nin dağılmasının labüdlüyünün qaçılmazlığı, digər tərəfdənsə Qarabağ probleminin həll edilməməsi Azərbaycan Xalq Cəbhəsinə fəaliyyətində mübarizə məqsədlərini dəyişmək üçün real imkan və şərait yaratdı.

Elə bu dövrdən də AXC-də radikallıq meyilləri güclənməyə başladı. Reallıqlarla hesablaşmamaq, tarixi prosesləri qabaqlamaq cəhdləri çox hallarda bu təşkilatı faciələrlə müşayiət edilən sonluqlara gətirib çıxardı. Biz 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbkarı kimi Moskvanı nə qədər günahkar saysaq da, AXC-ni bu faciənin məsuliyyətindən kənarlaşdıra bilmərik. Heç olmasa ona görə ki, yaralı vəhşi heyvan kimi ölməkdə olan imperiyanın daha təhlükəli olduğunu AXC rəhbərləri bilməli idi. Kim fikirləşirsə ki, Almatı, Tbilisi, Bakı, Vilnüs faciələri olmasaydı, SSRİ adlı dövlətin mövcudluğuna son qoyan 1991-ci ilin Blaqoveşensk sazişi imzalanmayacaqdı, yanılır. Çünki bu gün hamıya aydındır ki, qarşısına sovet imperiyasını dağıtmaq məqsədini qoyanlar tamam başqaları idi və onlar tarixi zəruriyyətin yaratdığı fürsətdən bacarıqla istifadə etdilər.

Beləliklə, təxminən xalqımız XX əsrdə ikinci dəfə neçə-neçə nəslin ürəyində gəzdirdiyi müstəqilliyə qovuşdu. Bu müstəqilliyi öz mübarizəsinin nəticəsi kimi xalqa təqdim etmək istəyən AXC isə qarşısına başqa məqsəd qoydu. Bununla da hakimiyyətə gəlməkdən ibarət olan məqsədinə çatmaq üçün mübarizəsinin üçüncü mərhələsinə başladı.

1991-ci ilin sonlarından 1992-ci ilin martınadək olan zamanı əhatə edən bu dövr cəbhəçilərin hakimiyyətə yiyələnməsi üçün şəraitin və imkanın münbitliyinə görə əvvəlki üç ildən fərqlənirdi. Əvvəla, Qarabağ problemi hələ də həll edilməmiş qalırdı və AXC xalqda belə bir fikir formalaşdırmağa nail olmuşdu ki, münaqişəni ancaq onlar yoluna qoya bilərlər. İkincisi, dövlətin baş kreslosunda qətiyyətsiz, iradəsiz, bütün hallarda Moskvanın təsirindən çıxa bilməyən və bu səbəbdən xalqın gözündən düşmüş A.Mütəllibov oturmuşdu. Sonrası da, ölkənin ali qanunverici orqanında əsasən AXC üzvlərindən ibarət "Demblok" formalaşmışdı ki, o da cəbhəçilərin hakimiyyət uğrunda mübarizəsində mühüm vasitə rolunu oynayırdı.

Hadisələrin sonrakı gedişi sübut etdi ki, sən demə, AXC sadaladığımız bu üç amilin hamısından ancaq öz məqsədlərinin xeyrinə istifadə etmək qabiliyyətində imiş. Belə deyirik ona görə ki, AXC həmin illər reallıqları inkar yolunu tutduğundan hakimiyyətin konkret zaman üçün düzgün hesab edilə bilən bütün addımlarını boykot taktikasını seçmişdi. Məsələn, o dövrdə Şuşada, Hadrutda, Xanlarda ermənilərin yaşadıqları kəndlərin boşaldılmasına cəbhəçilərin qəribə reaksiya verməleri heç kəsin xatirindən çıxmayıb. Yaxud mərhum təcrübəli general Valeh Bərşadlının yenicə yaradılmış Müdafiə Nazirliyinə rəhbər təyin edilməsinə AXC-nin münasibətini yada salaq. Nəticəsi nə oldu? Azərbaycan beynəlxalq aləmdə erməniləri deportasiya edən dövlət kimi tanındı və Müdafiə Nazirliyimiz peşəkar generalsız qaldı.

Bu və digər oxşar faktlar AXC-nin bioqrafiyasında çoxdur. Və bütün bunlar belə bir qənaətə gəlməyə imkan verir ki, AXC həmin dövrdə hakimiyyətə gedən yolunda hətta özünə amal hesab etdiklərini də qurban verməkdən çəkinməmişdir.

Elə buradaca bir neçə cümlə AXC üzvlərinin sosial tərkibi haqqında. Çünki hələ 90-cı illərin əvvəllərində, Ə.Elçibəyin özünün də etiraf etdiyi kimi, AXC təşkilati cəhətdən elə bir ciddi və mütəşəkkil qurum olmadığı üçün onun ayrı-ayrı məqamlarda tutduğu mövqe və göstərdiyi fəaliyyət üzvlərinin şəxsi marağından asılı olmuşdur. Heç kəsə sirr deyil ki, AXC-yə yüksək amal və təmiz hisslərlə qoşulanlarla bərabər, ondan gələcəkdə şəxsi məqsədləri üçün istifadə etmək arzusunda olanlar da üz tuturdular. Belələri adətən cəmiyyətdə müəyyən səbəblər üzündən öz yerini tapa bilməyən, həyatından və güzəranından narazı olanlar idi. Sonradan onlar AXC-nin qaragüruhuna və vuran əlinə çevrildilər. Təşkilatın üzvləri arasında belələrinin üstünlük təşkil etmələrinin bir səbəbi ovaxtkı respublika rəhbərliyinin AXC-yə qoşulan və rəğbət edən vətənpərvər ziyalılara qısqanclıqla yanaşması və fürsət düşdükdə onları sıxışdırması idisə, digər səbəbi bu qurumun özünün həmin şəxslərə bolşevik münasibəti olmuşdur. AXC-nin tutduğu kursa və daxilində baş verən hadisələrə etiraz olaraq təşkilatın sıralarını tərk edənləri də bunun üstünə gəlsək, onda hakimiyyətə əsasən kimlərin can atması aydınlaşar. Elə AXC liderlərinin sonradan "Biz hakimiyyətə gəlməyə hazır deyildik, şərait məcbur etdi" demələri də, sözsüz ki, həmin reallığın nəticəsindən doğan etiraf idi.

Əslində cəbhəçiləri "hakimiyyətə hazırlıqsız gəlməyə məcbur edən şərait"i onlar özləri yaratmışdı. 1992-ci ilin fevralında baş vermiş Xocalı faciəsi AXC-yə hakimiyyəti devirməkdən ötrü sanki göydəndüşmə oldu. Xalqın dəstəyindən, həmçinin məlum vertolyot qəzası zamanı komandasından məhrum olmuş A.Mütəllibovu qanunsuz yolla devirmək üçün bundan "əlverişli məqam" tapmaq mümkün deyildi. O üzdən AXC öz təsir mexanizmini işə saldı. Xocalı faciəsinin səbəblərini müzakirə etmək üçün 1992-ci il martın əvvəllərində toplaşan Ali Sovetin sessiyası içəridən "Demblok"un, çöldən isə "xalq" adlı bir dəstə cəbhəçinin mühasirəsinə düşdü. Tələb bir idi - A.Mütəllibov istefa verməlidir! Bu hakimiyyət oyununda ilk gedişdə Ali Sovetin ovaxtkı sədri E.Qafarova qurban verilsə də, A.Mütəllibov məğlubiyyətdən yaxa qurtara bilmədi. Hətta həmin günlər ölkəmizin ərazisində yerləşmiş Rusiya qoşunlarının köməyi ilə Əsgəranın erməni silahlı birləşmələrindən azad edilməsi də AXC-ni "istefa" tələbindən döndərə bilmədi və A.Mütəllibov hakimiyyəti tərk etməli oldu. Beləliklə, AXC müstəqil Azərbaycanda zorla hakimiyyət dəyişməsi, daha kəskin desək, dövlət çevrilişi ənənəsini qoydu.

Bu zorən istefadan sonra hakimiyyətə de-yure Ali Sovetə sədr seçilmiş Y.Məmmədov gəlsə də, ölkəyə de-fakto AXC sahiblik etməyə başladı. Müdafiə və Daxili İşlər nazirliklərinə, həmçinin bir sıra başqa mühüm postlara öz adamlarını təyin etdirən cəbhəçilər hakimiyyətə tam yiyələnmək üçün fürsət axtarmağa başladılar. Onlar xalqın siyasi passivliyini, psixologiyasını və nəhayət, ölkədəki seçki ənənələrini nəzərə alaraq, hətta həmin ilin iyununa təyin edilmiş prezident seçkisini də qeyri-müəyyən vaxtacan təxirə salmaq təklifini irəli sürdülər. Çünki vaxt AXC-nin xeyrinə işləyirdi.

Amma eks-prezidentin tərəfdarları da boş durmurdular. Onlar necə olursa-olsun, A.Mütəllibovu yenidən ölkənin baş kreslosunda oturtmaq istəyirdilər. Hacı Əbdülün mayın əvvəllərində Ali Sovetin qarşısında təşkil etdiyi piket mart ənənəsini davam etdirərək mayın 14-də eks-prezidentin hakimiyyətə qayıdışı ilə nəticələndi.

Sözsüz ki, AXC bu qayıdışa dözə bilməzdi, xüsusən də A.Mütəllibovun parlamentin onu hakimiyyətə qaytarmış 14 may tarixli sessiyasında indidən belə müxalifətə qarşı qətiyyətli olacağı barədə kəskin çıxışından sonra.

Həmin günlərsə Qarabağ cəbhəsində bağışlanılmaz məğlubiyyətlərimiz baş verirdi. Ermənilər Şuşanı işğal etmiş, Laçının taleyi isə tükdən asılı vəziyyətə düşmüşdü. Amma bu faciələrin heç biri Bakıda siyasi hakimiyyət uğrunda mübarizəni səngidə bilmədi. Nəticədə qəzəblənmiş AXC mayın 15-də Ali Sovetə silahlı yürüş edərək A.Mütəllibovun bir günlük prezidentliyinə son qoydu. İki dəfə eks-prezidentlik həyatını yaşayan A.Mütəllibov fəaliyyəti boyu arxalandığı Moskvaya üz tutdu.

AXC idarə heyətinin üzvü İ.Qəmbərin Ali Sovetin 1992-ci il mayın 18-də keçirilmiş iclasında parlamentə sədr seçilməsi və Konstitusiyaya görə prezidentin səlahiyyətlərini yerinə yetirməyə başlaması ilə cəbhəçilərin hakimiyyət dövrü start götürdü. Həmin il iyunun 7-də AXC sədri Ə.Elçibəyin prezident seçilməsi isə bu təşkilatın hakimiyyət yürüşünün finişi oldu.

Bütün hallara baxmayaraq, xalqın onun adını daşıyan AXC-dən gözləntiləri çox idi. Və etiraf etmək lazımdır ki, ilk aylar bu ümidin doğrulması üçün müəyyən işlər də görüldü. Qarabağ cəbhəsindəki müvəqqəti uğurlar, Rusiyanın hərbi bazalarının ölkəmizin ərazisindən çıxarılması, təhsil sahəsindəki islahatlar, milli valyutanın dövriyyəyə buraxılması cəbhəçilərin indiyəcən öyündüyü faktlardır.

Amma vaxt keçdikcə AXC-nin "hakimiyyətə hazırlıqsız gəlməsi"nin nəticələri özünü göstərirdi. ABŞ Konqresinin "Azadlığı dəstəkləmə aktı"na indiyəcən ləğv olunmamış düzəlişi ilə nəticələnən uğursuz xarici siyasət, Kəlbəcərin işğalı daxil Qarabağ döyüşlərindəki məğlubiyyət, siyasi mənsubiyyət prinsipi ilə aparılan kadr dəyişiklikləri, iqtisadi tənəzzül, inflyasiya və nəhayət, ölkədəki qeyri-sabit ictimai-siyasi vəziyyət bu hakimiyyətin uzun müddət duruş gətirməyəcəyindən xəbər verirdi.

Elə də oldu. "Biz hakimiyyətə silahla gəlmişik, bizi silahla da devirə bilərlər" demiş AXC sədrinin proqnozu özünü doğrultdu. 1993-cü ilin iyununda Gəncədə S.Hüseynovun başçılığı ilə baş qaldıran qiyam birillik AXC iqtidarına son qoydu. İndi o vaxt hakimiyyətdə olmuşların çoxu iddia edir ki, həmin qiyamı yatırmaq olardı. Hətta özlərinə bəraət qazandırmaq üçün məğlubiyyətlərinin səbəbini və günahı bir-birlərinin üzərinə atanlar da tapılır. Ancaq onlar yaddan çıxarırlar ki, AXC-nin hakimiyyətdən getməsinə səbəb azsaylı silahlı dəstənin qaldırdığı qiyam yox, təmsil etdikləri iqtidarın fəaliyyəti nəticəsində xalqın dəstəyindən məhrum olmaları idi. Bu amilin AXC-dən əvvəlki hakimiyyətlərin devrilməsində də əsas səbəb olduğunu gərək cəbhəçilər unutmayaydılar.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***



SUMQAYIT TƏXRİBATI
- erməni millətçilərinin çirkin əməli



# Sumqayıtda baş vermiş hadisələr ermənilərin törətdiyi terror aktı idi

*Ötən əsrin 80-ci illərində erməni təbliğat maşını Qorbaçovun hakimiyyətə gəlişi ilə daha açıq şəkildə fəaliyyət göstərməyə başladı. Ermənistanın rəhbərləri xaricdə yaşayan lobbi üzvləri ilə vaxtaşırı görüşlər keçirir, Dağlıq Qarabağ məsələsini kiçik müzakirə masasından böyük hərəkət mexanizminə çevirirdilər. Sovet dövlət orqanlarında çalışan erməniپərəst çevrələr qığılcım rolunu oynayacaq şəhərin yerini müəyyənləşdirməkdə çətinlik çəkmədilər. Təxribatın başlanğıcı üçün Sumqayıtı seçdilər.*

*Sonradan baş verən hadisələrlə bağlı çox fikirlər irəli sürülmüş, mülahizələr yürüdülmüş, lakin heç bir qüvvə həqiqəti üstələməmişdi. Həmin hadisələrin ermənilərin özləri tərəfindən törədilməsi faktı Çin səddi kimi bütün prizmalardan özünü gizlədə bilməmişdi.*

*Respublikanın Əməkdar jurnalisti Eyruz Məmmədov 30 ildir ki, 1988-ci ilin fevral ayında Sumqayıtda baş vermiş hadisələrin tədqiqi ilə məşğul olur. Onun ssenarisi əsasında bir neçə sənədli film çəkilib, kitabları türk, rus, ingilis, alman, ispan dillərinə tərcümə olunaraq dünya ictimaiyyətinə çatdırılıb. Araşdırmaçı jurnalist 1988-1993-cü illərdə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt şöbəsinin sədri vəzifəsində çalışmış, hazırda təqaüddə olan və Ukraynada yaşayan polkovnik Vladimir Lebedevdən müsahibə almışdır. V.Lebedev Sumqayıt hadisələri ilə bağlı bir çox məqamlara aydınlıq gətirmiş, dövrün qaranlıq səhifələrini həqiqət prizmasından keçirərək ermənilərin törətdiyi süni "genosid" planlarının üstünün açılmasında yardımçı olmuşdur. Həmin müsahibəni təqdim edirik:*

---

*- Vladimir Nazaroviç, bilirik ki, SSRİ-nin vaxtında DTK dövlətin içində dövlət sayılırdı. Bu xüsusi xidmət orqanlarında minlərlə, bəlkə də on minlərlə çekist çalışırdı. 1988-ci ilin fevral ayında Sumqayıtda baş vermiş məlum hadisələrdən sonra necə oldu ki, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt şöbəsinə rəhbərlik etməyə məhz sizi göndərdilər?*

- Bunun öz səbəbi vardır. Mən əslən Ukraynanın Luqansk şəhərindənəm. Təhlükəsizlik komitəsinin əməkdaşı kimi sənaye müəssisələrinin təhlükəsizliyi ilə məşğul idim. İllər keçdikcə hökumətə, kommunist partiyasına qarşı etiraz dalğaları başlandı. Milli zəmində münaqişələr yaranırdı. Məni altı aylıq əks-kəşfiyyat kursunda oxumağa göndərdilər. Məqsəd sənaye müəssisələrində və təşkilatlarında milli zəmində münaqişələrin aradan qaldırılması istiqamətində ardıcıl iş aparmaq idi.

*- Milli münaqişə yaşadığınız və çalışdığınız Ukraynada da mövcud idi?*

- Qorbaçov 1985-ci ildə hakimiyyətə gələndən sonra onun apardığı səriştəsiz siyasət SSRİ kimi böyük bir dövlətin bünövrəsini sarsıtmağa başladı. Bu da təhlükəsizlik orqanlarını narahat etməyə bilməzdi. Mən Ukraynada yaşayır və işləyirdim. Respublikada nəhəng müəssisə və zavodlarda minlərlə, mən deyərdim, hətta on minlərlə fəhlə çalışırdı. Həmin müəssisə, zavod və kömür şaxtalarında müxtəlif millətlərin nümayəndələri çalışdığından aralarında milli zəmində münaqişələr yaradılır, sabotajla məşğul olur, hətta qəsdən əmək məhsuldarlığını aşağı salırdılar ki, fəhlələr arasında narazılıq baş qaldırsın. Hələ Qorbaçovun "yenidənqurma" siyasətindən xeyli əvvəl SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Y.Andropovun göstərişi ilə yerlərdə iqtisadiyyata zərbə vuranlarla, sabotajla məşğul olanlarla iş aparmaq bizim əsas tapşırığımız idi. Kommunist ideologiyasına sadiq olan çekistlər yaxşı bilirdilər ki, hər hansı informasiyanın düzgün yayılmaması ictimaiyyətdə hansı rezonans doğura bilər. Ona görə də baş verən hadisələr məxfi saxlanılırdı. Məsələn, Ukraynada kömür şaxtalarının birində qəza nəticəsində 80 nəfər adam həlak olmuşdu. Bundan heç kimin xəbəri olmadı. İnformasiyanı blokadaya alır, fəhlələrin mitinq cəhdlərinə imkan verilmirdi. Bununla belə, xarici radiostansiyalar bar-bar bağırır, informasiyanın həqiqət olduğunu, bir az da öz siyasətlərinə uyğun şişirdərək sovet ictimaiyyətinə çatdırmağa çalışırdılar.

*- Deyirsiniz ki, insanlar həlak olur, dezinformasiyalar yayılırdı. Bunun qabağını almaq üçün hansı tədbirlər görülürdü?*

- Bizim qrup sənaye müəssisələrində milli zəmində baş verən münaqişələrlə məşğul olurdu. Belə ki, münaqişələr, iğtişaşlar getdikcə artırdı. Bəzilərini aradan qaldıra bilirdik. Onlara qarşı adekvat tədbirlər görülürdü. Həmin illər mən elmi iş üzərində də çalışırdım. Mövzum "millətlər arasında konfliktlərin yaranması və onların daxili proseslərə təsiri" idi.

*- Bunu necə başa düşək?*

- İzahını verim. Məsələn, zavodların birində bir millətdən olan nümayəndələr çox olanda, çoxluqla azlıq arasında münaqişə yaranırdı, qalmaqal düşürdü, bu, dövlət planına da təsir edirdi. Qorbaçovun hakimiyyəti illərində milli zəmində Almatıda, Sumqayıtda, Fərqanədə, Vilnüsdə, Tiflisdə, Oşda, Təşkəndə qan töküldü. Bu, SSRİ DTK-nı ciddi narahat etməyə başladı. Məni Ukraynadan təcili olaraq Moskvaya çağırdılar. Orada mənə Qafqazda etno-psixoloji vəziyyətin yaranması, Azərbaycanla Ermənistan arasında münaqişənin tarixi, Dağlıq Qarabağ problemi haqqında materiallar verildi. Bir neçə gün onları oxumalı oldum. Bəzi məsələləri özüm üçün aydınlaşdırdım. Sonra SSRİ DTK-nın sədri Çebrikovla görüşdüm. O, milli məsələlərdə səriştəm olduğumu bildirib, bəzi məsləhətlər verdikdən sonra məni Sumqayıta göndərdi. Niyə məhz məni, deyə soruşursunuz. Moskva fikirləşdi ki, Sumqayıtda rus millətindən olan kadrın yerləşdirilməsi düzgün olmazdı. Belə ki, Sumqayıtda rus diasporu böyük idi. Həmin günlər ruslar qorxu altında yaşayırdılar. Hadisələrə birtərəfli yanaşmamaq və rusları müdafiə etməmək məqsədilə başqa bir millətin nümayəndəsinin göndərilməsi daha məqsədəuyğun sayılırdı. Bax belə, mən Sumqayıta gəldim.

*- Siz deyirsiniz ki, Ukraynanın müəssisə və şaxtalarında milli zəmində münaqişələr yaranırdı, eləmi?*

- Bəli.

*- Ola bilərmi ki, bu işdə xarici kəşfiyyat orqanlarının əli olsun?*

- Şübhəsiz. SSRİ-nin dağılması üçün gecə-gündüz çalışan xarici dövlətlər ilk növbədə millətləri üz-üzə qoymaq istəyirdilər. Etiraf etmək lazımdır ki, onlar buna nail oldular. Xarici kəşfiyyat orqanları sovetlərdə çalışan bəzi rəhbər qüvvələri satın alaraq, mövcud rejimə qarşı barışmaz olduqlarını tövsiyə edirdilər. Bunun üçün çoxlu vəsait ayrılırdı. Onu da deyim ki, ayrılan məbləğ heç də az deyildi. Milyonlar yox, milyardlarla ölçülürdü.

*- Moskvada DTK-da olanda, yəqin ki, sizə konkret tapşırıqlar verilmişdi. Sirr deyilsə, həmin tapşırıqlar nədən ibarət idi?*

- SSRİ Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini Bobkov məni yanına dəvət edərək belə bir məsləhət verdi ki, Azərbaycan elitası ilə ünsiyyətə girim, yaxından tanış olum, onların millətçilik əhvali-ruhiyyəsinin mənbəyini öyrənim. Etiraf edim ki, Azərbaycan ziyalıları arasında, istisna hallarını çıxmaq şərti ilə, millətçi ruhunda olan ziyalılara az rast gəlmək olardı. Onlar öz vətənlərini, millətini sevən, dostluğa sadiq və etibarlı idilər. Ermənistanda isə bunun əksi idi. Ziyalılar arasında millətçi əhvali-ruhiyyəsində olanlar daha çox idi. Hətta belə millətçilərə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsində də rast gəlmək olardı. Radikal qüvvələrə, Dağlıq Qarabağda fəaliyyət göstərən millətçilərə, daşnaklara bütün təlimatlar məhz bir mərkəzdən gəlirdi: Amerikada və Fransada yaşayan erməni lobbisindən.

Təxribatçılıq onların ana siyasətini təşkil edirdi. Fikir verin, Moskvada erməni terrorçuları, millətçiləri metronu partlatdılar. Bunu bütün SSRİ bilirdi. Lakin cinayətkarları ifşa edib, ictimaiyyətə çatdırmaq qəti qadağan olunmuşdu. Terrorçuların biri Yerevanda nəşr olunan "Pravda Armenii" qəzetinin baş redaktorunun oğlu idi. Kremldə, kəşfiyyat orqanlarında erməni millətindən olan vəzifəli şəxslər çox idi. Onlar da bunu necə və nə cür təsir etməyi yaxşı bacarırdılar.

*- Yəni SSRİ dövləti, DTK bu qədər aciz idi?*

- Bilirsiniz, Qorbaçov Mərkəzi Komitənin baş katibi seçiləndən sonra hakimiyyət strukturlarında ermənilərin mövqeyi möhkəmlənmişdi. Həm də dövlət artıq korrupsiyaya qurşanmışdı. Erməni oliqarxları və xaricdə yaşayan erməni lobbisi bu işə xitam vermək üçün külli miqdarda vəsait ayırmışdılar.

*- Belə çıxır ki, rüşvət verilirdi?*

- Bəli.

*- Kimə?*

- Əlbəttə ki, Kremldə əyləşənlərə, Siyasi Büronun bəzi üzvlərinə, hüquq mühafizə orqanlarının rəhbərlərinə.

*- Siz Azərbaycan elitası haqqında danışdınız...*

- Bəli. Bir neçə akademiklə, o cümlədən Ziya Bünyadovla görüşdüm. Onların məsləhəti ilə, həm də bu haqda mənə Bobkov da demişdi. Mən Bakıda müsavatçıların hakimiyyətdə olduqları illəri öyrənməyə başladım, arxiv materiallarını araşdırdım, müxtəlif mənbələrə istinad edərək belə qənaətə gəldim ki, həmin dövrdə müsavatçılar başqa millətlərə qarşı qərəzli mövqedə olmamışlar. Ermənistanda isə belə deyildi. Onlar özlərini millətlər arasında ən yüksək irq hesab edir, 3 min illik "tarix"lərini insanların beyinlərinə doldurmağa çalışırdılar. Bu işdə erməni qriqoryan kilsəsinin də böyük əməyi olmuşdur. Onlar dini siyasəti ikinci plana çəkərək, milli mənsubiyyətlərinin qədim olduğunun, böyük Ermənistan dövlətinin mövcudluğunun təbliğatı ilə daha çox məşğul idilər. Onların dini kitablarının birində yazılmışdı: "Erməni xalqı dünyanın ən yüksək irqinə mənsubdur". Bu nə deməkdir? Bu, əsl faşist ideologiyası idi. Türkləri isə özlərinə düşmən sayırdılar. Ermənilərə dəstək verən isə həmişə Moskva olmuşdur. Hətta çar imperiyası ayrı-ayrı zaman kəsiyində erməniləri Qafqaza, ələlxüsus Azərbaycana ona görə köçürmüşdü ki, burada özlərinə forpost yaratsın, bununla da vaxt gələndə, dünya siyasəti, ilk növbədə, Rusiya çıxılmaz vəziyyətə düşəndə ermənilərin əli ilə Azərbaycana təzyiq göstərmək və bu işə türkləri cəlb etmək və onları zəifləmək mümkün olsun.

### Xaricdə yaşayan erməni oliqarxları 1980-ci illərin əvvəllərində Ermənistanın rəhbərliyindən tələb edirdilər ki, Dağlıq Qarabağ məsələsini qaldırsın, gələcəkdə milli sərvətləri ələ keçirib oraya sərmayələr yatırsınlar

*- Xaricdə yaşayan erməni lobbisinin Dağlıq Qarabağla bağlı mövqeyinin əsas məqsədi torpağa sahib olmaq idi, yoxsa başqa məqsədlər də güdülürdü?*

- Bu haqda az da olsa danışmaq istərdim. Dağlıq Qarabağ problemi sovetlərin vaxtında bir neçə dəfə gündəmə gətirilmişdi. Lakin bu mümkün olmamışdı. Xaricdə yaşayan erməni icması Qorbaçov hakimiyyətə gələndən sonra Dağlıq Qarabağ məsələsini yenidən qaldırdı. Amerikada, Fransada bildiyiniz kimi ermənilər çoxluq təşkil edir. Onların arasında milyonerlərlə yanaşı milyarderlər də vardı. Onlar Ermənistan rəhbərliyindən, millətçi qüvvələrdən tələb edirdilər ki, Dağlıq Qarabağ məsələsini qaldırsınlar. Bu işdə onlara hər cür kömək edilirdi. Xaricdə təbliğat mexanizmi inkişafda idi. Müxtəlif kitablar, qəzet və jurnallar nəşr olunaraq, dünya ictimaiyyəti arasında erməni milləti haqqında mif yaradırdılar. Bu, ildən-ilə geniş vüsət alırdı. 100 il ərzində xaricdə yaşayan millətçi qüvvələr Ermənistanda yaşayan əhalinin beynini özlərinin mənfur və zərərli təbliğatları ilə doldurmuşdular. Erməni xalqı da bütün bu cəfəng təbliğata inanmağa başlamışdı və özlərini ən yüksək irqə malik olduqlarını başqalarına sübut etmək istəyirdilər. Sual oluna bilər, erməni milləti bu cəfəngiyyata necə inana bilərdi? Tarixdən məlumdur ki, əgər hər hansı millətin intellektual səviyyəsi çox aşağıdırsa, deməli, onlara aşılanan uydurmalara tez inanırlar. Ermənilərin düşüncə tərzi, əqidəsi məhz bu müstəvi üzərində qurulmağa başlamışdı. Onları artıq heç nə düşündürmür, özlərini başqa millətlərdən üstün tutduqlarından apardıqları milli ideologiya faşist ideologiyasından əskik deyil, bəlkə də artıqdır.

Amerikanın Nyu York şəhərində, Kaliforniya ştatında çoxlu erməni oliqarxları, neft maqnatları, senatın, Konqresin üzvü olan imkanlı adamlar çoxdur. Onlar xarici dövlətlərin xüsusi xidmət orqanlarının vasitəsilə SSRİ-ni dağıtmaq üçün sovetlər birliyində incə bir yer axtarırdılar və nəhayət, Ermənistanın üstündə dayandılar. Çünki bu dövlət terrorçu, millətçi kimi tanındığından və 100 il ərzində dünyada bir neçə terror aktlarını həyata keçirdiyindən ondan istifadə etmək qərara alınmışdı. Burada iki məqsəd güdülürdü. Birincisi, SSRİ-ni dağıtmaqla Qorbaçova kömək etmək, ikincisi isə Dağlıq Qarabağı Azərbaycanın tərkibindən alıb Ermənistanın tərkibinə vermək idi. Amerikada, Fransada yaşayan erməni milyonerləri Dağlıq Qarabağı əldə etməklə burada yurd salmaq niyyətində deyildilər. Onları daha başqa məsələlər düşündürürdü. Erməni oliqarxları Qarabağı özlərinin biznes mərkəzinə çevirmək və öz kapitallarını artırmaq istəyirdilər. Bunun üçün xaricdən SSRİ-nin dövlət səviyyəsində olan antisovet siyasətinə dəstək verənlərə, məmurlara, millətçi ziyalılara, Ermənistan rəhbərliyinə, Dağlıq Qarabağın separatçı qüvvələrinə külli miqdarda vəsait ayırmışdılar. Siz inanmazsınız, onların ayırdığı vəsait Sovetlər birliyində olan hər hansı bir respublikanın illik büdcəsindən çox idi.

Erməni milyonerlərini Dağlıq Qarabağın sərvətləri düşündürürdü. Bilirsiniz ki, həmin ərazidə qızıl, filiz, membran, civə, latun, mineral sular var. Kokain yetişdirmək üçün münbit torpaqlar mövcuddur (artıq 15 ildən yuxarıdır ki, Qarabağda kokain yetişdirilir - müəllif). Belə zəngin torpağa malik olan diyarı Azərbaycanın tərkibində saxlamaq və bununla barışmaq erməni lobbisini heç cürə razı sala bilməzdi. Onlar bura qoyduqları və qoyacaqları sərmayələri, əgər Qarabağ alınsa, Amerika və Fransanın erməni milyonerləri böyük, yaxın gələcəkdə isə daha böyük gəlir götürmək fikrində idilər. Halhazırda kütləvi informasiya vasitələrində yazılır ki, Dağlıq Qarabağda ermənilər artıq böyük layihələr gerçəkləşdirirlər.

***HAŞİYƏ:*** Ukraynanın məşhur telejurnalisti Dmitri Qordon bir gün öz "Qordonun qonağı" verilişinə dəvət etdiyi 1970-ci illərdə Odessa şəhərində yaşayan və sonralar Amerikaya pənah aparan müğənni Villi Tokarevin müsahibəsinə diqqətlə qulaq asdım. Jurnalist ona belə bir sual verdi ki, "bilirəm, sizin Amerikada çoxlu milyoner dostunuz var. Bəs milyarder dostunuz varmı?" Tokarev belə cavab verdi: "İki milyarder dostum var. Onlardan biri Levon Ayrapetyandır. O, məni bir dəfə Stepanakertə apardı. Levon orada böyük bir mehmanxana tikdirmişdi. Bir çox xarici dövlətlərdə olmuşam, bahalı mehmanxanalarda qalmışam, ancaq belə möhtəşəm mehmanxana görməmişdim. Dostum orada əlavə olaraq açıq havada 20 minlik yay konsert salonu tikdirmişdi. Mən orada konsert verdim".

### "Ocaq" kitabını yazmaq üçün Zori Balayanı Amerikaya dəvət etmişdilər

*- Vladimir Nazaroviç, biz hələ Sumqayıt hadisələrinə gəlib çatmadıq. Bəlkə...*

- Tələsməyin. Öz fikirlərimi aydın və ardıcıl şəkildə ifadə etmək istəyirəm. Zori Balayanı Azərbaycanda, yəqin ki, tanımayan yoxdur. Sovetlərin vaxtında o, "Literaturnaya qazeta"nın Ermənistan üzrə xüsusi müxbiri işləyirdi. Az-çox yazıçılıqla da məşğul idi. Qatı millətçi, şovinist, türklərə, azərilərə nifrət bəsləyən, faşist ideologiyasına qulluq edən yaramazın biridir. Onun "Ocaq" kitabı özünün təşəbbüsü ilə yazılmayıb. 1980-ci illərin əvvəllərində xarici kəşfiyyat orqanları, bu, həmin orqanlardır ki, orada çoxlu erməni millətindən olan nümayəndələr çalışır, onlar sovetlər birliyində, öncə olaraq Ermənistanda, qatı miillətçiliyi və şovinistliyi ilə tanınan qələm sahibləri üzərində araşdırmalar aparandan sonra Balayanın üstündə dayandılar. Onu Amerikaya dəvət etdilər, Mərkəzi Kəşfiyyat İdarəsində çalışan ermənilərlə görüşlər aparıldı. "Ocaq" kitabının əsas konturlarını cızıb Balayanın qarşısına qoydular və ona xeyir-dua verdilər. Kitab hazır olandan sonra ora əlavələr edildi və Amerikada rus dilində çap olundu. Bundan sonra Balayan tez-tez xaricdə erməni lobbisinin qonağı olurdu. Bu kitab fasilələrlə 4 dəfə çap olunub bütün dünya ictimaiyyətinə çatdırıldı. Dağlıq Qarabağ məsələsi qalxanda Zori Balayana istinad edirdilər. Əfsuslar olsun ki, həmin dövrdə Azərbaycan dövləti, onun rəhbərliyi millətçi ruhunda yazılmış bu kitaba layiqli cavab verə bilmədi. Çox təəssüf... Kitab isə alova büründü, Dağlıq Qarabağ de-yure Azərbaycanın olsa da, de-fakto ermənilərə keçdi. Torpaqlarınızın 20 faizi işğal olundu. Milli sərvətlər dağılır, daşınır, satılırdı. Amerikada yaşayan erməni milyonerlərinin 1980-ci illərin əvvəllərində qaldırdıqları problem onların xeyrinə həll olunmağa başlandı. Artıq onlar Dağlıq Qarabağı həqiqətən böyük biznes mərkəzinə çevirmişlər. Onlar 25 il ərzində Dağlıq Qarabağdan milyardlarla gəlir götürmüşlər, desəm, yanılmaram.

*- İndi isə Sumqayıt hadisələrinə keçək. Nə üçün qüdrətli DTK, o cümlədən sovet ordusu Sumqayıtda iğtişaşların qarşısını ala bilmədi?*

- Burada xaricdə yaşayan erməni lobbisi, Ermənistanın xüsusi xidmət orqanları və daşnak partiyasının millətçi üzvləri məharətlə işlədilər. Mikrorayonda kameralar quraşdırıldı, fotoçəkilişlər aparıldı. Sonra sənədli film çəkib dünya ictimaiyyətinə çatdırdılar. Həmin film hadisələrdən sonra Fransada nümayiş etdirildi. Onu da deyim ki, bu, montaj olunmuş, təxribat xarakterli film idi. Buna inanmaq düzgün deyil. Onu da deyim ki, kameraların harada və necə qurulması inandırıcı deyil. Biz bunun üzərində işləmişdik. Bu, çətin məsələdir. Həmin dövrdə gizlin və gözə çox da çarpmayan kameralar ancaq DTK-da vardı.

*- Siz əvvəldə dediniz ki, Amerikada, Fransada yaşayan erməni milyonerləri Dağlıq Qarabağ məsələsini qabartmaq üçün SSRİ-nin hər hansı respublikasının illik büdcəsindən də çox pul ayırmışdılar. Həm də onu vurğuladınız ki, Mərkəzi Kəşfiyyat İdarəsində çoxlu erməni çalışır. Məgər onlar üçün kamera almaq və haradasa quraşdırmaq prolem idi? Nədən inandırıcı görünmür...*

- Hər şey mümkündür. Onu deyim ki, Moskvadan və Bakıdan olan DTK əməkdaşları Sumqayıtda ancaq çəkilişlərlə məşğul idilər. Bu, danılmaz faktdır.

***HAŞİYƏ:*** Hüquq mühafizə orqanlarının arxiv materillarına istinad edərək 1988-ci ilin fevral ayında Sumqayıtda baş verən hadisələrdə erməni ekstremistlərinin bir neçəsinin adını və soyadını oxucuların nəzərinə çatdırmaq istəyirəm.

1.Levon Saturyan, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin təklükəsizlik komitəsinin əməkdaşı. Milli zəmində anti-Azərbaycan təbliğatı ilə məşğul olur, millətçi qüvvələri lazım olan informasiyalarla təmin edirdi.

2.Eduard Mosesov, Yerevanda nəşr olunan "Kommunist" qəzetinin müxbiri. Sumqayıtda video və foto çəkilişlərlə məşğul olurdu.

3.Q.Ağacanyan, Yerevanda nəşr olunan "Kommunist" qəzetinin müxbiri, Sumqayıtda video və foto çəkilişlərlə məşğul olurdu.

4.Albert Qriqoryan, (Eduard Qriqoryanın qardaşı) gənclərə narkotik paylayırdı.

Siyahı ilə kifayətlənib başqa faktlara keçmək istəyirəm. 1991-ci ilin yanvar ayında SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sabiq əməkdaşı A.Kiçixin Moskvada nəşr olunan "Stolitsa" jurnalında yazırdı: "Biz Sumqayıt, Uzen və Oşda qanlı hadisələrin baş verəcəyi haqqında məlumatlı idik. Bu haqda SSRİ Dövlət Təhlükəsizlik Komitəsinə məlumat verdik. Onlar da Mərkəzi Komitəni xəbərdar etdilər. Bizim bütün yazılı və şifahi məlumatlarımız Mərkəzi Komitənin divarları arasında sükutla qarşılanırdı. Partiya rəhbərliyi separatçıların və cinayətkar dəstələrin qarşısını almaqda heç nə etmədi".

A.Məmmədov, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsi Sumqayıt şəhər şöbəsi rəhbərinin sabiq müavini: "Sumqayıt hadisələrinin ssenarisi əvvəlcədən tutulmuşdu. SSRİ Dövlət Təhlükəsizlik Komitəsindən polkovnik Paponinin rəhbərliyi altında 30 nəfərdən ibarət bir heyət Sumqayıta gəldi. Onların Azərbaycan xalqının xeyrinə heç bir tədbir görmədiklərinin şahidi olduq, əksinə, ermənilərlə söhbətlərində onları azərbaycanlılara qarşı qızışdırırdılar. Qoşunların gözləmə mövqeyi də hamının təəccübünə səbəb olmuşdu. Məsələ isə aydın idi. Sumqayıtda təxribat törədilməli idi, bu təxribat da törədildi".

*- Bütün bunlara münasibətinizi bildirməyinizi istəyirəm.*

- Mən bildiklərimi qeyd edim. Sumqayıt şəhər Partiya Komitəsinin birinci katibi C.Müslimzadə mitinq iştirakçılarını arxasınca dənizkənarına aparanda, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri Yusifzadədən xəbər gəldi ki, Moskvadan iki xüsusi qrup gəlib, onlar hadisələri lentə alacaqlar.

*- Bəs necə oldu ki, sonralar o lentlər yoxa çıxdı? Nə bizim kəşfiyyat orqanlarının arxivlərində, nə də apardığımız araşdırmalar bir nəticə vermədi.*

- Görünür, bütün bunlar gizlin şəkildə harasa göndərilib.

*- Bu necə ola bilərdi?*

- Bu işdə maraqlı olan qüvvələr var idi.

*-Kim? DTK? Yaxşı, iğtişaşların tüğyan etməsində spirtli içkilərin, narkotiklərin də rolu böyük olmuşdur. Bunu təsdiqləyirsinizmi?*

- Bu məsələyə aydınlıq gətirmək istəyirəm. Sumqayıtın ərzaq mağazalarına cədvələ uyğun olaraq həftədə bir dəfə araq gətirilirdi. Hadisələr ərəfəsində mağazaların birindən ticarət birliyinə zəng vurulmuşdu ki, təcili olaraq araq gətirilsin. Əvvəl buna etiraz etmişdilər. Buna əhəmiyyət verməyib yenidən israrla spirtli içki tələb edirdilər. Guya mağazada araq qurtarıb. Biz bununla maraqlandıq. Əvvəl bir şey əldə edə bilmədik. Sonralar məlum oldu ki, zəng vuran da, mağaza müdiri də erməni imişlər. Onlar baza müdirinə külli miqdarda rüşvət verib, istəklərinə nail olmuşdular. Həmin günlər ermənilər Sumqayıtın bütün aptek müdirlərinə hədə-qorxu gələrək dimedrol dərmanını əldə etmişdilər. Spirtli içki dimedrolla birlikdə iğtişaşlarda iştirak edən gənclərə paylanıldı. Səhiyyə işçiləri daha dəqiq deyə bilərlər, dimedrolu spirtli içki ilə qarışdıranda təsiri adi narkotikdən də güclü olur, kişilərdə cinsi harmonları artırır.

*- Qriqoryana 5 nəfər erməni millətindən olan adamı qətlə yetirdiyinə görə 12 il iş verdilər. Əhməd Əhmədova isə Moskvada mühakimə edərək guya bir adam öldürdüyünə görə güllələnmə kəsdilər. Bir keçmiş DTK polkovniki və bir vətəndaş kimi hər iki hökmü ədalətli sayırsınızmı?*

- Vicdanlı adam bunu ədalətsiz sayar. Mən də vicdanıma ləkə salmaq istəmirəm. Bilirsiniz, bu işdə yüksək dairələrdə marağı olan qüvvələr var idi.

*- Hansı qüvvələr idi onlar?*

- Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu. Qorbaçov hakimiyyətə gələndə irəli sürdüyü siyasət qeyri-sosializm müstəvisində aparıldığından Siyasi Büro üzvləri iki yerə bölünmüşdü. Birinci qrupa Mərkəzi Komitənin katibi Y.Liqaçov rəhbərlik edirdi. O, SSRİ-nin qorunması, milli respublikaların torpaqlarının toxunulmazlığı haqqında çıxış edirdi. İkinci qrupun rəhbəri Qorbaçovun "yenidənqurma" siyasətinin baş memarı sayılan Mərkəzi Komitənin katibi A.Yakovlev idi. Onun SSRİ-nin dağılmasında danılmaz əməyi olmuşdur. İkinci qrupu Qorbaçov müdafiə edirdi. Bilirsiniz ki, onun ətrafı ermənilərlə əhatə olunmuşdu. Aqanbekyan, Şahnazarov, Sitaryan və başqaları. Dağlıq Qarabağ məsələsində də onların rolu vardır. Hələ mən Raisa Maksimovnanın Azərbaycan-Ermənistan münaqişəsində bitərəfli mövqeyini demirəm. Raisanın bir tərəfi erməni, bir tərəfi isə yəhudi idi. O, Qorbaçovla Fransada olanda erməni icması ilə görüşmüş, onlara Dağlıq Qarabağla bağlı vədlər vermişdi. Bu haqda SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədrinin birinci müavini F.Bobkovla söhbət edəndə, o, çiyinlərini çəkib demişdi ki, "Mən hər şeyi həll etməyə səlahiyyətli deyiləm. Raisanın Mixail Sergeyeviçə təsiri böyükdür".

*- Əgər biz deyiriksə Qorbaçov Qərb dövlətləri tərəfindən satın alınmışdısa, belə çıxır ki, Raisa Maksimovna da satın alınmışdı?*

- Bəli. Onun erməniپərəst mövqeyi haqqında yüksək dairələrdə çox danışılırdı. Həm də Amerikada, Fransada erməni oliqarxları tərəfindən aldığı qiymətli bəzək əşyaları bunu sübut edirdi.

### Budyonovsk şəhərində həbsxanada cəzasını çəkən Eduard Qriqoryana Amerikadan erməni lobbisi xüsusi bağlamalar göndərirdi

*- Qriqoryanı Azərbaycan təcridxanasından alıb, Stavropol vilayətinin Budyonovsk şəhərinə apardılar. Bu işdə, yəqin ki, Moskvanın əli vardır, eləmi?*

- Bəli. Siz Sumqayıt hadisələrinin araşdırılması ilə məşğulsunuz. Bilirsiniz ki, həmin dövrdə istər Yerevanda, istər Moskvada, istərsə də xarici mətbuatda Qriqoryanla bağlı böyük bir təbliğat kampaniyası başlandı. Guya Azıərbaycanda ona işgəncə verilir və sair. Bunları bəhanə kimi əldə rəhbər tutan Kremlin rəhbərliyi hüquq mühafizə orqanlarına tapşırdı ki, onu Rusiyaya köçürsünlər. Siz "Exo Sumqayıta" sənədli filmini çəkəndə Budyonovskda oldunuz, Qriqoryandan müsahibə aldınız. Mən də iştirak edirdim. Siz məni ona rejissorun assistenti kimi təqdim etdiniz. Onu da deyim ki, həmin vaxt mənim Stavropolda olmağımın iki səbəbi vardı. Birincisi haqqında. Bizə məlum idi ki, Qriqoryan fevral hadisələrindən əvvəl Stepanakertdə olub. Kimlərlə isə görüşüb, siyahı əldə edib və sair. Bizi onun etirafı maraqlandırırdı. Lakin onu Budyonovska gətirəndə heç kimlə görüşməyi, müsahibə verməyi, həqiqəti söyləməyi qəti qadağan etmişdilər, əvəzində ona gözəl bir şərait yaratmışdılar. Siz inanmazsınız, ancaq bu, həqiqətdir. Qriqoryana ayda bir dəfə Amerikadan böyük bağlama gəlirdi. Keyfiyyətli ərzaqlardan və geyim əşyalarından ibarət olurdu. Almaniyadan dərman preparatları göndərilirdi. Çünki o, vərəm idi. Bir sözlə, Qriqoryan həbsxanada yox, sanki sanatoriyada dincəlirdi.

*- Yakovlev haqqında. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sabiq sədri V.Kryuçkov "Liçnoye delo" xatirələr kitabında yazır ki, Yakovlev Kanadada SSRİ-nin səfiri işləyərkən Amerika Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən satın alınmış və həmin kəşfiyyat orqanının aktiv casusuna çevrilmişdi. Sizin fikrinizi bilmək istərdim.*

- Kryuçkovun dedikləri həqiqətdir. Hələ Brejnev hakimiyyətdə olanda Andropov ona bu haqda məlumat vermişdi. Leonid İliç isə buna əhəmiyyət verməmişdi. Aleksandr Yakovlevin atası Nikolay inqilabçı olub. Qırmızı qvardiyaçılar tərəfində vuruşub. Bolşeviklər hakimiyyətə gələndən sonra tamahkar olduğundan soyğunçuluqla məşğul olaraq, külli miqdarda pul, qızıl əldə etdi. Kollektivləşmə dövründə, tarixdən bilirsiniz ki, çörək qıtlığı oldu, aclıq baş alıb gedirdi. Bundan istifadə edən Nikolay yerli əhaliyə, imkansızlara kreditlə pul verirdi. Əvəzində taxıl, əşya, zinət əşyaları, yeri gələndə evlərini müsadirə edirdi. Beləliklə, bu qırmızı qvardiyaçı az bir zamanda "kulak"a çevrildi. Onun camaata zülm etdiyindən və oğurluq yolu ilə vəsait mənimsədiyindən NKVD xəbər tutdu və onu Sibirə sürgün etdilər. Aleksandr Nikolayeviç sonralar atasının familiyasından imtina edib, Yakovlev familiyasını götürdü. SSRİ-yə nifrət, kin-küdurət o vaxtdan başlamışdı. Ona görə də o, Kanadada olanda Mərkəzi Kəşfiyyat İdarəsinin agenti olmağa razılıq verdi və SSRİ-nin dağılmasında mühüm rol oynamağa başladı. Təsəvvür edin, xaricdə səfir işləyən sovet diplomatının aylıq xərcləri ona ayrılan əməkhaqqından bir neçə dəfə çox olurdu. Bu pulları ona kim verirdi? İnanıram ki, sualım sizə aydındır.

İkinci bir məqama toxunmaq istəyirəm. Yakovlev erməniپərəst idi və həmişə Qorbaçovun dəstəyini alaraq hərəkətə gəlirdi. Mənim Mərkəzi Komitənin katibi, Siyasi Büronun üzvü Y.Liqaçovla söhbətim olmuşdu. O mənə dedi ki, Azərbaycanla Ermənistan arasında yaranan konfliktlə əlaqədar olaraq mən Bakıya, Yakovlev isə Yerevana ezam olunduq. Azərbaycan fəalları qarşısında çıxış edərək bildirdim ki, torpaq toxunulmazdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, onu heç kim dəyişə bilməz. Moskvaya qayıdandan sonra mənə elə gəlirdi ki, Yakovlev də Yerevanda eyni siyasətlə çıxış edəcək. Lakin onun çıxışının stenoqramını oxuyanda çox təəccübləndim. Aleksandr Nikolayeviç Yerevanda fəallar qarşısında yox, mitinqdə qatı millətçilərin, daşnakların qarşısında çıxış etmişdi. Siyasi Büronun daxili qanunlarına görə belə çıxışlar qəti qadağan olunurdu. Nə isə. Yakovlev orada əhalini sakitləşdirir və deyir ki, bu tarixi zərurətdir və Dağlıq Qarabağ problemi Moskvada həll olunmaq üzrədir. O, bunu Qorbaçovdan xəbərsiz edə bilməzdi. Mixail Sergeyeviç məni Bakıya göndərdi ki, azərbaycanlıları sakitləşdirim, Yakovlevi Yerevana göndərdi ki, əhalinin narazılığını artırsın. Bundan sonra Staravoytova, akademik Saxarov və başqaları ermənilərin torpaq iddiasını müdafiə edərək kütləvi informasiya vasitələrində çıxış etməyə başladılar. Bu şəraiti də onlara Yakovlev yaradırdı, çünki media onun kurasiyasında idi.

*- Qriqoryan hazırda Moskva ətrafında yaşayır, heç bir yanda işləmir, tüfeyli həyat sürür. O, yəni elə bir böyük fiqurdur ki, indiyədək sağdır və yaxud həbsxanada yatmır?*

- Bilirsiniz, burada iki versiya var. Birincisi, ya o, çox şey bilir, müəyyən qüvvələr onun hələlik susmağını üstün tuturlar. İkincisi isə, ondan kiməsə qarşı kompromat kimi istifadə edəcəkləri məqamı gözləyirlər.

*- Bəs onu qoruyan, maliyyələşdirən kimlərdir?*

- Əlbəttə ki, FTX və Ermənistanın xüsusi xidmət orqanları.

### Qara plaşlılar kim idi, "Ximprom"un xlor istehsalatını partlatmaq kimlərin istəyi idi?

*- Stavropola gəlişinizin ikinci məqamını da açıqlasanız, pis olmazdı.*

- Stavropol vilayətində çoxlu erməni yaşayır. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri V.Hüseynov mənə belə bir tapşırıq verdi ki, Stavropolda xüsusi qrup formalaşıb, Azərbaycana qarşı təxribat törətmək istəyirlər. Mən orada xeyli işləməli oldum. Yerli kəşfiyyatın əməkdaşları ilə əlaqə saxladım. Bizə məlum oldu ki, 7 nəfər erməni millətindən olan ekstremist qrupu Sumqayıtda "Ximprom"un (kimya istehsalat birliyi - müəllif) xlor sexini partlatmaq istəyir. Xaricdə yaşayan erməni lobbisi onlara külli miqdarda pul və böyük partlayışa səbəb olacaq trotil ayırmışdı. Onlardan birini satın ala bildik. Əvvəlcə hər şeyi boynundan atdı. Biz ona erməni lobbisi tərəfindən verilən puldan daha böyük məbləğdə pul verdik. O, tamahkar olduğundan şirnikləndi və bizimlə işləməyə razılıq verdi. Bizi axşamüstü bir yaşayış məntəqəsinə apardı. Burada Sumqayıtın, "Ximprom"un, sexlərə giriş-çıxış yolları haqqında xəritələr vardı. Nə vaxt və necə Azərbaycana gələcəklərini də bizə söylədi. Onlara azərbaycanlı familiyası ilə bağlı pasport hazırlamışdlar. Biz bütün bunlar haqqında Moskvaya - SSRİ Dövlət Təhlükəsizlik Komitəsinə məlumat verdik. Onlar da həmin şəxslərin həbsi haqqında bizə göstəriş verdilər. Əməliyyatımızı uğurla başa vurub, onların hamısını həbs etdik. Bir çox faktlar da aşkara çıxdı, bu haqda susmaq daha məsləhətdir.

*- Əgər partlayış baş tutsaydı, onun əhatə dairəsi, yəqin ki, böyük olardı?*

- Elədir. Kimya istehsalatından əsər-əlamət qalmazdı. Yaşayış massivlərinə də ciddi ziyan dəyəcəkdi, böyük dağıntılar olacaq, insan tələfatına yol veriləcəkdi.

*- Bu terror aktının qarşısını məhz azərbaycanlı çekistlər aldı, yoxsa...*

- Bu işdə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi qruplarının əməkləri böyük olmuşdur.

*- Sumqayıtda iğtişaşlar zamanı qara plaşlılar kütlə arasında görünürdülər. Bu barədə fikrinizi bilmək istərdim.*

- Bu haqda çox yazılıb. Mən isə öz bildiklərimi sizə çatdırmaq istəyirəm. Sumqayıtda yerli agenturanın verdiyi məlumata görə, baş verən hadisələr ərəfəsində Qriqoryanın yanına Yerevandan iki nəfər emissar gəlmişdi. İkisi də qara plaş geyinmişdi. Bu geyim bir növ işarə idi. Onlar uzaqdan bir-birini tanıyır, birgə hərəkət edirdilər. Bu geyimlərlə çox maraqlandıq. Əlimizə şəkillər keçdi. Onları Moskvaya ekspertizaya göndərdik. Bizə belə bir məlumat verdilər ki, NKVD-nin arxivində belə qara plaşlar vardır. Bu cür qara plaşları 1943-cü ildə alman faşistləri onlara qulluq edən xüsusi təyinatlı ermənilərə verir və təxribat törətməyə çağırırlarmış. Bu qara plaşlar bir növ işarə, parol idi. Onlar uzaqdan-uzağa bir-birini tanıyır, terror aktını birgə həyata keçirirdilər. Müharibə vaxtında ermənilər bundan məharətlə istifadə edib, faşist ideologiyasına xidmət edirdilər və bu mənfur ideologiya, yəni faşist ideologiyası ermənilərin milli ideologiyasına çevrildi. İndi də ondan istifadə edirlər. Fikrimi belə yekunlaşdırmaq istəyirəm ki, ermənilər müharibə illərində sovetlərin tərəfində yox, faşistlərin tərəfində daha çox canfəşanlıq göstərmişlər.

Bu onların iş metodudur. Milli zəmində münaiqşə yaratmaq üçün Moskva rəhbərliyi erməni kartından məharətlə istifadə edirdi. Buna şübhəniz olmasın.






# TURİZM






● Gəzməli, görməli yerlərimiz






## Azərbaycanda turizmin inkişafı dünyanın diqqət mərkəzindədir

**Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində turizm iqtisadiyyatımızın aparıcı sahələrindən birinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycan 2023-cü ilə qədər 4 milyona yaxın turist qəbul etməyə hazırlaşır. Bu məqsədlə ölkəmizə ildə 10 faiz turist gəlişini artırmaq nəzərdə tutulub. Proqnoz ildən-ilə öz reallığı ilə rəğbət doğurur. Bunu xarici ölkələrin mərkəzi televiziya və radio verilişlərindən, bölgələrin həyatından bəhs edən telekanallardakı süjetlərdən, qəzet və jurnal materiallarından da bilmək mümkündür.**

Rusiya Federasiyası, Türkiyə, Avstraliya, İtaliya və bir sıra ərəb ölkələrində Azərbaycanın coğrafi şəraiti, əsrarəngiz təbiət müxtəlifliyi, dünya standartlarına cavab verən bir-birindən yaraşıqlı istirahət mərkəzləri, gəzməli və görməli yerləri barədə maraqlı verilişlər təqdim olunur. Məsələn, Rusiyanın "Moya Planeta", "Pyatnitsa", NTV və digər kanallarında, həmçinin CNNArabi, "Al-Arabiyya", "Masr-al-yaum" və s. ərəbdilli televiziya verilişlərində, Türkiyənin "Sabah" və "Hüriyet" kimi aparıcı qəzetlərində, habelə müxtəlif ölkələrdə müstəqil telekanallarda və sosial şəbəkələrdə insanlar diqqətçəkən verilişlərin izləyicisi olublar. Bu verilişlərdə Azərbaycanın turistlər üçün maraqlı və unudulmaz məkan olacağı qeyd edilməklə respublikamızın tolerantlıq ənənələri, multikulturalizm dəyərləri, qədim və zəngin mədəniyyəti, tarixi abidələri, ləzzətli mətbəxi sevgi ilə xatırlanıb. Hətta son illər Bakının evsahibliyi etdiyi sammitlərdə, konfrans və simpoziumlarda, digər beynəlxalq tədbirlərdə dövlət və siyasət adamları çıxışlarında ölkəmizin turzm uğurlarını yüksək dəyərləndirmişlər. Bütün bunların əsasında Prezident İlham Əliyevin ölkəmizdə turizmin dünya standartlarına uyğun qurulması və inkişaf etdirilməsi siyasəti dayanır. Dövlət başçısının rəhbərliyi altında respublikamızda turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə "Turizm haqqında" qanun layihəsi, 2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası hazırlanıb. Həmin strategiya uğurla həyata keçirildikcə Azərbaycanın bu sahədəki nailiyyətləri bütün dünyada qürurverici səslənir.

Azərbaycanda 2011-ci ilin "Turizm ili" elan edilməsi turizmin inkişafında mühüm nəticələr əldə olunmasına, əlverişli coğrafi mövqeyi, iqlimi, mədəni-tarixi irsi, qonaqpərvərliyi, daxili sabitliyi olan ölkəmizin tezliklə dünyanın turizm mərkəzlərindən birinə çevrilməsinə öz töhfəsini vermişdir. 2002-ci ildən etibarən hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin (AITF) keçirilməsinin ənənə halını alması ölkəmizdə turizmin inkişafına göstərilən diqqətin bariz nümunəsidir.

Təsadüfi deyil ki, cari il noyabrın ikinci ongünlüyündə Avstriyanın paytaxtı Vyanada Beynəlxalq Turizm Filmləri Festivalları Komitəsi (CIFFT) tərəfindən keçirilən müsabiqədə Azərbaycanın tanıtım videoçarxı "Qran-pri" mükafatına layiq görülmüşdür.

140 ölkənin qatıldığı bu mərasimdə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru "Biz çox şadıq ki, Azərbaycanın turizm təbliğat videoçarxı ölkəmizin turizm potensialı haqqında dolğun təsəvvür yarada bilir və hər kəsi Azərbaycana gəlməyə, ölkə turizminin malik olduğu zənginliklərə bir daha baxmağa həvəsləndirir" deyə iştirakçıları ölkəmizi ziyarət etməyə dəvət etmişdir.

Hazırda Bakıda, eləcə də ölkəmizin ayrı-ayrı regionlarında biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün irimiqyaslı layihələr həyata keçirilib. Ölkə rəhbəri 2016-cı ilin oktyabrından etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron vizaların maksimum üç saat ərzində verilməsinə dair sərəncam imzalayıb. Həmin vaxtdan "ASAN viza" sistemi uğurla fəaliyyət göstərir.

Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında da fərman imzalayıb. Respublikamızdakı ictimai-siyasi sabitlik, əmin-amanlıq, yüksəksəviyyəli təhlükəsizlik, infrastruktur və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər, viza sisteminin sadələşdirilməsi Azərbaycana gəlmək istəyən turistlərin ildən-ilə artmasını təşviq edir.

Ekspertlərin fikrincə, 2019-cu il Azərbaycana gələn turistlərin sayına görə rekord il olacaq. 2019-cu ilin yanvar-oktyabr ayları ərzində ölkəmizi ziyarət edənlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz və ya 264 min nəfər artaraq təqribən 2.7 milyona çatıb. Dövlət Turizm Agentliyindən redaksiyamıza verilən məlumata görə, bu da 2019-cu ildə Azərbaycana gələn xarici vətəndaşların sayının 3 milyondan artıq olacağına əsas verir.

Qonaqların böyük hissəsi Rusiyadan (təqribən 800 min nəfər) və Gürcüstandan (təqribən 600 min nəfər) gəlib. Bu iki ölkədən gələnlər Azərbaycanı ziyarət edən qonaqların 51,9 faizini təşkil edir.

Mərkəzi və Cənubi Asiyadan gələn xarici vətəndaşların sayında da müvafiq olaraq 47,9 faiz və 37,8 faiz artım müşahidə edilib.

2019-cu ilin oktyabr ayı ərzində Azərbaycanı 264 min nəfər xarici vətəndaş ziyarət edib ki, bu da 52 min nəfər və ya 24,7 faiz artım deməkdir.

Ən yüksək artım 74,3 faizlə İran və 65,1 faizlə Orta Asiya ölkələrindən gələnlərlə bağlıdır. Mütləq sayda ən yüksək artım isə Gürcüstan (9.6 min nəfər və ya 18 faiz artım) və Rusiyadan (9.2 min nəfər və ya 14,4 faiz artım) gələnlər arasında müşahidə edilib.

Hazırda Azərbaycanda turizm çox geniş imkanlara malikdir. İlk növbədə təhlükəsizlik və sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir. Müxtəlif iqlim tipləri var. Günün tələblərinə cavab verən infrastruktur yaradılıb, 6 beynəlxalq aeroport, müasir yollar, dəmir yolları, hotellər, kurortlar, yayqış xizək, dəniz kurortları, müalicəvi turizm və s. inkişaf edir. Məsələn, Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə - Naxçıvanda Duzdağ Müalicəvi Mərkəzinə turistlər gəlir. Qalaaltıya müalicəyə gəlirlər.

Tarixi abidələrimiz kifayət qədər çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindəndir. Yəni bütün bu amillər deməyə əsas verir ki, turizm sənayesi Azərbaycanda sürətlə inkişaf edir. Xaricdən turistlərin cəlb edilməsi məqsədilə yeni layihələr həyata keçirilir. Məsələn, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən ölkədə macəra turizminin inkişafı, dağçılıq və ekstremal idman növlərinə marağın artırılması üçün respublika Gənclər Fondunun dəstəyi ilə "Vətənimdə qarış-qarış" layihəsi çərçivəsində İsmayıllı rayonundan başlayan Sulut kəndi ərazisindəki Fit dağında yerləşən XVII-XVIII əsrlərə aid "Buzxana" və "Qırxotaq əfsanəsi" abidələrinin marşrutu üzrə istiqamətləndirici nişan və məlumat lövhələri yerləşdirilib. Layihənin respublikanın digər regionlarında da həyata keçirilməsi nəzərdə tutulur. Yeni marşrutların istiqamətləri müəyyənləşdirilir.

Dünyanın bir çox ölkələrində Azərbaycan diaspor təşkilatlarının və respublika Turizm Bürosunun birgə təşkilatçılığı ilə Azərbaycanın turizm potensialı və səmərəliliyinə dair tədbirlər keçirilir, mətbuat konfransları təşkil edilir, nüfuzlu mətbu orqanlarda məqalələr dərc olunur, televiziyalarda süjetlər göstərilir. Bu səbəbdəndir ki, xarici ölkələrdəki turizm şirkətləri ilə əməkdaşlıq sazişləri artır. Dünyanın turizm ölkələrindən birinə çevrilən Azərbaycana gələn əcnəbi turistlərin say çoxluğu buna bariz nümunədir. Gələnlərin sayında ən çox artım Misir (83,2 faiz), Hindistan (80,6 faiz), Türkmənistan (78,5 faiz), Çin (74,3 faiz), Səudiyyə Ərəbistanı (48,8 faiz), Macarıstan (48,1 faiz), Böyük Britaniya (30,9 faiz), Cənubi Koreya (30,9 faiz), Yaponiya (29,3 faiz), Polşa (27,7 faiz), Kanada (25,2 faiz) və Almaniya (25,1 faiz) olmuşdur. Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 26,3 faiz artaraq 83,2 min, MDB ölkələrindən gələnlərin sayı isə 6,7 faiz artaraq 655,1 min nəfərə çatmışdır.

Ölkəmizin ən ucqar ərazilərində belə dünya standartları səviyyəsində nəqliyyat infrastrukturu yaradılır. Xüsusilə dağ kəndləri yollarında yaradılan təhlükəsizlik və yolların asfalt örtüyünün müasir tələblərə cavab verməsi turistlərin məmnunluğuna səbəb olur. İndi turistlər həmin ərazidəki kəndlərə səyahət etməkdən zövq alırlar. Dövlət başçısının tapşırığı ilə turistlərin rahatlığını təmin etmək və onların vaxt itkisinin qarşısını almaq, nəhayət, yol turizminin səmərəliliyini artırmaq məqsədilə bölgələrdə kəndarası yollar əsaslı şəkildə təmir olunur, yol kənarlarına tanıtma nişanları qoyulur, yaşıllıqlar salınır və s. Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmizdə turizm sahəsinə qoyulan sərmayə öz bəhrəsini verir. Yeni və müasir hotellər, dünya standartlarına uyğun yollar, bir sözlə, yaradılan infrastruktur Azərbaycanı daha da cəlbedici edib.

*Rəhman SALMANLI,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

● Beynəlxalq əməkdaşlıq

## Turizm sektoru üçün bacarıqlı kadrlar hazırlanır

**Azərbaycan iqtisadiyyatında müşahidə olunan dinamik inkişaf qeyri-neft sektorunun aparıcı sahələrindən biri hesab edilən turizm sənayesinin mövcud nailiyyətlərində də özünü büruzə verir. Kompleks şəkildə həyata keçirilən tədbirlər, qurulan müasir turizm infrastrukturları, təbliğat-təşviqat işinin uğurlu təşkili və atılan digər zəruri addımlar Azərbaycan turizminə beynəlxalq marağın ilbəil artmasına zəmin yaradıb.**





Bu gün ölkəyə turist axınına aid statistik göstəricilərə diqqət yetirmək kifayət edir ki, əldə olunan uğurların miqyası barədə hər kəsdə dolğun təəssürat yaranmış olsun. Bu göstəricilərə daxili turizm potensialını və resurslarını, həmçinin qeyri-ənənəvi turizm sahələrinin yaradılması və inkişafı sahəsinin uğurlarını da əlavə etsək, həqiqətən də ürəkaçan mənzərə ortaya çıxar. Təbii ki, bu inkişafın və nailiyyətlərin təməlində ölkə Prezidenti İlham Əliyevin təşəbbüsləri və iradəsi, imzaladığı sərəncam və fərmanlar dayanır. Yeri gəlmişkən etiraf etmək lazımdır ki, inkişafı təmin edən faktor təkcə qurulan, yaradılan infrastrukturlarla əlaqəli deyil. Burada mütəxəssis amili, turizm sektoru üçün ixtisaslı kadr hazırlığı mühüm rol oynayır.

Bu sahədə Mingəçevir Turizm Kollecinin xüsusi rolu var. 2006-cı ildə Nazirlər Kabinetinin qərarı ilə Bakı Bədən Tərbiyəsi və Turizm Kollecinin bazasında yaradılan Mingəçevir Turizm Kolleci fəaliyyətə başladığı zaman nə Azərbaycan dilində yetərli sayda dərslik, nə metodiki tədris vasitələri, nə də arzuolunan sayda turizm sahəsi üzrə ixtisaslaşmış pedaqoq, mütəxəssis vardı. Kollec o zaman struktur tabeliyinə daxil olduğu Mədəniyyət və Turizm Nazirliyinin, eləcə də Təhsil Nazirliyinin yaxından dəstəyi ilə Avropanın qabaqcıl təhsil müəssisələri və elmi mərkəzləri ilə işgüzar əməkdaşlıq əlaqələri yaratmaqda ciddi səylər göstərdi. Qısa müddətdə Şotlandiyanın Stevenson kolleci faydalı tərəfdaşa çevrildi. Dostlaşan iki kollec arasında təşkil olunan tələbə-pedaqoq mübadiləsi, britaniyalı mütəxəssislərin Mingəçevirdə təşkil etdiyi seminar-treninqlər, beynəlxalq layihədə birgə iştirak, beynəlxalq konfranslarda birgə təqdimat, nəzəri-metodik vəsaitlərin qarşılıqlı səylər nəticəsində hazırlanması və nəşri, eləcə də atılan digər addımlar Mingəçevir Turizm Kollecinə uğurlar qazandırdı. Tədris işi beynəlxalq standartlara uyğun quruldu. Şotlandiyalı mütəxəssislərlə başlanılan uğurlu əməkdaşlıq kollecin gələcək əlaqələr coğrafiyasının genişləndirilməsi üçün güclü stimul oldu. Bundan sonra Rumıniyanın Andrey Barseanu, Rusiyanın Moskva Humanitar, Moskva Biznes və İqtisadiyyat, Qazaxıstanın Almaatı Texnologiya və Menecment, digər təhsil müəssisələrilə yeni faydalı əlaqələrin təməli qoyuldu. Məntiqi nəticə olaraq Mingəçevir Turizm Kolleci Avropa İttifaqı tərəfindən həyata keçirilən Tempus layihəsində iştiraka dəvət aldı. Bu, Mingəçevir Turizm Kollecinə Fransanın Qrenobl Akademiyası, Almaniyanın Yade Universiteti kimi qabaqcıl və daha nüfuzlu təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri yaratmağa imkan verdi. Beynəlxalq örnəklərin axtarışı və səmərəli əməkdaşlıq səyləri turizm kollecinin qarşısında yeni üfüqlər açdı. Belarus və Rusiya təhsil müəssisələri ilə səmimi dostluq əlaqələri buna nümunədir. Belarusun Polotsk Dövlət Universiteti, Brest Dövlət Texniki Universiteti, Rusiyanın Sankt-Peterburq Turizm və Hotel Servisi Kolleci və Rusiya Qonaqpərvərlik İnstitutu ilə qarşılıqlı əlaqələr, adları çəkilən təhsil müəssisələri ilə pedaqoq-tələbə və metodik vəsait mübadilələri gözlənilən nəticələri verməkdədir. Belarus universitetlərində Mingəçevir kollec məzunlarının təhsillərini birbaşa yuxarı kurslarda davam etdirmək imkanı yarandı. Digər uğurlu bir əməkdaşlıq münasibətləri Sankt-Peterburq Turizm və Hotel Servisi Kolleci ilə formalaşıb. Onların böyük nümayəndə heyəti ilə Mingəçevirə səfəri, qarşılıqlı olaraq Mingəçevirli heyətin Rusiyadakı işgüzar görüşləri önəmli hadisələrə yol açdı. Belə ki, rusiyalı dostların təşəbbüsü ilə Mingəçevir Turizm Kolleci Sankt-Peterburq Kolleci ilə birgə həmin şəhərdə İtaliya və Finlandiya təhsil müəssisələri nümayəndələrinin iştirakı ilə baş tutan beynəlxalq konfransa həmtəşkilatçılıq etdi. Eyni zamanda, ənənəvi olaraq Bakıda keçirilən Beynəlxalq Turizm və Səyahətlər Sərgisində sankt-peterburqlu dostların geniş bir heyətlə iştirakı təmin edildi. Belə bir mötəbər beynəlxalq sərgidə uğurlu iştirak Mingəçevir Turizm Kolleci üçün yeni perspektivlər açdı. Sərgidə yeni əlaqələrin təməli qoyuldu. Sərginin iştirakçılarından olan Şri-Lankanın tanınmış turizm şirkəti kollecl ə daha sıx və məqsədyönlü əlaqələr qurmaq marağını bildirdi. Ən unudulmaz məqam isə odur ki, bu sərgilər zamanı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva təmsilçilik guşəsində kollecin fəaliyyəti ilə yaxından tanış olaraq kollektivə yeni uğurlar arzulamışdır.

Mingəçevir Turizm Kolleci hazırda 12 ixtisas əsasında qiyabi və əyani şöbələr üzrə təhsil verir. Turizmin iqtisadiyyatı və rekresiya idman sağlamlıq turizmi ixtisasları üzrə tələbə qəbulu prosesinə ötən ildən başlanılıb. İxtisaslar qeyri-ənənəvi turizm sektorunun təkmilləşdirilməsi üçün ixtisaslı kadr hazırlığına hesablanıb.

Kollec təkcə təhsil vermir, həm də gənclərin vətənpərvərlik ruhunda fəal vətəndaş kimi yetişməsi üçün bütün mövcud resurslardan səmərəli istifadə edir. İdman, özfəaliyyət və digər yaradıcılıq yönlü dərnəklərdə gənclərin istedadlarının üzə çıxarılmasına dəstək verilir. Çox sayda mədəni kütləvi tədbirlər, konfranslar, yarışmalar, sərgilər və müsabiqələr təşkil olunur ki, bunlar da gənclərin dünyagörüşünü zənginləşdirir, onların boş vaxtlarını səmərəli keçirmələrinə imkan yaradır. Respublika əhəmiyyətli tədbirlərdə, yarışlarda və festivallarda istedadlı tələbə gənclərin iştirakı stimullaşdırılır.

Mingəçevir Turizm Kollecinin direktoru, iqtisad elmləri doktoru, professor Əyyub Əyyubov söhbət zamanı sabahın qayğılarından söz açdı:

- Ölkədə qeyri-neft sektorunu inkişaf etdirməyin prioritet olduğunu bəyan edən Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Dövlət Turizm Agentliyi bu sahəni inkişaf etdirmək məqsədilə qarşıya son dərəcə məsul və şərəfli vəzifələr qoymuşdur. Bu baxımdan bir təhsil müəssisəsi olaraq bizim də üzərimizə böyük məsuliyyət düşür. İxtisaslı kadr hazırlığı missiyası həyata keçirən kollektivimiz obyektiv, şəffaf və nəticəyönümlü tədris və hazırlıq işlərinin yüksək səviyyədə təşkilinə böyük önəm verir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

● Tədbir

## Moskvada "Qış mövsümündə Azərbaycanda turizm imkanları"na dair seminar keçirilib



**Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Rusiyanın Moskva şəhərində "Qış mövsümündə Azərbaycanda turizm imkanları" mövzusunda seminar keçirilib. Seminarda Rusiyanın 100-ə yaxın turoperatoru, turagenti və turizm sənayesinin nümayəndələri iştirak edib.**

"Şahdağ" Turizm Mərkəzi və "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi xizək kurortlarının nümayəndələri tərəfindən Azərbaycanın qış turizmi imkanları, dağ-xizək mərkəzlərində təqdim olunan xidmətlər haqqında ətraflı məlumat verilib.

Tədbirdə həmçinin Qəbələdəki sağlamlıq və özünübərpa turizmi üzrə fəaliyyət və xidmətlərdən danışılıb, Qəbələ şəhərinin qədim müalicə adət-ənənələrindən və sanatoriyalarından bəhs olunub.

Tədbir çərçivəsində vurğulanıb ki, rusiyalı turistlərin qış aylarında istirahət destinasiyası olaraq seçdikləri ölkələr arasında Azərbaycan ilk sıralardadır, həmçinin dekabr ayından mart ayınadək davam edən qış turizm mövsümündə ölkəmizə gələn Rusiyadan olan ziyarətçilərin sayı ildən-ilə artmaqdadır.

Qeyd edək ki, 2018-ci ilin dekabrından etibarən Moskvada Azərbaycanın rəsmi turizm nümayəndəliyi fəaliyyət göstərir.

*"Azərbaycan"*

● Ekoaksiya



## "Azərbaycanda ekoloji saflığın qorunması naminə"

**Bərdə Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Xan meşəsi" ərazisində "Azərbaycanda ekoloji saflığın qorunması naminə" devizi altında ekoaksiya keçirilib.**

Aksiyada Bərdə regional "ASAN xidmət" mərkəzinin könüllüləri, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin tələbələri, idmançılar və rayonun fəal gəncləri iştirak ediblər.

"Xan meşəsi" adlanan ərazinin müəyyən sahəsi plastik qablar və polietilen torbalardan təmizlənib və məhv edilmək üçün aidiyyəti yerə təhvil verilib.

Aksiya zamanı ətraf mühitin qorunması, təmizliyə riayət olunması, məişət tullantılarının ətraf mühitə, fauna və floraya vurduğu ziyanla bağlı maarifləndirici söhbət aparılıb.

*"Azərbaycan"*

● Xəbər

## İspaniyada Azərbaycanın işgüzar turizm imkanları tanıdılır

**Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəni təmsil edən turizm şirkətləri İspaniyada keçirilən "IBTM World" sərgisində iştirak edir.**




Sərgidə Azərbaycan Turizm Bürosunun tabeliyində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosu ilə birlikdə Bakı Konqres Mərkəzi, həmçinin 10-a yaxın turizm şirkəti təmsil olunur.

Dövlət Turizm Agentliyindən bildirilib ki, noyabrın 19-dan start götürən sərgi çərçivəsində B2B (Biznesdən-biznesə) formatında görüşlər keçirilib, Azərbaycanın işgüzar turizm potensialı barədə təqdimatlar nümayiş edilib.

İşgüzar tədbirlər sənayesinin ən mühüm sərgilərindən biri sayılan "IBTM World"də iştirak etməkdə məqsəd Azərbaycanın turizm imkanlarını tanıtmaq, təbliğ etmək və bu məqsədlərlə ölkəmizə səfər edəcək sənaye iştirakçılarının sayını artırmaqdır. Qeyd edək ki, 1987-ci ildən bəri hər il keçirilən "IBTM World" ən əhəmiyyətli beynəlxalq sərgilərdən biri hesab olunur və işgüzar tədbirlər sənayesində fəaliyyət göstərən 15 mindən çox mütəxəssisi bir araya gətirir.

Məlumat üçün bildirək ki, Azərbaycan Turizm Bürosunun tabeliyində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosu tərəfindən ölkədə işgüzar turizmin inkişaf etdirilməsi istiqamətində aktiv iş aparılır. Həmçinin ölkəyə böyükmiqyaslı tədbirlərin cəlb olunması məqsədilə müxtəlif dövlət və özəl qurumlarla əməkdaşlıq edilir.



# Cəfər Cabbarlı-120






Realist sənətkar

## Sovet hakimiyyətinin imtina edə bilmədiyi Cəfər Cabbarlı

**Otuz beş illik ömür içərisində yaşadıqları, gördüyü işlər saysız-hesabsız məqalələrə, cild-cild kitablara sığmır. Cəfər Cabbarlı istedadı ilə, ədəbi-mədəni mühitə gətirdiyi yeniliklərlə çox gənc yaşlarından diqqəti cəlb etmişdi. Elə o vaxtlardan haqqında dəyərli fikirlər söylənilməyə və yazılmağa başlanıldı.**

### Cabbarlı yaradıcılığına həsr olunmuş ilk yazı...

Onun yaradıcılığından bəhs edən birinci yazı 102 il bundan qabaq işıq üzü gördü. Həmin vaxtlar Abbas Mirzə Şərifzadənin rəhbərliyi ilə Cəfər Cabbarlının "Ədirnə fəthi" pyesi tamaşaya qoyulmuşdu. "Tamaşaçı" imzası ilə "Açıq söz" qəzetinin 1917-ci il 18 dekabr taixli sayında dərc edilən resenziyada da "Ədirnə fəthi"ndən bəhs olundu. Müəllifinin görkəmli tənqidçi Seyid Hüseyn olduğu güman edilən yazıda əsərin doğurduğu təəssüratlar diqqət çəkirdi. Müəllif dekabrın 15-i, cümə günü sənət məktəbinin tələbələrindən biri - Cabbarzadənin yeni yazmış olduğu "Ədirnə fəthi" adlı pyesinin Aktyorlar İttifaqı tərəfindən birinci dəfə tamaşaya qoyulduğunu yazırdı: "...Bu pyesa o qədər şirin, o qədər ruh qabardacaq bir üslub ilə yazılmışdır ki, doğrudan da, bu vəqtə qədər səhnəmiz şirinlik və ruh yüksəkliyi cəhətindən böylə bir əsər görməmişdir". Tənqidçi ədəbi əsərin uğurları ilə bərabər qüsurlarını da qeyd edirdi.

O zaman çox gənc olmasına baxmayaraq, C.Cabbarlı artıq "Vəfalı Səriyyə", "Solğun çiçəklər", "Nəsrəddin şah", "Ulduz" pyeslərini yazmışdı. "Ədirnə fəthi"ndən sonra da ədəbi-mədəni mühitdə maraqla qarşılanan neçə-neçə dram əsərinin müəllifi oldu. Bu pyeslər xalqımızın teatr zövqünün formalaşmasında mühüm rol oynadı.

Dramaturgiya yaradıcılığında xüsusi yer tutsa da, Cəfər Cabbarlı istedadı yalnız bir sahədə məhdudlaşmadı. Onun yaradıcılıq yolu zəngin və məhsuldar oldu. Gözəl şair olan Cəfər Cabbarlı həm lirik, həm də satirik şerlərin müəllifidir.

Siyasi qarşıdurmalarla müşayiət olunan dövrün Azərbaycan üçün nə qədər ağır və məsuliyyətli olduğunu yaxşı bilən C.Cabbarlı xalqın təəssübkeş ziyalılarına qoşuldu, Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil dövlətin güclənməsinə çalışdı.

### "Azərbaycan sovet dramaturgiyasının banisi"

Sovet hakimiyyəti onun cümhuriyyət dövründə və sonralar göstərdiyi ictimai-siyasi fəallığı unutmadı. Buna görə təqiblərə məruz qaldı, iki dəfə həbs edildi. Şübhəsiz ki, 1937-ci ilin repressiya burulğanı Cəfər Cabbarlıdan da yan keçməyəcəkdi. Amma böyük millətsevər o vaxtadək yaşamadı. 1935-ci ildə vəfat edən sənətkarın ölümü ilə bağlı yazılmış dövlət nümayəndələrinin rəsmi başsağlığında ondan "Azərbaycanın sevimli yazıçısı, Zaqafqaziyanın böyük dramaturqu", "təvazökar və sosializm quruluşu işinə sadiq adam" deyə bəhs olundu. Buna baxmayaraq, bütün yaradıcılığı, əsərləri təqdir olunmadı. Çünki onların bir çoxunda C.Cabbarlının yolunda canından keçməyə hazır olduğu ideyalar əksini tapmışdı. Sovet dövründə lazımınca tədqiq olunmasa da, bir sıra əsərləri gizlədilsə də, bəzilərinin üzərindən sükutla keçilsə də, Cəfər Cabbarlı unudulmadı. Bu, mümkün də deyildi. Ona görə ki, C.Cabbarlısız Azərbaycan teatr sənəti solğun, kasıb görünərdi.

Dövrün ideologiyasına uyğun olaraq onu "Azərbaycan sovet dramaturgiyasının banisi" kimi təqdim etdilər. Cəfər Cabbarlı haqqında geniş məzmunlu elmi-tənqidi məqalələr, həyat və yaradıcılığına həsr olunmuş memuarlar yazıldı. 1917-ci ildən başlayaraq sovet hakimiyyətinin ilk illərinədək Seyid Hüseynlə yanaşı Abdulla Şaiq, Xəlil İbrahim, Abbas Mirzə Şərifzadə, Hacıbaba Nəzərli, Böyükağa Talıblı, Əziz Şərif, Hənəfi Zeynallı, Mustafa Quliyev və dövrünün digər tanınmış ziyalıları cabbarlışünaslığın yaranmasında, formalaşmasında fəal iştirak etdilər. Sonrakı illərdə Əmin Abid, Əli Nazim, Səməd Vurğun, Mehdi Hüseyn, Rəsul Rza, Məmməd Arif, Cəfər Xəndan, Mir Cəlal, Mirzə İbrahimov, Məmməd Cəfər Cəfərov, Məmmədhüseyn Təhmasib, Sabit Rəhman, Əziz Mirəhmədov və başqalarının C.Cabbarlıya həsr etdikləri elmi-tənqidi məqalələr respublikanın müxtəlif mətbuat orqanlarının səhifələrində dərc olundu. Sovet hakimiyyəti illərində həmçinin akademik Məmməd Arif "Cəfər Cabbarlının yaradıcılıq yolu" (1956), Cəfər Cəfərov "Cəfər Cabbarlı" (1960), Fəridə Vəzirova "Cəfər Cabbarlı yaradıcılığında sosializm realizmi" (1960), Mərziyə Paşayeva "Cəfər Cabbarlı arxivinin təsviri" (1965), Əmirxan Xəlilov "Sənət və sənətkar" (1974), Elmira Gözəlova "Cəfər Cabbarlı və rus mədəniyyəti" (1975), Rasim Tağıyev "Azərbaycan sovet dramaturgiyasının banisi" (1979), Nəmidə Abbasova "Cəfər Cabbarlı dramaturgiyasında söz" (1983), Paşa Əfəndiyev "Cəfər Cabbarlı və xalq yaradıcılığı" (1985), Arif Abdullazadə "Şair Cəfər Cabbarlı" (1989), Rəhim Əliyev "C.Cabbarlının yaradıcılıq təkamülü" (1989) və başqa müəlliflər yazdıqları monoqrafiyalarda sənətkarın zəngin irsini araşdırdılar.



### Cabbarlışünaslıq müstəqillik illərində

Ötən əsrin sonlarında Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Həmin illərdən başlayaraq əksər sahələr kimi, ədəbiyyatşünaslıqda da canlanma müşahidə olundu. Cabbarlışünaslığa sanballı töhfələr olan əsərlər yazıldı, sənətkarın həyat və yaradıcılıq yolu araşdırıldı. Ədəbiyyatşünas alilərimizdən professorlar Timuçin Əfəndiyev "C.Cabbarlı və romantik dramları" (1999), Elçin "Cəfər Cabbarlı. Şəxsiyyəti və yaradıcılığı haqqında düşüncələr" (2000), "Şəxsiyyət və istedad" (2000), Səlahəddin Xəlilov "Sıxılmış zaman və ya Cabbarlı fenomeni" (2000), "Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti" (fəlsəfi etüdlər) (2001), Teymur Əhmədov "Böyük sənət baharı" (2001), Alxan Bayramoğlu "Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat" (2003), Asif Rüstəmov "Susmaz duyğuların səltənətində" (2002), "Cəfər Cabbarlı: həyatı və mühiti" (2009), bu günlərdə nəşr olunmuş "Cəfər Cabbarlı və cabbarlışünaslıq" kitabları bu qəbildəndir. Həmçinin akademik Bəkir Nəbiyev, akademik İsa Həbibbəyli, professorlar Nizaməddin Şəmsizadə, Şamil Salmanov, Arif Səfiyev, Aydın Dadaşov, İlham Rəhimli, Aydın Kazımov, Firudin Qurbansoy və başqaları elmi-tənqidi məqalələrində Cəfər Cabbarlı yaradıcılığının əhəmiyyətindən bəhs etdilər.

Hər zaman müasirliyini, aktuallığını saxlayan ədəbi-bədii nümunələr bütün dövrlərdə ədəbiyyatşünaslığın diqqətini cəlb edir. Azərbaycan ədəbiyyatında öz dəstxəti olan Cəfər Cabbarlının zəngin bədii irsi də bu cəhətləri ilə həmişə ədəbiyyatşünaslar, tədqiqatçılar üçün maraqlı olaraq qalacaq və tədqiq ediləcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

### EY DAN ULDUZU

Qaranlıq gecədə səni gözləyib
Durmaqdan yoruldum, ey Dan ulduzu!
Uzaq üfüqlərə göz gəzdirməkdən
Az qala kor oldum, ey Dan ulduzu!

Öksüz taleyimtək gecikdin nədən?
Karvanqıran doğdu, görünmədin sən,
Oxşatdım, yanıldım, könül verdim mən,
Bilmədən vuruldum, ey Dan ulduzu!

Arxasınca qoşdum sonsuz bir yola,
Hər addımda tuş gəlincə bir kola,
Qaranlıqda çox baxındım sağ-sola,
Hər yana buruldum, ey Dan ulduzu!

Büsbütün yorulub gücdən düşərkən,
Bir ulduz parladı uzaq üfüqdən.
Bu görünən səndin, artıq gəldin sən,
Axır səni buldum, ey Dan ulduzu!

### OLMASIN

Bülbülündən ayrı düşmüş qızılgül,
Bu hicrana kimsə düçar olmasın.
Kaş ki, yavrum, son günlərin sevinci
Böylə qısa, bietibar olmasın.

Sənsiz könlüm fəryadlardan usanmaz,
Çaylar dursa, göz yaşlarım dayanmaz.
Dünya gülşən olsa, könlüm oyanmaz,
Sənsiz, yavrum, artıq bahar olmasın.

Dünki gülşən - yarın xəzançın oynaq,
Dünki insan - yarın bir yığın topraq.
Keçmiş ilk bahardan bu bir kaç yapraq,
Saqın, yavrum, son yadigar olmasın.

Bəlli şey ki, həyat beş qara gündür,
Mənsiz gül, ağlama, könlüm sevindir,
Cismim torpaq olsa, ruhum sənindir,
Sevgimizə yoxluq məzar olmasın.

### TELLƏR OYNADI

Bir mən idim, bir sən idin, bir də yamaclar...
Meşə yolu, yarpaq dolu yaşıl ağaclar.
Onda ki ağ umuzlara töküldü saçlar,
Əsdi yarpaq, coşdu irmaq, güllər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı.

Bir biz idik, bir düz idi, bir də al boya...
Dağ başında uçan quşlar endilər çaya.
Sən dedin ki: "Bütün dünya qoy dönsün toya!..
Çaldı qaval, uzaq kənddə ellər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı.

Endi duman, örtü kimi dünya qarardı,
Ara-sıra əsən bir yel saçın darardı,
Onda ki oynaq tellərin boynumu sardı,
Çaxdı şimşək, coşdu sular, sellər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı.

Səhnə əsərləri

## "Ulduz" və "Ədirnə fəthi"

**Cəfər Cabbarlı yaradıcılığa başladığı gündən həyatın səsinə qulaq asmış, reallığın və cəmiyyətdə gedən mübarizələrin tərcümanı olmağa çalışmışdır. O, bütün varlığı ilə əsl yazıçı, əsrlə, zamanla yaşayan böyük sənətkar idi.**



Yaradıcılığına şeirlə başlasa da, nəsrə, dramaturgiyaya daha çox üstünlük vermişdi. Ən məşhur əsərlərini dram janrında yazmışdı. Onun əsərləri zamanın danışan dili idi, dövrün həqiqətlərindən bəhs edirdi. Xalqın tərəqqisinin ana xəttini mədəniyyətin, teatrın inkişafında görən sənətkar bir-birinin ardınca 20-dən çox gözəl səhnə əsəri yaratmışdır. Lakin bu pyeslərin bir qismi məfkurəvi cəhətdən ziyanlı kimi səciyyələndirilmişdir. Cəfər Cabbarlının 1917-ci ildə Osmanlı tarixi ilə bağlı qələmə aldığı "Trablis müharibəsi və ya Ulduz", "Ədirnə fəthi" kimi pyesləri onillər boyu gün işığına çıxarılmamışdır. Onlar türk məişətini, qəhrəmanlığını və şücaətini təbliğ etdiyi üçün yazıldığı vaxtdan vulqar və sovet tənqidi tərəfindən "pantürkist", "panislamist" təmayüllü əsərlər kimi qarşılanmışdır. Az sonra isə tamamilə səhnədən çıxarılmışdır. Hər iki əsər görkəmli aktyor Abbas Mirzə Şərifzadənin rəhbərlik etdiyi "Bakı Müsəlman Aktyorları İttifaqı" tərəfindən tamaşaya qoyulmuşdu.

"Ulduz" bitkin kompozisiyaya malik beşpərdəli səhnə əsəridir. Hadisələr İtaliya-Osmanlı müharibəsi fonunda daha dramatik xarakter alır. Müharibə şəraitində qabarıq şəkildə üzə çıxan xəyanət, namərdlik, mənəvi pozğunluq kimi əxlaqi keyfiyyətləri ifşa etmək üçün C.Cabbarlı ləyaqət, nəciblik, sədaqət, dostluq kimi bəşəri duyğuları önə çəkmişdir. Bununla da Ramiz, Ulduz, Şəmsə, Əbdürrəhman kimi surətlərin simasında saf, mətin xarakterlər silsiləsi yaratmışdır. Əsər 1918-ci ilin köhnə təqvimlə mart ayının 10-da "İsmailiyyə" binasının böyük zalında bayram əhvali-ruhiyyəli tamaşaçıların böyük sevinci və sevgisi ilə keçmişdir. Tamaşanın quruluşçu rejissoru və baş rollardan birinin - Ramizin ifaçısı bənzərsiz səhnə ustası Abbas Mirzə Şərifzadə idi.

"Ədirnə fəthi" faciəsini isə gənc Cabbarlı 1917-ci ilin oktyabrında bitirmiş, əsər elə həmin il dekabrın 15-də görkəmli səhnə ustalarımız tərəfindən müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu. Pyesin uğurları səhnə təfsirindən əlavə sosial-ictimai ədalətin təntənəsindən ayrılmazdır. Balkan müharibələri dövründə təslimçi, riyakar mövqe tutmuş hakim dairələrə qarşı türk xalqının qəzəbi, itirilmiş Ədirnə torpaqları uğrunda vətənpərvərlik hərəkatı, insanların qəhrəmanlığı və rəşadəti əsərin əsas mövzusunu, ana xəttini təşkil edirdi. Görkəmli yazıçı, tənqidçi Seyid Hüseyn "Ədirnə fəthi"nin elmi təhlilinə, səhnə təcəssümünə iki məqalə qələmə almışdır. O yazırdı: "Ədirnə fəthi"ndə gənc mühərririn müvəffəqiyyəti tamaşaçılarını məşğul edə bilmək məziyyətidir. Bir mühərrir üçün bu, böyük müvəffəqiyyətdir" *("Azərbaycan" qəzeti, 1919-cu il, № 254).*

Bu əsərlər meydana çıxdığı gündən ədəbi-mədəni həyatda mübahisələrə, fikir ayrılıqlarına səbəb olmuşdu. A.M.Şərifzadənin rəhbərliyi altında aktyor kollektivi mədəni fəaliyyəti genişləndirmək məqsədilə 1918-ci il martın 16-da "İsmailiyyə" binasında sənətsevərləri və teatr ictimaiyyətini yenidən "Ulduz"un işığına toplamışdı. Əsərin uğurlu səhnə taleyi təkcə müəllifə deyil, bütövlükdə aktyor truppasına, teatrsevərlərə sənət sevincləri yaşatmışdı.

Cəfər Cabbarlı "Trablis müharibəsi" və "Ədirnə fəthi" əsərlərinin ilk tamaşasından sonra verilən ziyafətdə çıxış edərək türk xalqının zəngin mədəniyyətə və döyüş ənənələrinə malik olduğundan söhbət açmışdı. "Trablis müharibəsi"ndə Nuru paşanın hərbi xadim və şəxsiyyət kimi bədii obrazını təsvir etməklə yanaşı, generalın Bakının xilası uğrundakı zəfər yürüşündən bəhs olunacaq yeni əsərini yazacağına söz vermişdi. General ziyafətdən sonra C.Cabbarlının dəvətini qəbul edərək onun qonağı olmuşdu.

Vədinə xilaf çıxmayan ədib "Bakı müharibəsi" əsərini yazmışdı. Bu əsər daha ağır tale ilə üzləşmişdi. Pyesdə 1918-ci ilin martında Bakıda baş verən qanlı hadisələr, erməni daşnaklarının azərbaycanlılara qarşı zülmləri təsvir edilir, başda Nuru paşa olmaqla xilaskar türk ordusunun şəhəri erməni vəhşilərindən xilas etməsi haqqında söhbət açılırdı. Həmin faciə 1919-cu il sentyabrın 16-da Abbas Mirzə Şərifzadənin rəhbərliyi ilə "Türk ocağı"nda tamaşaya qoyulmuşdu. Amma əsər sonradan itirilmişdir.

***İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

Yeni nəşrlər

## "Azad bir quşdum..."

### Cəfər Cabbarlı yalnız nasir deyil, həm də lirik, poetik misralarla könülləri ovsunlayan şair idi

**Azərbaycan ədəbiyyatında öz dəstxəti ilə seçilən ədiblərimizidən biri də Cəfər Cabbarlıdır. 120 il bundan öncə Bakıda, kasıb bir ailədə dünyaya göz açan Cəfər Cabbarlı Azərbaycan ədəbiyyatının klassiki, müasir dramaturgiyanın banisi, milli mədəniyyətimizin və incəsənətimizin inkişafında müstəsna xidmətlərinə görə hələ yüzillər boyunca unudulmayacaq bir simadır. Onun ədəbi-bədii yaradıcılığının üfüqləri geniş və şəfəqləri işıqlıdır.**

Görkəmli dramaturq, teatr və kino xadimi kimi tanınan Cəfər Cabbarlı ədəbi fəaliyyətə uşaq yaşlarından şeirlə başlayıb. Zəngin və hərtərəfli yaradıcılıq yolu keçərək, ədəbiyyatın həm nəzm, həm də nəsr janrlarından bacarıqla istifadə edən yazıçı, eyni zamanda istedadlı jurnalist, tərcüməçi və kino xadimi kimi də tanınmışdır.

Ədibin bu il anadan olmasının 120 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncam geniş ədəbi ictimaiyyət tərəfindən böyük məmnunluqla qarşılandı. Müxtəlif ünvan və məkanlarda keçirilən silsilə xarakterli yubiley tədbirlərində Cəfər Cabbarlının ədəbi-bədii irsinin daha dərindən öyrənilməsi və təbliği xüsusi vurğulanır.

Bu günlərdə şair, dramaturq, nasir, ədibin poetik növlərdən ibarət daha bir kitabı işıq üzü görüb. C.Cabbarlı Ev-Muzeyinin direktoru Qəmər Seyfəddinqızının toplayıb tərtib etdiyi "Cəfər Cabbarlı-120. Ölkəm" kitabında şairin lirik və satirik şeirləri toplanıb. Geniş tamaşaçı auditoriyasında dramaturq kimi əsərləri səhnələrdən düşməyən Cəfər Cabbarlı burada lirik şeirləri ilə könülləri fəth edən şair kimi təqdim edilir.

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Müasir cəmiyyətdə maarifçiliyin və milli mədəniyyətin inkişaf etdirilməsi məqsədilə C.Cabbarlının yaradıcılığının təbliği" layihəsi çərçivəsində C.Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım İctimai Birliyi tərəfindən buraxılmış kitabda da göstərildiyi kimi, yazıçının əsərləri üzərində aparılan son tədqiqatlardan məlum olmuşdur ki, ədibin ilk mətbu (satirik "Sücaətim" və lirik "Eşidənlərə") şeirləri 1911-ci il noyabrın 5-də "Həqiqəti-əfkar" qəzetində "Cəfər... Mətrud" imzası ilə dərc edilib. Yazıçı yaradıcılığını əsasən dramaturgiya sahəsində inkişaf etdirmiş, səhnə üçün yazdığı qüdrətli əsərləri onu Azərbaycan ədəbiyyatının yaradıcılarından biri kimi şöhrətləndirmişdir.

Cəfər Cabbarlı nəzmə çəkdiyi fikrin fəlsəfəsinə daha çox yer vermişdir. Şeiriyyətin qəlibi şair üçün əsas önəm daşımayıb. O, klassik heca vəzni ilə yanaşı, müasir sərbəst formada da qələmini sınamaqdan çəkinməmişdir.

Təbii ki, şair-dramaturqun yaşadığı və yaradıcılıqla məşğul olduğu dövrdə şeirin əruz növü digərlərini üstələyirdi. C.Cabbarlı yaradıcılığında qəzələ rast gəlinməsi də, çox güman ki, bununla bağlı olmuşdur:

*Yaşasın, doğrusu, gör, cümlə-müsəlman oyanıb,*
*Varlı, yoxsul, ürəfa, canlı və bican oyanıb...*




C.Cabbarlının şeirlərinə yazılmış mahnılar da dillər əzbəri və könüllərdə ovqat yaradan lirik düşüncələrdən ibarətdir. "Azad bir qusdum..." mahnısı mərhum müğənni Səxavət Məmmədovun ifasında sözün əsl mənasında qanad açdı. Bu pərvazda bir azadlıq təşnəsi vardı...

Şairin bədiiyyatında satira yalnız dram əsərlərindəki dövrün antipodları deyildi. O, satirik qələmlə də həpəndlərini hədəfə alırdı. Bu mənada qızlarını cəhalətdə saxlayan köhnə fikirli ataların tənqid atəşinə tutulduğu, 1915-ci ildə "Babayi-Əmir"də şairin satirik qələmlə dərc olunmuş "Qızıma" şeiri də diqqətçəkəndir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

### Görkəmli ədəbiyyat xadimlərinin Cəfər Cabbarlı irsi haqqında fikirləri

■ "Cəfər Cabbarlı real, həyati və böyük konfliktlər seçməyin ustası idi. Onun hər dramının canını təşkil edən konfliktdə cəmiyyətin bütöv bir dövrü əks olunur, ictimai mübarizələr, diri, canlı insanlar, zamanın ehtirasları, rəngi və ahəngi özünəməxsus boyalarla, qabarıq cizgilərlə canlanır".

***Mirzə İBRAHİMOV***

❖ ❖ ❖

■ "İyirminci-otuzuncu illərdə bir tərəfdə güclü, qüdrətli romantikası, o biri tərəfdə isə coşqun, ehtiraslı və vətəndaş qayəli Cabbarlı romantik-realizmi Azərbaycan dramaturgiyasını milli ədəbiyyatın və ümumiyyətlə, milli mədəniyyətin qabaqcıl, işıqlı, bədii-estetik cəhətdən qüdrətli qollarından birinə çevirmişdir".

***ELÇİN***

❖ ❖ ❖

■ "Cəfər Cabbarlı yeni epoxanı, bu epoxanın keçmişi unudan və tamamilə bugünə qaynayıb-qarışan gənc oğlan və qızlarını bitkin obrazlar kimi qələmə alır. Lakin onun öz obrazını keçmişdən ayırmağa və yalnız bu gündə təhlil etməyə ixtiyarımız yoxdur... Ümumiyyətlə, Cabbarlı ən çox və ətraflı tədqiq edilən klassiklərimizdəndir. Ədəbiyyat elmimizin bir sıra ən mühüm elmi-nəzəri nailiyyətləri onun adı ilə bağlıdır".

***Yaşar QARAYEV***

Xəbər

## "Sevil" pyesi Şəki teatrında tamaşaya hazırlanır

**XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, yazıçı, dramaturq, ssenarist Cəfər Cabbarlının anadan olmasının 120 illiyi ilə bağlı müxtəlif tədbirlər həyata keçirilir.**



Milli azadlıq və istiqlal ideallarının tərənnümçüsü olan Cəfər Cabbarlı çoxcəhətli ədəbi və ictimai fəaliyyəti ilə xalqımızın tərəqqisi naminə çalışıb. Çoxşaxəli yaradıcılığı ilə mədəniyyətimizin inkişafında mühüm rol oynamış C.Cabbarlının əsərləri uzun illərdir ki, teatrların repertuarını bəzəyir. Yubiley ili çərçivəsində Azərbaycan milli teatrının inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli dramaturqun pyeslərinə yenidən müraciət olunur.

Böyük dramaturqun ölməz əsərlərindən biri - "Sevil" pyesi də Şəki Dövlət Dram Teatrında səhnələşdirilir. Qeyd edək ki, baş qəhrəman - Sevil obrazı ilə Azərbaycan qadınının yüksəliş yolu təsvir edilən bu əsər müxtəlif teatr səhnələrində dönə-dönə tamaşaya qoyulub. Hər dəfə də tamaşaçıların diqqətini çəkərək sevgisini qazanıb. Bu uğuru davam etdirmək üçün Şəki Dövlət Dram Teatrının yaradıcı kollektivi də həvəslə məşqlərə başlayıb.

Görkəmli dramaturqun anadan olmasının 120 illiyi münasibətilə hazırlanan tamaşanın quruluşçu rejissoru Orxan Həmidli, geyim üzrə rəssamı Sahib Əhmədov, bəstəkarı Firudin Allahverdi, rəqslərin quruluşçusu isə Çingiz Novruzəliyevdir. Tamaşada rolları Əməkdar artistlər Xanlar Həşimzadə, Akif Yusifov, Rəhim Qocayev, aktyorlar Pərviz İsmayılov, Fərahim Fətəliyev, aktrisalar Lalə Məmməd, Arzu Mustafayeva, Nazilə İmamhüseynova və Aysun Mustafazadə ifa edəcək. Əsərin əsas qəhrəmanı Sevil obrazını canlandıran gənc aktrisa Zümrüd Əliyeva isə bu rolla debüt edir.

Tamaşa yaxın vaxtlarda teatrsevərlərə təqdim olunacaq.

***"Azərbaycan"***

# Azərbaycan sərhədçiləri Xəzər dənizində səhhəti pisləşən İran və Rusiya dənizçilərinə yardım göstəriblər

Dövlət Sərhəd Xidməti (DSX) Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsini davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 1-də saat 17:50 radələrində Hövsan reydində olan İran İslam Respublikasına məxsus "Paya" quru yük gəmisinin dörd nəfər heyət üzvü - İran vətəndaşları 1976-cı il təvəllüdlü Abditazehabadi Omid Hossein, 1991-ci il təvəllüdlü Darzırekavandı Reza Soleyman, 1987-ci il təvəllüdlü Mosleh Vahid Ghafar, 1991-ci il təvəllüdlü Zarın Abkenar Alinin hərarətlərinin yüksək olması ilə əlaqədar özlərini pis hiss etmələri haqqında məlumat daxil olub. Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarəti tərəfindən limanın rəhbərliyi ilə birgə bununla əlaqədar təxirəsalınmaz tədbirlər görülüb və onlar Musa Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasına təxliyə ediliblər.

Həmin gün saat 18:25 radələrində Dövlət Dəniz Agentliyinin Milli Mərkəzindən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Baş Komanda-Nəzarət Mərkəzinə Rusiya Federasiyasının bayrağı altında üzən, Türkan reydində hərəkətdə olan "Omskiy-136" quru-yük gəmisinin heyət üzvü 1980-ci il təvəllüdlü matros Zubankov Yefim Vladimiroviçin səhhətinin yüksək təzyiqlə bağlı kəskin pisləşməsi ilə əlaqədar kömək göstərilməsi barədə məlumat daxil olub. Xəstənin tibbi təxliyəsi üçün təxirəsalınmaz tədbirlər görülüb. Növbətçi sərhəd gözətçi gəmisinin qayığı tərəfindən Hövsan limanına çıxarılan Y.Zubankov tibb müəssisəsinə yerləşdirilib.

# Oğuz Peşə Məktəbinin direktorunun qanunsuz hərəkətləri barədə cinayət işi başlanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu islahatlardan biri kimi, təhsil sektorunun inkişafına yönələn dövlət proqramları və layihələrin icrası nəticəsində peşə təhsili xidmətlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində mühüm addımlar atılır. Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Oğuz Peşə Məktəbinin direktorunun qanunsuz hərəkətləri barədə əldə edilmiş əməliyyat məlumatları əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən Təhsil Nazirliyinin əməkdaşlarının iştirakı ilə birgə təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

Bu tədbirlərlə Oğuz rayonunun Bayan kəndində yerləşən Oğuz Peşə Məktəbinin direktoru Azər Nəcməddinovun məktəbin digər işçiləri vasitəsilə peşə məktəbində təhsil alan şagirdlərin "Kapitalbank" ASC tərəfindən təqdim edilmiş plastik kartlarından istifadə etməklə, 2017-2019-cu illər ərzində onların aylıq təqaüdlərini ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmasını təmin etmək məqsədilə A.Nəcməddinovun, baş usta İmdad İsmayılovun, baş mühasib və digər işçilərin xidməti otaqlarında, yardımçı sahələrdə, o cümlədən A.Nəcməddinovun yaşadığı rayonun Kərimli kəndində yerləşən evində məhkəmə qərarı ilə axtarış aparılıb, peşə məktəbinin şagirdlərinə məxsus 39 plastik kart, şagirdlər tərəfindən təhsil haqqı kimi ödənildiyi bildirilmiş 600 manat pul və iş üzrə digər əhəmiyyətli sənəd və əşyalar aşkarlanaraq götürülüb.

İstintaq zamanı toplanmış ilkin sübutlarla Azər Nəcməddinovun həmin qanunsuz hərəkətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, o, şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və qanuni mənafeləri pozulmuş şagirdlərin dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Təhsil Nazirliyi bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşlarına müraciət edərək Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təkliflər sorğusu metodu ilə Bakı şəhəri Nizami və Xəzər rayonlarında qurulacaq DOST mərkəzləri üçün kreslo, divan və oturacaqların satın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "ARAN MOBİLYA DEKORASYON İNŞAAT SANAYİ VE TİCARET LİMİTED ŞİRKETİ"nin Bakı filialı olmuşdur.

*Tender komissiyası*

Azercell

abunəçilərinin nəzərinə

3 yanvar 2020-ci il tarixdən etibarən, korporativ abunəçilər istisna olmaqla, bütün fakturalı və fakturasız (SimSim) xətt nömrələrinin abunəçiləri üçün "50 MB" günlük internet paketinə yeni qoşulmalar dayandırılacaq.

Qeyd olunan tarixə kimi bu paketə qoşulan nömrələr isə müvafiq abunəlik ləğv olunana qədər internet paketindən ümumi əsaslarla istifadəyə davam edə biləcəklər.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, Mobil İnternet Paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC

**2019-cu il üçün KOTİROVKA SORĞUSU elan edir**

1. Aşağıda göstərilən mallar üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:
- "İdarədə işlənən digər mallar"

2. Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 06 dekabr 2019-cu il (saat 17.00) tarixinədək qəbul olunur.

3. Tələb olunan sənədlər:
- Nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- Kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- Kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- Vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlar tərəfindən verilmiş arayışlar;
- Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün).

**Ünvan: AZ1005 Bakı şəh. Səbail rayonu H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66, (+99412) 497-41-19.**

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC

**2019-cu il üçün KOTİROVKA SORĞUSU elan edir**

1. Aşağıda göstərilən mallar üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:
- "Mətbəə və çap məhsullarının"

2. Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 06 dekabr 2019-cu il (saat 17.00) tarixinədək qəbul olunur.

3. Tələb olunan sənədlər:
- Nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- Kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- Kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- Vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlar tərəfindən verilmiş arayışlar;
- Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün).

**Ünvan: AZ1005 Bakı şəh. Səbail rayonu H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66, (+99412) 497-41-19.**

*Tender komissiyası*

## Dövlət Məşğulluq Xidməti Qax və Ucar Rayon Məşğulluq mərkəzlərinin inzibati binalarının cari təmir işlərinin satın alınması üçün keçirilən təkliflər sorğusuna dəvət edir

Təkliflər sorğusu 2 LOT üzrə keçirilir:

**LOT 1** - Qax rayon Məşğulluq Mərkəzinin inzibati binasının cari təmiri

**LOT 2** - Ucar rayon Məşğulluq Mərkəzinin inzibati binasının cari təmiri

Maraqlanan təşkilatlar (012) 596 32 73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı LOT 1 üçün 100 ( yüz ) manat**
**LOT 2 üçün 200 ( iki yüz ) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**H/h: AZ18CTRE00000000000004788202**
**SWIFT CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 09 dekabr 2019-cu il saat 17:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 10 dekabr 2019-cu il saat 15:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Nazirlər Kabinetinin "İş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında" qərarını nəzərə alaraq, "Azərişıq" ASC tərəfindən **Şamaxı rayonu 35 kV-luq 1 dövrəli "Çuxuryurd-Meysəri" Elektrik Veriliş Xəttinin tikintisi** işlərinin satın alınması məqsədilə elan edilmiş və 28.11.2019-cu il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuş açıq tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlərin qəbulu 25 dekabr 2019-cu il saat 16:00 tarixinə, tender təklifi və bank təminatı sənədlərinin qəbulu 07 yanvar 2020-ci il saat 16:00 tarixinə, iddiaçıların təkliflərinin açılışı 08 yanvar 2020-ci il saat 16:00-a qədər uzadılır.

*Tender komissiyası*

# Beynəlxalq aləm



## İndoneziyada təbii fəlakər qurbanlarının sayı 462 nəfərə çatıb

İndoneziyada ilin əvvəlindən bəri baş vermiş təbii fəlakətlər nəticəsində 462 nəfər həlak olmuşdur. Bu barədə Təbii Fəlakətlərin Qarşısının Alınması üzrə Milli Agentliyin nümayəndəsi Aqus Vidovo məlumat vermişdir.

Vidovonun dediyinə görə, bu il yanvarın 1-dən dekabrın 2-dək ölkədə 3415 təbii fəlakət qeydə alınmışdır. Nəticədə 6 milyon nəfərə yaxın adam ev-eşiyini tərk etmiş, 462 nəfər həlak olmuş, 107 nəfər itkin düşmüşdür.

Ötən il yanvarın 1-dən dekabrın 20-dək ölkədə 2426 təbii fəlakət qeydə alınmışdır. 4231 nəfər təbii kataklizmlərin qurbanı olmuşdur.

## YPG/PKK Suriyada qaçqınların düşərgəsini yandırdı

YPG/PKK terrorçu təşkilatının üzvləri Suriyanın Deyr əz-Zor əyalətində qaçqın düşərgəsinə od vurmuşlar. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, hadisə əyalətin Cizrə Əlbuhamid qəsəbəsinin yaxınlığındakı düşərgədə baş vermişdir. Orada Suriya rejiminin nəzarətində olan rayonlardan qaçmış 200 ailə məskunlaşmışdır. Yanğınla əlaqədar düşərgənin sakinləri yaxınlıqdakı qəsəbələrə qaçmışlar.

YPG/PKK həmin ərazidə öz üzvlərindən birinin meyitini tapmış və qisas kimi 300 çadırdan ibarət daha bir düşərgəni yandırmaqla hədələmişdir.

## Yerevanda Qriboyedovun heykəli təhqir olundu



Ermənistanın paytaxtı Yerevanda rusiyalı şair və səfir Aleksandr Qriboyedovun heykəli təhqir olunmuşdur. Erməni millətçiləri heykələ qırmızı boya atmışlar. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Vandalizm aktını törətmiş Şagen Arutyunyan "Facebook"dakı səhifəsində yazmışdır: "Mən Qriboyedovun heykəlinə boya atdım. Təəssüf ki, Ermənistanda dövlət səviyyəsində Armavirdə baş vermiş aksiyaya (nasist Qaregin Njdenin Rusiyanın Armavir şəhərindəki xatirə lövhəsinə boya atılması və sonradan, ümumiyyətlə, sökülməsi nəzərdə tutulur - red.) heç bir reaksiya verilməmişdir. Qoy bilsinlər ki, Ermənistanda mənim kimi millətçi oğullar var və biz bu cür hərəkətləri cavabsız qoymayacağıq".

Şagen Arutyunyan 2014-cü ildə xuliqanlığa görə 6 il müddətinə azadlıqdan məhrum edilmiş radikal Şant Arutyunyanın oğludur. Onun özü də xuliqanlığa görə şərti olaraq məhkum edilmişdir.

Qaregin Njde İkinci Dünya müharibəsi illərində alman nasistləri ilə əməkdaşlıq etmişdir. O, Vermaxtın "erməni legionu"nun siyasi rəhbəri olmuşdur. Arxiv məlumatlarına əsasən, general Njdenin "erməni batalyonu" Krımda cəza əməliyyatları həyata keçirmişdir. 1944-cü ildə Njde Bolqarıstanda tutulmuş və sovet hərbi məhkəməsi tərəfindən 25 il müddətinə azadlıqdan məhrum edilmişdir. 1955-ci ildə Vladimir şəhər həbsxanasında ölmüşdür.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru və kollektivi AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və universitetin Həmkarlar İttifaqı Komitəsi Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının dosenti, Əməkdar müəllim

**BƏHRAM MƏMMƏDLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 4052
Qiyməti 40 qəpik